Bu məqalədə elektromaqnit dalğalarının atmosferin dielektrik nüfuzluğu nəticəsində refraksiya təsirinə məruz qalması qiymətləndirilmişdir. Hesablamalar atmosferin aeroloji və radiolokasiya zondlaşdırılması verilənləri əsasında yerinə yetirilmişdir. Alınan nəticələr standart radioatmosfer verilənləri ilə müqayisə edilmişdir.

Açar sözlər: *Refraksiya, radiodalğalar, dielektirk, atmosfer, radiolokasiya, meteorologiya.*

ASSESSMENT OF RADIOVAWES REFRACTION FACTOR IN ATMOSPHERE

N.Sh. Huseynov, B.M. Melikov

In this article the effecting of dielectric permeability of atmosphere on radiovawe refraction was assesed. Calculations were made on basis of aerological and radar sounding of atmosphere. The results of calculations were compared with the standard radio atmosphere.

Key words: *refraction, radiowaves, dielectric, atmosphere, radar, meteorology.*

Hörmətli oxucular!

«Elmi Məcmuələr» jurnalına abunə yazılmaq və ya ayrı-ayrı nömrələrini almaq istəyirsinizsə redaksiyamıza müraciət edin.

Ünvanımız: AZ 1045, Bakı ş.
Mərdəkan pr. 30
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.
E-mail hasanov@naa.edu.az

ƏTRAF MÜHİTİN QORUNMASI

AZƏRBAYCANIN NEFT EMALI MÜƏSSİSƏLƏRİNİN SOSİAL-İQTİSADİ SAHƏYƏ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

G.Y.Mehdiyeva[1], C.S.Mehdiyev[2], F.H.Qurbanova[3], G.N.Adıgözəlova[2]

MAKA Ekologiya İnstitutu[1], Milli Aviasiya Akademiyası[2] ,doktorant[3]

Məqalə Azərbaycanın, neft emalı müəssisələrinin tullantılarının sosial-iqtisadi təsirlərinin dinamikasının öyrənilməsinə həsr edilib. Araşdırmaların nəticəsi göstərir ki, Bakı şəhəri ilə Azərbaycanın digər şəhər və kənd rayonlarında əhalinin təbii artımı arasında hiss ediləcək dərəcədə fərqlər var. Məqalədə həmçinin Bakı şəhərində əhalinin ekoloji problemlər səbəbindən səhiyyəyə xərclədiyi əlavə məbləğin hesablanması üçün təqribi metodika da verilir.

Açar sözlər: *neft emalı müəssisələri, ekoloji çirklənmə, sosial-iqtisadi təsirlər, su sərfi, ekoloji tarazlıq.*

Giriş

Neft emalı sənayesinin birbaşa və ya dolayı yolla ətraf mühitə vurduğu ziyan həm Bakıda, həm də ətraf ərazilərdə insanların sağlamlığına ciddi zərər vurur. Bakı və ətraf ərazilərdə 1) atmosfer havasının çirklənməsi, 2) neft emalı müəssisələrinin yerləşdiyi ərazilərdə su hövzələrinin, xüsusilə Xəzərin çirklənməsi, 3) neft emalından yaranan bərk tullantıların toplanması kimi birbaşa təsirlərlə yanaşı dolayı təsirlərin, xüsusilə avtonəqliyyatın yaratdığı ekoloji problemlər Bakı sakinləri üçün ciddi problemə çevrilməkdədir. Neft emalı zavodlarının yaratdığı ekoloji problemlər insanların sağlamlığına mənfi təsir göstərməklə, həm də iqtisadi inkişafa mane olur. Belə ki, əhalinin sağlamlığına dəyən ziyan səhiyyəyə çəkilən xərclərlə yanaşı, həm də dolayısı ilə əhalinin istehsal potensialının azalmasına səbəb olur.

Ekoloji problemlərdən əhalinin səhiyyəyə çəkdiyi xərclərin miqdarını, istehsal potensialının dəyişməsi səbəbindən iqtisadiyyata dəyən ümumi ziyanı hesablamaq o qədər də asan deyil. Lakin Bakıda neft emalı müəssisələrinin yaratdığı ekoloji problemlərin lazımi səviyyədə həll olunmaması şəraitində belə hesablamaların aparılması gələcəkdə iqtisadi zərərlərin azaldılmasına müsbət təsir göstərə bilər.

Göstərilən nöqteyi-nəzərdən Rusiya Federasiyasının Səhiyyə Nazirliyinin apardığı hesablamalara görə 1993-cü ildə Rusiyada istehsal potensialı 600 min adam-ili qədər azalıb. Bu isə Ümumi Daxili Məhsuldan (ÜDM) 3 milyard dollar vəsaitin itirilməsi deməkdir. Digər tərəfdən, ekoloji problemlərin artması ölkədə müxtəlif xəstəliklərin, o cümlədən onkoloji xəstəliklərin artmasına səbəb olduğundan əhalinin xərcləri arasında səhiyyə xərclərinin çoxalmasına və həyat şəraitinin aşağı düşməsinə səbəb olur. Beləliklə, ekoloji problemlər nəinki dövlətin təbii iqtisadi aktivlərinin birbaşa azalmasına, həmçinin əhalinin sağlamlığına təsir göstərərək ən vacib iqtisadi faktorun-insan faktorunun zəifləməsinə səbəb olur.

Neft emalı müəssisələrinin yerləşdiyi ərazilərdə və ətraf rayonlarda sosial-iqtisadi təsirlərin dəyişmə dinamikası

Azərbaycanda neft emalı müəssisələri Bakı şəhərinin mərkəzə yaxın ərazilərində yerləşir. H. Əliyev adına BNEZ Xətai rayonunda, "Azərneftyağ" NEZ isə Nizami rayonu ərazisində yaşayış massivlərinə çox yaxın olan 1000 ha-dan çox əraziləri əhatə edir. Hər iki zavod coğrafi baxımdan elə yerləşib ki, şimal və şimal-qərb küləyi zavodlardan atmosferə atılan tullantıların Bakıda daha geniş yaşayış ərazilərinə yayılmasına səbəb olur. Digər tərəfdən, zavodların Xəzərə yaxın olması suya axıdılan tullantıların da tez bir zamanda sahil sularına qarışmasına şərait yaradır.

H. Əliyev adına Bakı Neft Emalı Zavodunun (BNEZ) yerləşdiyi ərazilərə lap yaxın ərazilərdə 267 mindən çox, "Azərneftyağ" Neft Emalı Zavodunun (NEZ) yerləşdiyi ərazilərə bilavasitə yaxın olan ərazilərdə isə 192 mindən çox insan yaşayır. Bu ərazilərdə əhalinin sıxlığı da

xeyli yüksəkdir. Əgər bu rayonlarda yerləşən neft emalı zavodlarına ayrılan əraziləri də nəzərə almasaq, onda əhalinin sıxlığı Bakı şəhəri üzrə orta sıxlıqdan ən azı 10 dəfə çox olar.

Müqayisə üçün qeyd edək ki, dünyanın heç bir ölkəsində emal gücü H. Əliyev adına BNEZ və ya "Azərneftyağ" NEZ qədər olan neft emalı zavodları nəinki Xətai və ya Nizami rayonları qədər əhalisi sıx olan ərazilərdə yerləşdirilmir, hətta əhali sıxlığı Bakıdakı qədər olan şəhərlərdə də fəaliyyət göstərmir.

Neft emalı müəssisələrinin ətraf mühitə və sosial sahəyə təsirlərinin ən çox olduğu ölkələrdən biri Rusiyadır. Bu ölkədə 33 belə zavod fəaliyyət göstərir ki, ondan yalnız biri-Moskva neft emalı zavodu böyük meqapolisə yaxın ərazidə yerləşir [1]. Lakin bu zavodun da yerləşdiyi ərazi, yəni Kapotnya rayonu meqapolisin mərkəzindən xeyli uzaqdır və əhali sıxlığı Xətai və ya Nizami rayonlarındakı sıxlıqla müqayisədə xeyli azdır (3374,7 nəfər). Rusiyanın digər zavodları isə əhalisi və əhalisinin orta sıxlığı Bakıdan xeyli az olan şəhərlərdə fəaliyyət göstərir. Nəzərə alsaq ki, Bakının yaşıllıq zonaları Rusiyada nef emalı yerləşən ərazilərdən xeyli az, güclü küləklərin əsdiyi günlərin sayı isə çoxdur, onda ətraf mühitə və insanların sağlamlığına dəyən ziyanın miqyasının yüksək dərəcədə olmasını ehtimal etmək mümkündür. Həmçinin Bakı şəhərində fəaliyyət göstərən hər iki neft emalı zavodu digər ərazilərdən yaşıllıq zonası ilə ayrılmadığından və coğrafi cəhətdən meqapolisin mərkəzinə xeyli yaxın yerləşdiyindən nəinki Nizami və Xətai rayonunda yaşayan əhaliyə təsir edir, hətta Bakı şəhərinin bütün ərazilərini təsir altında saxlayır.

Neft emalı zavodlarının atmosfer havasına, su hövzələrinə və torpaq qatına mənfi təsirlərinin birbaşa sosial-iqtisadi nəticəsi insanların sağlamlığı ilə bağlıdır. İnsanların təbii artımı, xəstəliklərin artım dinamikası digər faktorlarla yanaşı ətraf mühitin nə qədər çirklənməsi ilə də ciddi şəkildə əlaqəlidir. Azərbaycan Dövlət Statistika Komitəsinin (ADSK) məlumatlarına əsasən Azərbaycan Respublikasında təbii artım son 20 ildə 1990-cı illə müqayisədə xeyli aşağı düşüb [2]. Əgər 1990-cı ildə hər min nəfər üçün təbii artım 19,8 nəfər idisə, 2003-cü ilədək bu rəqəm hər il azalaraq 7,9 nəfərə düşüb. Sonrakı illərdə isə müəyyən qədər artaraq 12,8 nəfərə çatıb. Əlbəttə bu rəqəmlərdə maraq doğuran fakt ondan ibarətdir ki, Bakı şəhəri üzrə təbii artım respublikanın digər şəhər və kəndləri üzrə olan orta təbii artımdan azdır. Baxmayaraq ki, orta həyat şəraiti Bakıda respublikanın digər şəhər və kəndləri ilə müqayisədə daha və tibbi xidmətlərin keyfiyyətinin kənd rayonlarındakından yaxşı olmasına baxmayaraq hər 1000 nəfərə ölənlərin sayı arasında ciddi fərq yoxdur. Deməli, "Bakıda tibbi xidmətin müəyyən dərəcədə verdiyi üstünlükləri" "ekoloji cəhətdən çirkli ətraf mühit" puç edir. Elə bunun nəticəsidir ki, Bakıda səhiyyə sisteminin müəyyən qədər yaxşı təşkil edilməsinə baxmayaraq, hər min nəfərə ölənlərin sayı Azərbaycan üzrə orta göstəricidən ciddi fərqlənmir (şəkil 1).



Şəkil 1. Hər 1000 nəfərə ölənlərin sayı

Elə bu faktdan istifadə edərək, Bakı şəhərində əhalinin ekoloji problemlər səbəbindən səhiyyəyə xərclədiyi əlavə məbləği təqribən hesablamaq olar. Bu xərclər Bakı şəhəri əhalisinin orta hesabla səhiyyəyə xərclədiyi məbləğlə kənd rayonları əhalisinin orta səhiyyə xərclərinin fərqinə bərabərdir. Bu fərqin isə Bakı şəhərində yaşayan əhali sayına hasili təqribi cəmi xərcləri verə bilər. Beləliklə, kənd rayonlarında əhalinin orta hesabla səhiyyə xərclərini X_K, Bakı şəhərində belə xərcləri X_B, Bakı şəhərinin əhalisinin sayını N kimi ifadə etsək, ekoloji problemlər səbəbindən yaranan xərcləri (X_E) belə hesablamaq olar:

$$X_E=(X_B-X_K)\cdot N$$

Araşdırmalar nəticəsində məlum olub ki, X_B (yəni Bakı şəhərində əhalinin səhiyyə xərcləri) son 10 ildə durmadan artır. Səhiyyə xərclərinin artması dinamikası respublikanın kənd rayonlarına da xasdır. Bu əsasən, ölkədə iqtisadi inkişafla bağlıdır. Əhalinin illik gəlirləri artdıqca, səhiyyə və sağlamlıq üçün xərclər də artır. Araşdırmalar göstərir ki, Bakı şəhəri ilə Azərbaycanın digər şəhər və kənd rayonlarında əhalinin təbii artımı arasında hiss ediləcək dərəcədə fərqlər var. Belə ki, Bakı şəhərində əhalinin təbii artımı Azərbaycanın kənd rayonlarındakına nisbətən bir qədər aşağıdır. Bu, qrafikdən də (şəkil 2) aydın görünür. Bu, digər səbəblərlə yanaşı (məsələn, şəhər mədəniyyəti ilə) həm də Bakı şəhərində qızların daha gec ailə qurması və ailəli qadınların daha çox hissəsinin məşğulluğu ilə bağlıdır.



Şəkil 2. Əhalinin artım səviyyəsi

Şəkildən göründüyü kimi 1990-cı ildən həm Bakı şəhərində, həm də bütünlüklə Azərbaycanda əhali artımının aşağı düşüb. 2003-cü ildən artım müşahidə olumasına baxmayaraq, artımın həcmi hələ də 1990-cı il səviyyəsinə çatmayıb.

İstənilən bir texniki layihənin və ya qurğunun ekoloji təsiri dedikdə onun əsasən insanlara birbaşa və ya dolayısı ilə təsirləri başa düşülür. Yəni, elə layihələr var ki, onun fəaliyyəti ətrafdakı insanlara birbaşa təsir göstərir. Məsələn, yaşayış massivlərinin yaxınlığında fəaliyyət göstərən hər hansı zavod və ya fabriklərin tullantılarının ərazidə atmosfer havasına yaxud bu tullantıların ərazidə yaşayan insanlar tərəfindən istifadə edilən su hövzələrini və torpaq sahələrini çirkləndirməsi nəticəsində insanların sağlamlığına olan təsirlər bir başa təsirlərdir. Amma elə təsirlər də vardır ki, onlar dolayısı ilə olan təsirlərdir və qısa zaman kəsiyində hiss edilmir. Məsələn, iqlim dəyişikliyi, havanın istiləşməsi və ya ozon qatının dəyişməsi nəticəsində gələcəkdə baş verə biləcək fəsadlar və s. dolayı təsirlərdir. Hər iki halda ekoloji təsirin dərəcəsi insan sağlamlığına dəyən ziyanla ölçülür.

Bakı şəhərində neft emalı müəssisələrinin birbaşa və ya dolayısı ilə insan sağlamlığına və digər sosial, həmçinin sosial-iqtisadi sahələrə təsirini müəyyən etmək üçün insanların sağlamlıq səviyyəsini Azərbaycanın digər regionları ilə müqayisə etmək zəruridir. Məsələn, Bakı şəhərində "hər 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaqların sayı" Azərbaycan üzrə göstəricidən xeyli yüksəkdir. Səhiyyə xidmətinin və sağlamlıqla bağlı bilik səviyyəsinin kənd rayonlarına nisbətən yüksək olduğu Bakı şəhərində körpə ölümünün belə yüksək səviyyədə olmasına səbəb yalnız ekoloji problemlər ola bilər.

Cədvəl 1

Azərbaycan Respublikasının iqtisadi və inzibati rayon və şəhərləri üzrə körpə ölümü

İqtisadi və inzibati rayon və şəhərlərin adları	İllər	1 yaşadək ölən uşaqların sayı, nəfər			Hər 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaqların sayı		
		Şəhər və kənd yerləri – cəmi	*o cümlədən:*		Şəhər və kənd yerləri – cəmi	*o cümlədən:*	
			şəhər yerləri	kənd yerləri		şəhər yerləri	kənd yerləri
Azərbaycan Respublikası	-						
	2008	1715	1047	668	11,4	14,2	8,8
	2009	1731	1094	637	11,3	14,4	8,4
	2010	1843	1173	670	11,2	14,5	8,1
	2011	1903	1536	367	11,0	16,2	5,9
	2012	1884	1524	360	10,8	17,8	4,1
	2013	1862	1459	403	10,8	17,3	4,4
Bakı şəhəri							
	2008	604	604	-	19,9	19,9	-
	2009	617	617	-	18,9	18,9	-
	2010	648	648	-	18,4	18,4	-
	2011	697	697	-	18,4	18,4	-
	2012	784	784	-	19,9	19,9	-
	2013	791	791	-	20,3	20,3	-

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

1-ci cədvəldən göründüyü kimi, Azərbaycanın kənd yerlərində **"hər 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaqların sayı"** Bakı şəhəri üzrə olan göstəricidən iki dəfə yaxşıdır. Bakı şəhəri üzrə olan göstəricilər hətta Azərbaycanın digər şəhərlərinə nisbətən də xeyli pisdir. Məsələn, 2008-ci ildə "hər 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaqların sayı" Bakıda 19,9 nəfər idisə, bu göstəricinin Azərbaycanın şəhərləri üzrə orta ədədi 14,2-dir. Yəni, ölkənin digər şəhərlərində bu göstərici cəmi 8,5-dir. Sevindirici haldır ki, 2008-ci ildən başlayaraq bu göstərici ölkənin kənd yerlərində azalaraq 2013-ci ildə 4,4 nəfərə çatıb. Təəssüf ki, həmin dövrdə Bakı şəhərində bu göstərici nəinki azalmayıb, əksinə artaraq 20,3 olub.

Qrafikdən göründüyü kimi, əgər 2008-ci ildə Azərbaycan rayonlarında və şəhərlərində 1 yaşadək körpə ölümü təqribən bərabər idisə, sonrakı illərdə bu fərq kəskin şəkildə böyüyüb. Azərbaycanın digər şəhərlərində 1 yaşadək körpə ölümü göstəricisinin belə sürətlə artması digər səbəblərlə yanaşı regionlarda müəyyən qədər sənaye sahələrinin artması ilə, beləliklə ekoloji problemlərin kəskinləşməsi ilə də bağlı ola bilər. Amma buna baxmayaraq, bu güstərici Bakı ilə müqayisədə xeyli azdır.

Bakı şəhəri üzrə körpə ölümü göstəricisinin digər şəhərlər və kəndlər üzrə göstəricilərdən ciddi fərqi ekoloji problemlərlə bağlıdır. Bu problemlərdən əhaliyə dəyən sosial-iqtisadi ziyanı da təqribi hesablamaq mümkündür.



Şəkil 3. Azərbaycan Respublikasında son 5 ildə körpə ölümünün qrafiki göstəricisi

Belə ki, Bakıda 1 yaşına qədər körpəyə çəkilən xərclər körpənin ölümü nəticəsində "özünü doğrultmayan" xərclərdir.

Əgər kənd rayonlarında və digər şəhərlərdə 1 yaşa qədər olan körpəyə çəkilən orta hesabla səhiyyə xərclərini X_K, Bakı şəhərində isə belə xərcləri X_B, Bakı şəhərində körpə ölümünün kənd rayonlarından fərqini N kimi ifadə etsək, ekoloji problemlər səbəbindən yaranan xərcləri (X_E) belə hesablamaq olar:

$$X_E=(X_B-X_K)\cdot N$$

Ekoloji problemlər artdıqca bəzi infeksion xəstəliklərin, müxtəlif növ xərçəng xəstəliklərinin və tənəffüs orqanlarındakı xəstəliklərin miqyası da genişlənir. Dünya Səhiyyə Təşkilatının verdiyi məlumatlara görə sənaye sahələrinin inkişafı, kənd təsərrüfatında kimyəvi preparatlardan istifadə ekoloji problemləri ciddiləşdir və bu da insanların sağlamlığına ciddi təhlükə yaradır. Sovet dönəmində Azərbaycanda kənd təsərrüfatının, xüsusilə pambıqçılığın geniş inkişafı və kimyəvi preparatlardan istifadə, Bakı və Abşeron yarımadasında isə neft hasilatının və emalının tullantıları insanların sağlamlığına ciddi ziyan vururdu. Müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatının xeyli zəifləməsi iqtisadi cəhətdən nə qədər əlverişsiz olsa da ekoloji cəhətdən o qədər əlverişlidir. Azərbaycanın regionlarında, xüsusilə Sumqayıt, Gəncə və Daşkəsəndə köhnə texnologiyalar əsasında fəaliyyət göstərən sənaye müəssisələrinin öz fəaliyyətini dayandırması da ekoloji nöqteyi nəzərdən əlverişli mühitin yaranmasına səbəb oldu.

Hazırda əsas sənaye sahələrinin Bakı və Abşeron yarımadasında yerləşməsi və sənaye sahələrinin əsasən neft və onun emalı ilə bağlı olduğundan ekoloji problemlərin də mənbəyi bu sahələrdir. Odur ki, Bakı və ətraf ərazilərdə ekoloji problemlərlə bağlı xəstəliklərin neft hasilatı və emalı prosesi ilə birbaşa və dolayısı ilə əlaqəsi inkar edilməz faktdır.

Cədvəl 2

Azərbaycan Respublikasının regionları üzrə əsas səbəblərə görə ölənlərin sayı (hər min nəfərə)

İllər	Azərbaycan üzrə orta			Bakı şəhəri üzrə		
	Əhalinin sayı (Min nəfər)	**Bütün səbəblərdən ölənlərin sayı**	Hər min nəfərə ölənlərin sayı	Əhalinin sayı (Min nəfər)	**Bütün səbəblərdən ölənlərin sayı**	Hər min nəfərə ölənlərin sayı
2000	8032,8	46701	5,81	1806,4	10428	5,77
2001	8114,3	45284	5,58	1826,9	10204	5,58
2002	8191,4	46522	5,68	1847,5	10128	5,48
2003	8269,2	49001	5,92	1868,2	10694	5,72
2004	8349,1	49568	5,94	1889,0	11024	5,83
2005	8447,4	51962	6,15	1914,4	12046	6,29
2006	8553,1	52248	6,11	1942,5	11953	6,15
2007	8666,1	53655	6,19	1972,0	12109	6,14
2008	8779,9	52710	6,00	2005,6	11843	5,9
2009	8897,0	52514	5,90	2039,4	11660	5,72
2010	8997,6	53580	5,95	2064,6	11896	5,76
2011	9111,1	53762	5,90	2092,4	12133	5,8
2012	9235,1	55017	5,96	2122,3	12395	5,84
2013	9356,5	54383	5,81	2150,8	12241	5,69
Orta göstərici			**5, 92**			**5,83**

Qeyd: ADSK-nın və Bakı Şəhər Statistika idarəsinin [3] məlumatları əsasında müəllif tərəfindən tərtib edilib



Şəkil 4. Azərbaycanda əsas səbəblərə görə ölənlərin sayının dəyişmə dinamikası (hər min nəfərə)

Şəkildən görünür ki, Bakıda və Azərbaycanın regionlarında əsas səbəblərə görə ölənlərin hər min nəfərə düşən sayı arasında ciddi fərqlər yoxdur. Son 14 il ərzində bu göstəricinin orta qiyməti Bakı şəhəri üzrə 5,83 nəfər, ölkə üzrə isə 5,92 nəfər olub. Halbuki meqapolislərdə sağlamlığa çəkilən xərclərin yüksək olmasını və profilaktik tədbirlərlə bağlı səhiyyə xidmətlərinin üstünlüyünü

nəzərə alsaq şəhər və regionlarda bu fərq daha çox olmalı idi . Lakin yuxarıda qeyd etdiyimiz kimi, Bakıda ekoloji problemlərin ciddi olması belə xərclərin yaratdığı üstünlükləri "kompensasiya" edir.

Cədvəl 3

Azərbaycan Respublikasının regionları üzrə əsas səbəblərə görə əmək qabiliyyətli yaşda ölənlərin sayı (hər min nəfərə)

İllər	Azərbaycan üzrə orta			Bakı şəhəri üzrə		
	Əhalinin sayı (Min nəfər)	**Bütün səbəblərdən ölənlərin sayı**	Hər min nəfərə ölənlərin sayı	Əhalinin sayı (Min nəfər)	**Bütün səbəblərdən ölənlərin sayı**	Hər min nəfərə ölənlərin sayı
2000	8032,8	12084	1,50	1806,4	2709	1,50
2001	8114,3	11610	1,43	1826,9	2904	1,59
2002	8191,4	11588	1,41	1847,5	2927	1,58
2003	8269,2	12344	1,49	1868,2	3100	1,66
2004	8349,1	12725	1,52	1889,0	3235	1,71
2005	8447,4	13945	1,65	1914,4	3813	1,99
2006	8553,1	14243	1,66	1942,5	3679	1,89
2007	8666,1	14976	1,73	1972,0	3808	1,93
2008	8779,9	14496	1,65	2005,6	3777	1,88
2009	8897,0	14740	1,66	2039,4	3685	1,81
2010	8997,6	15038	1,67	2064,6	3597	1,74
2011	9111,1	16027	1,76	2092,4	3817	1,82
2012	9235,1	16128	1,75	2122,3	3925	1,85
2013	9356,5	16277	1,74	2150,8	3834	1,78
Orta göstərici			**1.62**			**1,77**

Qeyd: ADSK-nın və Bakı Şəhər Statistika idarəsinin [4] məlumatları əsasında müəllif tərəfindən tərtib edilib



Şəkil 5. Azərbaycan Respublikasının regionları üzrə əsas səbəblərə görə əmək qabiliyyətli yaşda ölənlərin sayı (hər min nəfərə)

1. **Neft emalı sənayesinin inkişaf dinamikası ilə sosial-iqtisadi təsirlərlərin müqayisəli dəyişmə dinamikası.**

Stasionar mənbələrdən atmosferə atılan çirkləndirici maddələrin miqdarı ilə sosial-iqtisadi təsirlərlərin dinamikası arasındakı əlaqə

Cədvəl 3

	Stasionar mənbələrdən atmosferə atılan çirkləndirici maddələr (min ton) (emal sənayesi)	əsas səbəblərə görə ölənlərin sayı (hərmin nəfərə)	**Hər 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaqların sayı**	əsas səbəblərə görə əmək qabiliyyətli yaşda ölənlərin sayı (hər min nəfərə)
2008	64,0	5,9	19,9	1,88
2009	42,2	5,72	18,9	1,81
2010	40,4	5,76	18,4	1,74
2011	41,8	5,8	18,4	1,82
2012	42,8	5,84	19,9	1,85

Qeyd: ADSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Emal sənayesindən atmosferə atılan çirkləndirici maddələrin miqdarı ilə əsas səbəblərə görə əmək qabiliyyətli yaşda ölənlərin sayı (hər min nəfərə), **hər 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaqların sayı və** əsas səbəblərə görə hər min nəfərə ölənlərin sayı arasında müəyyən korrelyativ əlaqə mövcuddur. Bu fakt bir daha təsdiq edir ki, meqapolislərdə, o cümlədən Bakı şəhərində ciddi ekoloji təsirləri ola bilən sənaye müəssisələrinin, xüsusilə neft emalı müəssisələrinin yerləşdirilməsi insan sağlamlığına ciddi ziyan vurur.

ƏDƏBİYYAT

1. Презентация Министра энергетики Российской Федерации Сергея Шматко к докладу в Государственной Думе Российской Федерации 02/12/2009.
2. (http://minenergo.gov.ru/upload/iblock/333/33363d868cf93701591957ccd67583b1.pdf) (müraciət edilib: 20 avqust 2014).
3. http://www.stat.gov.az/source/demoqraphy/ (müraciət edilib:27 avqust 2014).
4. http://www.baku.azstat.org/section/demography/

ВЛИЯНИЕ ВЫБРОСОВ НЕФТЕПЕРЕРАБАТЫВАЮЩИХ ЗАВОДОВ АЗЕРБАЙДЖАНА НА СОЦИАЛЬНУЮ СФЕРУ

Г. Ю. Мехтиева, Д.С. Мехтиев, Ф.Г. Гурбанова, Г.Н. Адыгёзалова

Статья посвящена изучению влияния выбросов нефтеперерабатывающих заводов на социальную сферу. Авторы приходят к такому заключению, что существующее различие между Баку и регионами Азербайджана в области естественного роста населения косвенно связано и с экологическими проблемами.

Ключевые слова: *нефтеперерабатывающие заводы, естественный рост населения, экологические проблемы, расходы для здравоохранения, социально-экономические воздействия.*

SOCIAL IMPACTS OF POLLUTION OF THE OIL REFINERY FACTORIES İN AZERBAİJAN

G. Y.Mehdiyeva, J.S. Mehdiyev, F.H. Qurbanova, G.N. Adigezalova

The article investigates social impacts of pollution of the oil refinery factories in Baku. The authors came to the conclusion that growth population difference between Baku and regions indirectly connected with ecological situation. As weel as the authors are suggesting the method to carculate additional expenses for medicine for Baku citizens.

Key words: *oil refinery factories, growth population, ecology problems, expenses for medicine, socio-economic impacts.*

Milli Aviasiya Akademiyasının yeni çap məhsulları!

Surxay Səfərov.Ümumi meteorologiya. Bakı, 2014, 418 s.

Ünvanımız: AZ 1045 Bakı ş.
Mərdəkan pr. 30
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.
E-mail hasanov@naa.edu.az

ŞƏKİ-ZAQATALA BÖLGƏSİNİN DAĞLIQ ƏRAZİLƏRİ ÜZRƏ SEL MƏNBƏLƏRİNİN TƏYİNİ VƏ RİYAZİ MODELLƏŞDİRİLMƏSİ

M.X İlyasov, M.A. Hümbətəliyev, B.Q. Mehdiyeva

Milli Aviasiya Akademiyası, MAKA-nın Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu

Təqdim edilən işdə Şəki-Zaqatala bölgəsinin dağlıq əraziləri üzrə sel ocaqlarının təyini və riyazi modelləşdirməsi məsələsinə baxılmışdır. Tədqiqat ərazisi kimi Azərbaycanın Kürmük çayı hövzəsi seçilmiş və ərazinin öyrənilməsi üçün yüksək ayırdetməli kosmik şəkillərdən istifadə edilmişdir. Bu şəkillər müasir coğrafi məlumat sistemlərinin köməyi ilə Kürmük çayı hövzəsi üçün torpaq, bitki və torpaqdan istifadə elektron xəritələri yaradılmışdır. Kürmük çayı üçün CMS modeli və riyazi model qurulmuşdur. Nəticədə Kürmük çayının sel gətirən əsas qollarından olan Bulanıqsu hövzəsi üçün hidroqrafın zamandan asılı olaraq dəyişməsi cədvəl şəklində təqdim edilmişdir.

Açar sözlər: *məsafədən zondlama, coğrafi məlumat sistemləri, Arc GİS proqramı, sel ocaqları, eroziya*

Giriş

Son dövrlərdə antropogen, endogen və ekzogen proseslərin Yerə dinamik təsiri planetimizin ənənəvi metodlarla öyrənilməsi və nəzarət edilməsi məsələlərində tam effektiv nəticə vermir [1]. Obyekt və hadisələrin təhlili, antropogen təsirlərin dinamikasının elektron xəritələşdirilməsi və digər müxtəlif tematikaya uyğun kartoqrafik məhsulların hazırlanması və nəticə etibarı ilə planetimizin hərtərəfli öyrənilməsi məsafədən zondlamanın (MZ) və coğrafi informasiya texnologiyalarının tətbiqini zəruri edir.

Azərbaycan Respublikasının ərazisi dünyanın təbii fəlakətlərə məruz qalan regionlarından biridir. Regionda sel, daşqın, sürüşmə hadisələri və subasma halları ölkənin iqtisadiyyatına xeyli zərər vurmaqla səciyyələnir. Miqyasına, əhatə dairəsinə və dağıdıcı təsirinə görə sellər və daşqınlar xüsusilə təhlükəlidir. Sel təhlükəli dağ çaylarında sel sularının müvəqqəti toplanması üçün sututarlar, seltutucu və selötürücü qurğular kifayət qədər inşa edilmədiyindən yüzlərlə yaşayış məntəqəsinin sel və daşqınlardan etibarlı mühafizəsinin təşkil edilməsi mümkün deyildir.

Respublikada sel axınlarının təsirinə ən çox məruz qalan bölgələrdən biri Şəki-Zaqatala bölgəsidir. Bölgənin sel təhlükəliliyi ilə daha çox seçilən çaylarından biri Kürmükçaydır.

Ayrı-ayrı illərdə (1921, 1928, 1943, 1947, 1958,1963, 1972, 1988, 2001, 2009) çayda baş vermiş çay axımları yaşayış məntəqələrinə (Qax şəhəri, Əlibəyli, Ağçay, Meşəbaş, Alatəmir kəndlərinə) sənaye və təsərrüfat obyektlərinə, əkin sahələrinə, çay ətrafı ərazilərə və həmçinin çaylarda qurulmuş sahil mühafizə qurğularına ciddi ziyan vurur, onları sel gətirmələri ilə basaraq yararsızlaşdırır.

Məsələnin qoyuluşu

Eroziya prosesinin aktiv olduğu sahələrin, daşqın və sel hadisələrinin xəritələşdirilməsi, o cümlədən, dağ çaylarında sel ocaqlarının, sel və daşqın zamanı su altında qalan ərazilərdə mövcud olan torpaq sahələrinin təyinatı, istifadəçiləri və mülkiyyətçiləri haqqında informasiyaların operativ olaraq əldə olunması öz həllini gözləyən vacib məsələlərdəndir. Hidrometeoroloji məntəqələrin və çöl ekspedisiyalarının məlumatları xüsusi informasiya mərkəzlərində toplanılır. Orada bu məlumatlar işlənir və coğrafi ümumiləşdirmələrdə, məlumat kitablarının, xəritə və atlasların, hidroloji proqnozların tərtib edilməsində geniş istifadə olunur [2].

Qarşıya qoyulan əsas məsələ sel proseslərinin necə formalaşmasını tədqiq etmək, müasir texnologiyalar və yüksək ayırdetməli kosmik şəkillər əsasında sellərin formalaşma mənbələrini, sel ocaqlarını təyin etmək, modelləşdirmək və elmi əsaslı metodları işləməkdir.

Dağ çayları hövzələrində yaranan, tərkibində çoxlu miqdarda hissəciklər, daş parçaları, qaya süxurları olan, leysan və ya güclü qar əriməsi nəticəsidə yaranan axınlar sellər adlanır. Belə sel axınlarını tədqiq etmək və proqnoz xarakterli fikirlər söyləmək üçün sellərin yaranma şəraitini, sel

yaradan mənbələri təyin etmək və ərazini nəzarət altında saxlamaq daha məqsədəuyğundur. Qarşıya qoyulan problemi həll etmək üçün isə sellərin formalaşma şəraitini kompleks şəkildə analiz etməyə və nəticələri qiymətləndirməyə imkan verən coğrafi məlumat sistemləri (CMS) texnologiyasının müasir proqram paketləri və məsafədən zondlama verilənlərindən (MZ) istifadə edilmişdir.

Tədqiqat ərazisi kimi Azərbaycanın Kürmük çayı hövzəsi götürülmüşdür (şək.1).

Şək. 1. Kürmükçay hövzəsinin topoqrafik xəritəsi (miqyas 1:100.000)

Seçilmiş sel təhlükəli ərazilərdə tədqiqat aparmaq üçün müxtəlif informasiya resuslarından, o cümlədən kartoqrafik materiallardan, tədqiqat ərazisini əks etdirən topoqrafik xəritələrdən, məsafədən zondlama verilənlərindən, müxtəlif təsvirlərdən istifadə edilmişdir. Bu materiallar CMS-də bir sıra əməliyyatları icra etmək, tədqiqatlar aparmaq, müxtəlif cür tematik xəritələr və sellərin formalaşma yerlərinin xəritəsini yaratmaq üçün tətbiq edilmişdir.

Məlum olduğu kimi, axırıncı 90 il ərzində Azərbaycanın Kürmük çayı hövzəsində sellər daha da aktivləşmişdir. Bu proseslər meşələrin qırılması, çoxillik otların məhvi və torpaqda gedən eroziya prosesləri nəticəsində daha da sürətlənmişdir. Sel axınları burada, az və ya çox miqdarda, demək olar ki, hər gün formalaşır və yaşayış məntəqələrinə, yollara, kənd təsərrüfatına ciddi ziyanlar vurur. Ərazidə böyük sahə tutan çox sayda sel ocaqları mövcuddur. Bu isə yüksək intensivlikli sel yaranmasına gətirib çıxarır. Sellərin formalaşması təhlukəsini qeyd etmək üçün isə sel ocaqlarının yerini bilmək çox vacibdir. Ona görə də təqdim edilən işdə dağlıq ərazilərdəki sel ocaqlarının təyin edilməsi işlənilib hazırlanmışdır. Bu isə işin aktual olmasını göstərir [2].

Öncə tədqiq edilən ərazinin topoqrafik xəritəsi (1:100000 miqyaslı) və peyk şəkilləri (Landsat-TM) eyni koordinatlara gətirilmiş, CMS texnologiyasının Arc GİS proqramı vasitəsilə Kürmük çayı ərazisi əlaqələndirilmişdir (şək.2). Sel yaranan ərazilərin CMS-nin əsasını MZ verilənləri və topoqrafik xəritələr təşkil edir. Alınmş informasiyalar (GPS-ölçmələri, topoqrafik xəritələrdən alınan məlumatlar, statistik verilənlər) əsasında verilənlər bazası yaradılmış, toplanılmış informasiyalar tematik xəritələrin yaradılması üçün istifadə edilmişdir.

Bildiyimiz kimi, güclü selin əmələ gəlməsi üçün müvafiq geoloji, geomorfoloji və iqlim şəraiti formalaşmalı, ərazinin torpaq və bitki obyektləri sel hadısələrinin yaranma şəraitinə uyğun olmalıdır.



Şək.2. Landşaft-TM təsvirindən deşifrələnmiş (miqyas 1:50000) Kürmükçay hövzəsi

Geoloji şərait – selləri dağıdıcı dağ hövzələrinin məhsulları ilə təmin edir. Geomorfoloji şərait – böyük konsentrasiyalı axın yaradır və bu axın sürətlə yayılır. Torpaqda denudasiya, aşınma prosesləri gedir ki, bu da sellərin yaranması üçün əsas amillərdəndir. İqlim şəraiti tufan xarakterli leysan yağışlarının baş verməsinə və uzunmüddətli quraqlıq dövrünün davam etməsinə şərait yaradır. Bitki örtüyünün tipləri və arxitektonikası (xarici quruluşu) onların sıxlığından və kök quruluşundan asılı olaraq sel hadisəsinin yaranmasına müxtəlif cür təsir edir. Sadalanan 5 şərtdən hər hansı birinin uyğunluğu pozularsa, güclü sel formalaşa bilməz.

Məhz buna görə də biz müxtəlif ədəbiyyat məlumatları, yerüstü ölçmələr və kosmik şəkillərdən və RRM-dən alınan informasiyalar əsasında tədqiq edilən ərazinin torpaq-bitki örtüyünü, geoloji, geomorfoloji quruluşunu öyrənmişik. Kosmik şəkillərin deşifrə edilməsi, interpretasiyası və təsnifatı əsasında tədqiq edilən ərazi barədə daha yeni məlumatlar alınmış, yeniləşdirilmə aparılmışdır. Əldə edilmiş bütün məlumatlardan istıfadə etməklə tədqiqat ərazisinin CMS texnologiyası əsasında müxtəlif xəritələr – torpaq, bitki elektron xəritələri və model yaradılmışdır.

Kosmik şəkillərin deşıfrələnməsində torpağın öyrənilməsi zamanı əsas əlamət kimi tekstur-rəng xarakteristikalarından istifadə edilmişdir. Bu əlamətləri əsas götürərək Şəki- Zaqatala bölgəsinin torpaq xəritəsi işlənilmişdir. Verilənlər bazasının elementləri kimi dağ-çəmən, meşə, dag-meşə layları götürülmüşdür[4].

Torpağin tərkibindəki rütubətliyin və humusun miqdarının çox olması onun rənginin daha tünd olması ilə nəticələnir. Belə məhsuldar torpaqlarda selin yaranma ehtimalı da aşağı olur. Bu şərtlər əsasında kosmik şəkillərin deşifrələnməsində selin baş verə biləcəyi ərazilər haqqında ətraflı məlumat almaq mümkün olmuşdur.

Ərazidə torpaq örtüyünün seləmələgəlmə prosesində ən böyük rolu onun eroziyaya məruz qalmasında özünü göstərir. Hövzənin yüksək dağlıq hissəsində mal - qara otarılması nəticəsində, həm də leysan yağışları zamanı torpağın üst qatı aşınır və eroziya prosesləri baş verir.

Şəkildə əsasən rəng və formaya görə deşifrələnmə aparılmışdır. Burada şəklin rəngi əsas rol oynadığından, yaşıl rənglərlə otla örtülü ərazilər təsvir edilmişdir. Alp çəmənliyi ərazilərində təsvir digər yerlərdəkindən daha tünddür. Bu ərazilərdə meşələrin insanlar tərəfindən məhv edilməsi nəticəsində sel yaranma təhlükəsi daha da artır.

Tədqiq edilən ərazinin landşaft xəritəsi (şək.3) hazırlanan zaman iqlim xüsusiyyətləri də nəzərə alınmış və bu məqsədlə iqlim xəritəsindən istifadə edilmişdir (şək.4). Şəki- Zaqatala ərazisinin torpaq xəritəsi (şək.5) işlənilmişdir. Verilənlər bazasının elementləri kimi dağ-çəmən, meşə, dağ-meşə layları götürülmüşdür.

Peyk şəkilləri və CMS texnologiyasından istifadə etməklə tədqiq edilən ərazinin torpaq-bitki xəritələri tərtib edilmiş, Gümrükçay hövzəsində seli formalaşdıran əsas amillər və onların deşifrə əlamətləri araşdırılmışdır (şək.6). Daha sonra tərtib edilmiş xəritə - fraqmentlərdəki informasiya layları CMS texnologiyasının Arc GİS proqramı vasitəsi ilə üst-üstə salınmışdır.

Şək. 3. Şəki Zaqatala bölgəsinin landşaft xəritəsi (miqyas 1:500 000)

Şək. 4. Şəki Zaqatala bölgəsinin iqlim xəritəsi (miqyas 1:500000)



Şək.5. Şəki Zaqatala bölgəsinin torpaq xəritəsi (miqyas 1:500 000)

Şək. 6. Kürmükçay ərazisinin deşifrələnmiş torpaq-bitki xəritəsi

CMS texnologiyasının tətbiqi ilə Kürmükçay ərazisinin modeli işlənilmiş və atribut verilənlər məlumatlar bazasına daxil edilmişdir (şək.7).



a b c d

Şək.7. Tədqiqat ərazisinin CMS modeli:
a - Kürmükçay keçən ərazinin ortofoto təsviri, b - həmin ərazinin vektor layları, c - torpaq-səth poliqonları, d - atribut verilənləri

Kürmük çayı və onun əsas sel gətirən qollarının coğrafi-riyazi modelinin fəaliyyət sxemi aşağıdakı kimi qurulmuşdur. (şək.8).



Şək.8. Kürmükçay sel hövzəsinin

cografi – riyazi modelinin fəaliyyət sxemi: L – çayın uzunluğu, S – sel hövzəsinin sahəsi, H – çayın mənbəyinin dəniz səviyyəsindən hündürlüyü, h – mənsəbin dəniz səviyyəsindən hündürlüyü, α - çayın meyl bucağı, H_{or} – orta hündürlükdür. $x_1,...x_{10}$ və $y_1, ...y_{10}$ uyğun olaraq Dərəarası, Ağsu, Bulanıqsu, Qəssabçay, Komadərə, Hamamçay, Mikilkiçay, Kümrükçay, Günaxayçay, Ağçay sel hövzələri üçün modellərin giriş və çıxış parametrləridir.

[3]-də Kürmük çayı sel hövzəsinin riyazi modelinin blok sxemi qurulmuş və bu blok sxemə əsasən hövzənin kinetik tənlikləri tərtib olunmuşdur. Bu tənliklərə daxil olan və hövzənin sel ötürmə qabiliyyətini xarakterizə edən aproksimasiya funksiyası xətti funksiya şəklində verilmişdir:

$$y_i = k_i w_i \qquad i = 1,\ 8$$

Burada y_i və w_i uyğun olaraq vahid zamanda Kümrük çayı hövzəsinə daxil olan və hövzədə yığılan selın miqdarı, k_i – isə hövzəni xarakterizə edən sabit kəmiyyətdir.

Modelin fəaliyyət sxeminə əsasən Kürmük çayı və onun sel hövzəsi qolları üçün kinetik tənliklər aşağıdakı kimi alınmışdır:

Bütövlükdə Kürmük çayı üçün:

$$\begin{cases} \dfrac{dw_8}{dt} = x_8 + y_3 + y_6 + y_7 + y_9 + y_{10} - y_8, \\ y_8 = f(w_8). \end{cases} \tag{1}$$

Dərəarası çayı sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_1}{dt} = x_1 - y_1, \\ y_1 = f(w_1). \end{cases} \tag{2}$$

Ağsuçayı sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_2}{dt} = x_2 + y_1 - y_2, \\ y_2 = f(w_2). \end{cases} \tag{3}$$

Bulanıqsu çayı sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_3}{dt} = x_3 + y_2 - y_3, \\ y_3 = f(w_3). \end{cases} \tag{4}$$

Qəssab çayı sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_4}{dt} = x_4 - y_4, \\ y_4 = f(w_4). \end{cases} \tag{5}$$

Komadərə çayı sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_5}{dt} = x_5 - y_5, \\ y_5 = f(w_5). \end{cases} \tag{6}$$

Hamamçay sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_6}{dt} = x_6 + y_4 + y_5 - y_6, \\ y_6 = f(w_6). \end{cases} \tag{7}$$

Mikilkiçay sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_7}{dt} = x_7 - y_7, \\ y_7 = f(w_7). \end{cases} \tag{8}$$

Günaxaysu sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_9}{dt} = x_9 - y_9, \\ y_9 = f(w_9). \end{cases} \tag{9}$$

Ağçay sel hövzəsi üçün:

$$\begin{cases} \dfrac{dw_{10}}{dt} = x_{10} - y_{10}, \\ y_{10} = f(w_{10}). \end{cases} \tag{10}$$

kimi alınmışdır.

y_i-lərin tapılması üçün verilənlər bazasında ($i = \overline{1, 10}$) tənliklər sistemi həll edilərək analitik ifadələr alınmışdır. Cədvəl 1–də y_3-ün zamandan asılı olaraq aldığı qiymətləri verilmişdir.

Bulanıqsu çayı üçün hövzəni xarakterizə edən k_i sabitlərinin müxtəlif qiymətlərində hidroqrafın dəyişməsi

Cədvəl 1

t,dəq	Sel kütləsinin hesablanmış qiymətləri-y_3, m^3/dəq.							
0	0	0		0	0	0	0	0
5	175,113	304,614	443,822	563,176	692,531	821,8861	951,2407	1080,595
15	341,2853	614,783	888,285	1161,78	1435,278	1708,776	1982,274	2255,772
25	367,2222	664,617	962,012	1259,407	1556,802	1854,197	2151,592	2448,987
35	369,7747	669,562	969,349	1269,136	1568,924	1868,711	2168,498	2468,285
45	369,9833	669,967	969,951	1269,936	1569,92	1869,604	2169,888	2469,872
55	369,9988	669,997	969,996	1269,995	1569,994	1869,993	2169,992	2469,991
65	369,9999	669,999	969,999	1270	1570	1870	2170	2469,999
75	370	670	970	1270	1570	1870	2170	2470
85	370	670	970	1270	1570	1870	2170	2470
95	370	670	970	1270	1570	1870	2170	2470
105	370	670	970	1270	1570	1870	2170	2470

ƏDƏBİYYAT

1. Mehdiyev A.Ş., Əzizov B.M., Mehdiyev C.S. Aerokosmik monitorinq. Bakı: ''Elm'', 2005, 208 səh.
2. Məmmədov M., İmanov F. Ümumi hidrologiya. Bakı, 2003, 230 səh.
3. Hümbətəliyev M.A., Mehdiyeva B.Q., Qurbanov V.H., Əhmədov Ə.F. Kürmük çayı sel hövzəsində sel proseslərinin riyazi modelləşdirilməsi. Akademik A.M. Paşayevin 75-illik yubileyinə həsr olunmuş "Elmi-Texniki Tərəqqi və Müasir Aviasiya" Beynəlxalq konfransının materialları. Bakı, 2009, s. 89-93
4. Mehdiyeva B.Q. Sel hadisələrinin qiymətləndirilməsi üçün məsafədən zondlama verilənlərinin emalı proseduralarında coğrafi-riyazi modelləşdirmə prinsiplərinin işlənilməsi. Texn.elmləri nam. dis. avtoreferatı., Bakı, 2013, 22 s.

ОПРЕДЕЛЕНИЕ И МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ИСТОЧНИКОВ СЕЛЕЙ ПО ГОРНЫМ ТЕРРИТОРИЯМ ШЕКИ-ЗАГАТАЛЬСКОГО РЕГИОНА

М.Х. Ильясов, М.А. Гумбаталиев, Б.Г. Мехтиева

В представленной работе рассмотрен вопрос математического моделирования селевых очагов в горных территориях Шеки-Закатальского региона. Для исследования использованы космические снимки высокого разрешения бассейна реки Кюрмюкчай, с помощью этих снимков и современных ГИС для бассейна реки Кюмрюк созданы электронные карты почв, растительности и землепользования, построена математическая модель, представлена таблица динамики гидрографических изменений для бассейна одного из основных селеобразующих притоков реки Кюрмюк Буланыгсу.

THE DETERMINATION AND MATHEMATICAL MODELING OF FLOOD SOURCES ON MOUNTAINOUS AREAS OF SHAKI-ZAGATALA REGION

M.X. Ilyasov, M.A. Humbataliyev, B.Q. Mekhtiyeva

In the presented work the issues of determination and mathematical modeling of floods sources in mountainous territory of Sheki-Zagatala region is considered. For the study the Kurmukchay rivers high-resolution satellite images were used. As a result, the electronic maps of soils, vegetation and land using were created, a mathematical model was developed, a table of hydrographic changes for Bulanygsu river, which is the part of Kurmukchay basin, and one of the main flood-generating sources in this hydrographic region.



Diqqət!

Sizin reklama ehtiyacınız varmı?
Redaksiyamıza müraciət edin.

Ünvanımız: AZ 1045 Bakı ş.
Mərdəkan pr. 30
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.
E-mail hasanov@naa.edu.az

ЭКСПРЕСС-МЕТОД ДИАГНОСТИРОВАНИЯ ОСОБЕННОСТЕЙ РАБОТЫ ЭКСПЛУАТАЦИОННОГО ОБЪЕКТА

Т.Ш. Салаватов, А.М. Нагиев

Азербайджанская Государственная Нефтяная Академия

Для выделения границ периодов эксплуатации показана возможность кинетического подхода при диагностировании особенностей динамики основных технологических показателей.

Анализ темпа изменения давления по всем исследуемым скважинам показал, что в периоде работы скважины, соответствующей началу появления воды в продукции скважины, наблюдается колебательный характер темпа изменения давления, свидетельствующий о начале изменения состояния пластовой системы.

Кинетический подход к анализу кривых восстановления давления позволяет заблаговременно диагностировать изменения системы пласт-скважина, что позволяет оперативному принятию решения по выдаче технологических рекомендаций по воздействию на процесс работы эксплуатационного объекта с учетом минимизации энергоресурсо-затрат.

Ключевые слова: кинетический подход, анализ, принятие решения, смена, режим, работа, период, стадия, объект, скважина.

Введение. При разработке месторождений углеводородов в большинстве случаев известные методы анализа не учитывают механизма эволюции пластовой системы, а многообразие факторов, влияющих на процессы нефтедобычи, затрудняют его проведение и получение обоснованного решения по выбору стратегии планирования проведения геолого-технических мероприятий в зависимости от стадии работы эксплуатационного объекта.

Для выделения границ периодов эксплуатации показана возможность кинетического подхода при диагностировании особенностей динамики основных технологических показателей.

Содержание. Для процессов нефтедобычи коэффициент текущих отбираемых объемов пластовых флюидов η(t) может быть представлен в виде:

$$\eta(t) = 1 - V'(t)/V_0 = V(t)/V_0 \qquad (1)$$

где $V_0, V'(t)$ - соответственно начальные и текущие извлекаемые отборы; $V(t)$ - извлеченный ко времени t суммарный объем. Статистическим аналогом кинетического уравнения (1) является широко применяемое в теории надежности технических систем распределение Вейбулла.

В настоящее время, как показывает мировая практика, одним из основных способов эксплуатации скважин является компрессорный. При описании процесса газлифтной добычи и выделения стабильных режимов работы следует учитывать как собственный потенциал энергетических ресурсов системы «скважина-пласт», так и потенциал внешнего воздействия.

Как известно, типичный профиль динамики текущих показателей нефтедобычи имеет трапецеидальный вид, по существу совпадающий с перевернутой динамикой интенсивности отказов, что отражает характерные периоды динамики сложных систем - развитие процесса разработки залежей нефти и газа, что адекватно процессам лифтирования при газлифтном способе эксплуатации скважин. В то же время многообразие состояний развития сложных систем сопровождается усложненными профилями динамики, что, в свою очередь, должно отразиться и на смене режимов работы систем и на способах их эксплуатации.

Таким образом, можно предположить, что кинетическое уравнение (1) может быть взято за основу динамики описания отборов при анализе состояния режимов работы скважин. Практически данный подход реализуется после некоторых преобразований (1) путем

двойного логарифмирования полученного выражения, после чего исходные данные выравниваются в виде:

$$\ln[\ln(1-\eta)] = \ln\lambda_0 + \alpha \ln t \qquad (2)$$

и из графика в координатах $ln\,[\,ln(1-\eta)] - ln\,t$ определяются все параметры выражения (2). Очевидно, что изменение состояние процесса сопровождается изменениями этих параметров, что должно приводить к изломам динамики добычи в приведенных координатах. Спрямления в координатах $lnlnQ - lnt$ позволяет диагностировать эти состояния и их переходы.

В качестве примера рассматривается процесс работы скважины № 804 в течение 24 суток на трех режимах нагнетания компримированного газа. Скважина № 804: эксплуатационная колонна – D=178 мм. , лифт – d=73/89 мм. , L=640/3012 м. , $P_{пл}$=24,7 МПа , $P_{заб}$=12,2 МПа , $P_б$=1,3 МПа , $P_{зат}$=6,1 Мпа , обводненность – 18.4%, ГНФ-485 м^3/т. В таблице 1 приведены показатели отбора жидкости и расхода компримированного газа, а также результаты логарифмирования. Как видно из приведенной таблицы вся реализация дифференцируется на три участка с углами спрямления α=0.226; 0.195 и 0.122. Каждый из этих участков характеризуется режимом нагнетания V=7000м^3/сут, 10000м^3/сут и 14000м^3/сут с удельными расходами соответственно R=178 м^3/ м^3, 1.15 и 250 м^3/т.

Таким образом, приведенная методика позволяет диагностировать смену технологических режимов работы газлифтных скважин. Интересным представляется применение данной методики для диагностирования смены способов эксплуатации скважин. С этой целью рассматривалась скважина № 66, введенная в эксплуатацию в июне 2004 года и работавшая на фонтанном способе эксплуатации до сентября 2004 года. Начиная с сентября 2004 года, её перевели на газлифтный способ эксплуатации. В результате применения данного подхода получены 2 периода в координатах $lnlnQ - lnt$, где указаны 2 прямые с разными углами наклона (таблица 2), каждая из которых соответствовала указанным способам эксплуатации. В таблице приведены изменения текущих углов спрямления, диагностирующие смену способа эксплуатации – с фонтанного на газлифтный (июль 2004 года).

Таким образом, предложенная методика, основанная на темпоральном кинетическом подходе, позволяет диагностировать состояние режимов работы газлифтных скважин с учетом колебаний основных технологических показателей и рекомендовать для смены способа эксплуатации.

Указанный подход реализовался и на основе преобразования и последующего анализа исходных данных динамики технологического показателя-добычи нефти для скважин (№№ 166 и 155) НГДУ "Гум адасы"). Результаты расчетов представлены на рис. 1*а, б*.



а *б*

Рис. 1. Определение периодов работы скважины *а*) №166; *б)* № 155

Из анализа полученной зависимости для скв. № 166 видно, что весь рассматриваемый период подразделяется на несколько временных периодов. Первый период охватывает интервал времени (14 месяцев) с начала ввода скважины в эксплуатацию. Этот отрезок времени характеризуется безводной добычей нефти, вследствие чего наблюдается рост ее добычи. Второй период, (охватывающий интервал 15-22 месяцев) характеризуется относительно стабильными значениями технологических параметров, в том числе добычи нефти. Третий - 23-25 месяцев, характеризуется изменением гидродинамического состояния пластовой системы и сопровождается уменьшением добычи нефти и увеличением обводненности продукции. Аналогичный анализ был проведен и для скв.№155. Здесь, как и в вышеприведенном примере, весь рассматриваемый период работы скважины подразделяется на 3 характерных временных интервала.

Первый период, охватывает временной интервал, соответствующий 13-ти месяцам характеризуется безводной добычей нефти, второй - с 14 по 21 месяц и определяется относительно стабильными значениями технологических показателей работы скважины, тогда как в третьем периоде (с 22 по 36 месяцев) наблюдается интенсивный рост обводненности продукции и снижение уровня добычи нефти.

Таким образом, применение кинетического подхода к описанию динамики основных технологических показателей разработки по эксплуатационному объекту, позволяет достаточно точно выделить характерные временные интервалы ее работы, что необходимо учитывать при выборе стратегии проведения различного вида ГТМ.

Для проверки вышеприведенного способа выделения характерных временных интервалов эксплуатации скважин весьма приемлемым может быть аппарат теории катастроф, используемый для выявления переходных моментов в развитии пластовых систем.

Согласно теории катастроф, предполагается, что некоторая система, находится в равновесии. В результате изменения ее параметров равновесие системы нарушается и при определенных качественных изменениях оно вообще может исчезнуть. В результате поведение самой системы, она переключается с одного равновесного состояния в другое. В теории катастроф предполагается, что поведением рассматриваемого процесса управляет некоторая потенциальная функция, локальные минимумы которой совпадают с точками равновесия системы.

Таблица 1

Показатели работы газлифтной скважины № 804

t, сут.	Дебит жидкости, м³/сут.	Расход газа, м³/сут	ΣQж, м³	ln ΣQж,, м³	lnln ΣQж	lnt	Угол спрямления,α
1	45	6500	45	3.807	1.337	0	0.226
2	47	7000	92	4.521	1.509	0.693	
3	68	7000	160	5.075	1.624	1.099	
4	68	7000	228	5.429	1.692	1.386	
5	70	7000	298	5.697	1.740	1.609	
6	74	7000	372	5.919	1.778	1.792	
7	47	7000	419	6.038	1.798	1.946	
8	65	7000	484	6.182	1.821	2.079	
9	57	7000	541	6.293	1.840	2.197	
10	55	7000	596	6.390	1.855	2.302	
11	45	7000	641	6.463	1.866	2.398	
12	46	7000	687	6.532	1.877	2.485	
13	43	7000	730	6.593	1.886	2.565	
14	88	10000	818	6.707	1.903	2.639	
15	91	10000	909	6.812	1.919	2.708	0.195
16	90	10000	999	6.907	1.932	2.772	
17	98	10000	1097	7.000	1.946	2.833	
18	95	10000	1192	7.083	1.958	2.890	
19	77	10000	1269	7.146	1.967	2.944	
20	68	10000	1337	7.198	1.974	2.996	
21	50	14000	1387	7.235	1.979	3.045	
22	48	14000	1435	7.269	1.987	3.091	0.122
23	61	14000	1496	7.310	1.989	3.135	
24	66	14000	1562	7.354	1.995	3.178	

На основании вышеуказанного была проанализирована динамика суммарной добычи нефти по скважинам № 166 и № 155. В связи с тем, что зависимость $V_H=V_H(t)$ носит монотонно возрастающий характер, без ярко выраженных точек перехода системы из одного состояния в другое, анализ исходной информации методом теории катастроф позволил установить особенности динамики технологических показателей работы скважин.

Таблица 2

Показатели работы газлифтной скважины № 66

t, мес. пп.	дата	Дебит жидкости, м³/сут.	ΣQж, м³	ln ΣQж,, м³	lnln ΣQж	lnt	Угол спрямления,α
1	2003/01	98.5-ф	98.5	4.590	1.524	0.000	
2	02	99.8	198.3	5.290	1.666	0.693	
3	03	80.4	278.7	5.630	1.728	1.099	0.188
4	04	84.4	363.0	5.895	1.774	1.386	0.156
5	05	86.3	449.4	6.108	1.810	1.609	0.160
6	06	76.9	526.3	6.266	1.835	1.792	0.151
7	07	76.2	602.5	6.401	1.856	1.946	0.139
8	08	75.4	677.9	6.519	1.875	2.079	0.138
9	09	69.6	747.5	6.617	1.890	2.197	0.132
10	10	110.2	857.7	6.754	1.910	2.303	0.158
11	11	65.9	923.6	6.829	1.921	2.398	0.157
12	12	81.8	1005.4	6.913	1.933	2.485	0.127
13	2004/01	81.1	1086.4	6.991	1.945	2.565	0.141
14	02	78.5	1165.0	7.060	1.955	2.639	0.137
15	03	80.6	1245.5	7.127	1.964	2.708	0.135
16	04	84.2	1329.7	7.193	1.973	2.773	0.139
17	05	80.7	1410.4	7.252	1.981	2.833	0.138
18	06	71.9	1482.4	7.301	1.988	2.890	0.127
19	07	116-г/л	1598.4	7.377	1.998	2.944	0.154
20	08	138	1736.4	7.460	2.010	2.996	0.203
21	09	165	1901.4	7.550	2.021	3.045	0.223
22	10	174	2075.4	7.638	2.033	3.091	0.221
23	11	162	2237.4	7.713	2.043	3.135	0.195
24	12	145	2382.4	7.776	2.051	3.178	0.174
25	2005/01	148	2530.4	7.836	2.057	3.219	0.174
26	02	142	2672.4	7.891	2.066	3.258	0.176
Cinayətkarlığa, ayrı-ayrı tamah-zorakı cinayətlərə dağların, düzənlərin, meşəli və dərə-təpəli yerlərin təsiri məsələsini araşdıraraq, Lombrozo dağlarda quldurluq və soyğunçuluq kimi cinayətlərin daha çox törədilməsini, dağlıq şəraitdə pusquların qurulmasının daha asan olması ilə şərtləndirirdi. Lombrozo siyasi cinayətkarlığa həsr olunmuş əsərində Avropanın müxtəlif ölkələrində bu növ cinayətlərin coğrafi en və uzunluqdan asılı olaraq yayılmasının coğrafi xəritəsini tərtib etmişdir. Lombrozo temperatur amilinin cinayətkarlığın coğrafi paylanmasına, həddən artıq soyuq iqlim kimi ifrat temperaturların insanların xarakterinə və cinayətkar davranışlarına müəyyən dərəcədə təsir etdiyini qeyd edirdi. O, şimal ölkələrinin sakinlərinin sakit və təmkinli, nisbətən sabit xarakterə malik olduqlarını göstərir, bunu həmin regionlarda yaşayan insanların sinir sistemlərinə soyuğun təsiri ilə izah edirdi. Cənublular isə əksinə, özlərini anadangəlmə kefli hiss edirlər – günəş və hava – onlar üçün təbii alkoqol rolunu oynayır. Lombrozo cənub ölkələrində yay fəslində, qızmar ay aylarda və günlərdə şəxsiyyət əleyhinə cinayətlərin üstünlük təşkil etdiyini məhz bununla izah edirdi.

Qeyd edək ki, Ş.Monteskye, Ç. Lombrozo və digərlərinin mövqeləri, fikir və baxışları hələ XIX əsrdə ciddi tənqidlərdə məruz qalmışdı. Belə ki, italyan hüquqşünası Kolayani düzgün olaraq göstərirdi ki, şimal və cənubda, ən qızmar və ən şaxtalı iqlimdə olduqca təmiz, saf və səmimi xalqlar yaşayır; ləyaqətlik və nöqsanlılıq vəziyyətləri ən müxtəlif fiziki amillərdə, istənilən coğrafi en və uzunluqda yarana və itə bilər: oğurluq, qəsdən adam öldürmə, quldurluq, soyğunçuluq, digər tamah və zorakı cinayətlər yalnız hər hansı bir ölkənin müstəsna bir məhsulu – "üstün" cəhəti deyildir və bu ölkələrdə məskunlaşmış xalqların mənəvi və digər keyfiyyətlərinin göstəricisi, qiymətləndirilməsinin meyarı ola bilməz (5, s. 263-265).

XIX əsrin sonu və XX əsrin kriminoloji düşüncəsinin ən məşhur nümayəndələrindən biri, "Cinayətin sosiologiyası" kitabının müəllif və kriminologiyada "biososial" istiqamətin banisi E.Ferri yazırdı: "Heç şübhəsiz, məməli heyvanlar hava, yəni oksigen olmadan yaşaya bilməzlər; lakin o da aydındır ki, hətta oksigen olduqda belə onlar ciyərlərsiz yaşaya bilməzlər... Bu onu göstərir ki, cinayətlər eyni zamanda bioloji, fiziki-coğrafi və sosial-iqtisadi köklərə malik mürəkkəb bir hadisədir. Cinayətlərin ayrılıqda götürülmüş bioloji, sosial və digər məzmuna malik olması haqqında digər nəzəriyyələrin əsas çatışmazlığı və nöqsanı onların birtərəfliyində və səthiliyindədir" (6, s. 29-31).

E. Ferri bildiridi ki, həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətləri (qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma) cənub bölgələrində, oğurluq cinayətlərini isə şimal bölgələrində daha çox müşahidə etmək mümkünüdür.

Cinayət statistikasının banilərindən biri, Parisin apelyasiya məhkəməsinin vəkili A. Henri "Fransanın mənəvi statistikasının tədqiqi" (1833) əsərində Fransanın müxtəlif regionları üzrə 1825-1830-ci illəri əhatə edən dövr ərzində cinayətkarlıq haqqında statistik məlumatların analizi əsasında belə bir nəticəyə gəlmişdi ki, "oxşar sosial-iqtisadi və təbii şəraitləri olan regionlarda cinayətkarlıq nəinki say və formalar, həm də cinayətkarların cins və yaş qrupları, cinayətlərin ili fəsillərinə görə bərabər paylanması ilə xarakterizə olunur, müəyyən kateqoriyalı cinayətlərin sayı isə demək olar ki, üst-üstə düşür". Bununla belə A. Herri cinayətkarlığın regional statistik analizini aparan tədqiqatçılar tələsik qərarlardan, elmi və empirik baxımdan tam əsaslandırıl-mayan nəticələr çıxarmaqdan çəkindirirdi: "Regionun bütün məcmu parametrləri və xarakteristikalarını nəzərə almadan, onların dərin və məzmunlu analizini aparmadan cinayətkarlığın coğrafi paylanmasını əks etdirən statistik məlumatların səthi təhlili cinayətkarlığın həqiqi mənzərəsinin təhrifinə, kobud səhvlərə gətirib çıxarmaqla, cinayətkarlığın əsl səbəblərini və şəraitlərini aşkar etməyə imkan verməyəcəkdir" (3, s. 16-17).

Sosial fizikanın və ya müasir anlamda desək, sosiologiyanın banilərindən, statistika nəzəriyyəsinin yaradıcılarından biri olan Belçikalı A.Ketle (1796-1874) cinayətkarlığı sosial hadisə kimi öyrənməyə çalışmışdır.

Fransanın 1826-1831-ci illər üzrə cinayət statistikası məlumatlarına əsaslanaraq, Ketle müxtəlif bioloji, psixofizioloji, fiziki, sosial, iqtisadi, demoqrafik və digər amillərin cinayətkarlığın azalmasına və ya artmasına təsirini müəyyənləş-dirməyə çalışmışdır. O, cinayətkarlığı statistik metod əsasında tədqiq edərək, iqlimin, ilin fəsillərinin, yaşın, cinsin, təhsilin, sənətin, irqin, sənayenin, ticarətin, yoxsulluq dərəcəsinin, ərzağın qiymətlərinin, spirtli içkilərin və digər amillərin cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasına təsirini müəyyənləşdirməyə cəhd etmişdir. A.Ketle apardığı tədqiqatlar nəticəsində cinayətkarlıq və sosial amillər, sosial mühit arasında düz mütənasiblik asılılığının mövcud olduğu qənaətinə gəlir (3, s.15).

XIX əsrin ortalarında fransız kriminalisti və fəlsəfə professoru Q.Tard cinayətkarlığın səbəblərinin sosial məzmun daşıdığı mövqeyindən çıxış etmiş, cinayətlərin səbəblərinin izahına yönəlmiş xüsusi "təqlid etmə" nəzəriyyəsini yaratmışdır. O. Fransada cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərini əks etdirən statistik məlumatların analizini aparmaqla yanaşı, cəmiyyətdə mövcud olan sosial-mədəni və digər şəraitləri müqayisəli təhlil edərək, cəmiyyətin təhsil, mədəni və rifah səviyyəsinin yüksəlməsi ilə cinayətlərin sayının da artdığını üzə çıxarmışdır. Statistik-sosioloji təhlil əsasında o, təhsil və mədəniyyətin az yayıldığı kənd regionlarında ildə 100 min əhaliyə 8 məhkum qeydə alındığını, şəhərlərdə isə bu göstəricinin 16-ya bərabər olduğunu müəyyən etmişdir (7, s. 144-145).

Təxminən, elə o dövrdə cinayətkarlıq haqqında kriminoloji nəzəriyyələrdən birinin - "Anomiya", yəni "Sosial pozulma" nəzəriyyəsinin yaradıcısı, ixtisasca sosioloq olan E. Dyürkgeym Fransa və İtaliya kimi ölkələrdə cinayət statistikası məlumatlarını, digər empirik materialları öyrənərək ruhi xəstəliklərin, alkoqolizmin, irqin və s. insanları cinayətkar davranışa sürükləyən əsas amillər olmadığını müəyyən edir. O, cinayətlərin yayda qışa nisbətən daha çox törədildiyini, cinayətkarlığın səviyyəsinin şəhərlərdə kəndlərə nisbətən xeyli yüksək olduğunu müəyyən etmiş və belə nəticəyə gəlmişdir ki, cinayətkarlıqla onu əhatə edən mikromühit arasında qarşılıqlı əlaqə və asılılıq mövcuddur (8, s. 39-40).

Xarici təbiət amillərini, coğrafi mühitin cinayətkarlığa dolayı yolla təsir etdiyini E. Şur, R. Klark, K. Ueda, V. Foks, Q. Şnayder kimi tanınmış kriminoloqlar da qeyd etmişlər (9, 36-60).

Dünyanın ayrı-ayrı ölkələrində baş verən cinayətkarlığın regional-coğrafi analiz istiqamətləri müxtəlif və çoxaspektlidir. Son bir neçə onillikdə ABŞ, Rusiya, Fransa, Almaniya və s. xarici ölkələrdə cinayətkarlığın ərazi fərqlərinin və bunun yaranma səbəblərinin tədqiqi istiqamətində müəyyən təcrübə toplanmış, metodiki və empirik baza yaradılmışdır. "Bu tədqiqatlar məsələnin qoyuluşu, tədqiqat məqsədi, metodları, predmeti ilə fərqlənirlər. Lakin qətiyyətlə demək olar ki,

cinayətkarlığın "coğrafiyasının" müqayisəli kriminoloji analizi cinayətkarlığın ərazi fərqlərinin tədqiqinin ən geniş yayılmış növüdür" (3, s. 15-25).

Bu istiqamətdə tədqiqatlar K. Şou, Q. Makkey (ABŞ), C. Lotye, R. Çilton (Böyük Britaniya), Y. Xelmer, K. Şmid, Q. Şvind (Almaniya) və başqaları tərəfindən aparılmışdır. Onlar ayrı-ayrı regionların sosial-demoqrafik, coğrafi, ekoloji və digər xarakteristikalarının tədqiqi əsasında cinayətkarlığın məkan və zamanca paylanması, habelə bu əsasda regional planlaşdırılma, hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı problemləri həll etməyə cəhd etmişlər (10, s. 16; 11, s. 15).

XX əsrin əvvəllərində Çikaqo universitetində meydana gəlmiş "ekoloji məktəb"in nümayəndələri E. Berdcis, K. Şou və başqaların tərəfindən cinayətkarlığın ərazi fərqləri və onların yaranma səbəblərinin tədqiqi həyata keçirilmişdir. Qeyd edək ki, Çikaqo alimləri şəhər rayonlarında cinayətkarlığın paylanmasının funksional, coğrafi xüsusiyyət və fərqlərinin sadəcə nümayişi ilə kifayətlənməmiş, bu fenomenin ümumi analizinin nəzəri əsaslarını işləyib hazırlamışlar (3, s. 31-32).

Çikaqo "ekoloji məktəbinin" nümayəndələri tərəfindən həyata keçirilən empirik tədqiqatlar böyük şəhərlərin, xüsusi halda Çikaqonun müəyyən rayonlarının antisosial davranışın xüsusi formaları ilə səciyyələndiyini göstərmişdir. E.Berdcis "təbii rayonlar" konsepsiyasına əsaslanaraq Çikaqonu şəhərin mərkəzindəki işgüzar məhəllələrindən başlayan və şəhərətrafı qəsəbələr ilə qurtaran 5 konsentrik zona şəklində təsvir etmişdir. Onun həmkarı K.Şou Çikaqoda yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətləri öyrənərək şəhərin mərkəzində yerləşən işgüzar məhəllələri əhatə edən aralıq zonalarda cinayətkarların ən yüksək konsentrasiyasının və deməli, cinayətkarlığın daha yüksək səviyyəsinin müşahidə olunduğunu müəyyən etmişdir.

Rusiyada cinayətkarlığın ərazi fərqlərinin yaranmasına gətirib çıxaran səbəb-şərait kompleksinin öyrənilməsi ilə bağlı tədqiqatlar XIX əsrin XX əsrin əvvəllərindən etibarən aparılmağa başlanmışdır.

Ümumiyyətlə bu ölkədə 1874-cü ildən başlayaraq Ədliyyə Nazirliyi tərəfindən cinayətkarlıq haqqında statistik məlumatlar toplusu çap olunurdu. Bu məlumatların kifayət qədər dərin təhlilini E.N. Tarnovskinin, A.İ. Çuprovun, A.N. Trayninin, M.N. Hernetin və başqalarının məqalələrində, ayrı-ayrı kitablarında tapmaq olardı.

1913-cü ildə M.N. Zamenqorf şəhər və kənd yerlərində cinayətkarlığın müqayisəli analizini aparmış, M.N. Qernet öz əsərlərindən birini Moskva şəhərində cinayətkar aləminin tədqiqinə həsr etmişdir (12, c. 3-5).

Çar Rusiyasında kənd rayonlarında qeydə alınmış cinayətlərin sayı şəhərlə müqayisədə dəfələrlə yüksək idi. Lakin nisbi göstəricilər şəhərlərdə kənd yerləri ilə müqayisədə cinayətkarlığın daha geniş yayıldığını göstərirdi. Belə ki, 1897-1904-cü illərdə Rusiyanın 100000 nəfər şəhər əhalisinə orta hesabla 97 məhkum düşdüyü halda, kənd yerlərində uyğun göstərici 37-ə bərabər idi. M.N. Hernetin gətirdiyi məlumatlara əsasən isə artıq 1912-ci ildə Rusiyada şəhərlərdə 100000 nəfər əhaliyə 276, kənd yerlərində isə 74 məhkum düşürdü. O dövrün tanınmış statistiki E. Anuçin Rusiyada şəhər və kənd cinayətkarlığının struktur və dinamikasında əhəmiyyəti fərqlərin olduğunu göstərir.

A.N. Traynin dələduzluq, quldurluq və soyğunçuluğun əsasən şəhərlərdə yayıldığını, kənd regionları üçün isə xarakterik olmadığını qeyd edir, bunu şəhər mühitinə xas olan cah-calal və bolluqla, kəndlərdə isə imkanlı adamların demək olar ki, olmaması ilə əlaqələndirirdi.

A.A. Qertsenzon, M.N. Qernet və digər tanınmış hüquqşünaslar müxtəlif ərazi vahidlərində mövcud iqtisadi, sosial və demoqrafik amillərin cinayətkarlığın ərazi üzrə paylanmasında müəyyən fərqlərə gətirdiyini qeyd etmişlər (13, s. 119-120). Məsələn, M.H. Hernet XX əsrin əvvəllərində Rusiyada şəhər və kəndin yaşayış tərzində mövcud əhəmiyyətli fərqlərin kənd və şəhər cinayətkarlığının strukturunda da fərqlərin yaranmasına gətirib çıxardığını qeyd edərək, kəndlərdə şəhərlərə nisbətən qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, zorlama və sair həyat və sağlamlıq, habelə şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə cinayətlərin daha geniş yayıldığını göstərir (5, s. 537).

Beləliklə, qədim dövrlərdə, xüsusən də XVIII əsrdən etibarən filosoflar, hüquqşünaslar, sosioloqlar, antropoloqlar və digərləri qonşu ölkələrdə, ölkə ərazisinin müxtəlif regionlarında cinayətkarlığın vəziyyəti, struktur və dinamikasında əhəmiyyətli fərqlərin mövcudluğunu müşahidə etmiş və bu fərqlərin yaranma səbəblərinin öyrənməyə çalışmışlar.

Qeyd edək ki, XX əsrin 70-80-ci illərində keçmiş SSRİ-nin ayrı-ayrı respublikalarında - Rusiya, Pribaltika və Gürcüstanda kriminoloqlar tərəfindən olduqca maraqlı və nəticə etibarilə səmərəli tədqiqatlar keçirilmişdir.

Latviyada cinayətkarlığın "coğrafi" tədqiqi əsasən E.Y.Dzenis və Q.Q. Menberqin işlərində öz əksini tapmış (14), Estoniyada isə E.E. Raska tərəfindən regional-coğrafi yönümlü kriminoloji tədqiqatlar aparılmışdır (15, s. 24-25).

E.Y. Dzenis və Q.Q. Menberq Latviyada ayrı-ayrı regionlar üçün səciyyəvi olan sosial, iqtisadi şəraiti, miqrasiya və urbanizasiya proseslərini təhlil edərək, regional cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərində ərazi fərqlərinin yaranma səbəblərini müəyyən etməyə çalışmışlar.

A.A. Qabiani, R.Q. Qaçeçiladze və başqaları Gürcüstanın müxtəlif ərazilərində iqtisadi, sosial-demoqrafik, etnik və digər amillərin xarakter və intensivliklərinin əhəmiyyətli dərəcədə fərqlənməsini nəzərə alaraq, ölkə ərazisini şərti olaraq "cinayətkarlıq regionları" adlandırılan 20 ərazi vahidinə bölərək, onların regional kriminoloji tədqiqatını həyata keçirmişlər (16).

Həmin alimlər regionların kriminoloji tədqiqi zamanı sosial, iqtisadı, demoqrafik parametrlərə xüsusi diqqət yetirmiş, coğrafi mövqe, regionun tarixi, etnoqrafiyası, əhalinin dinamikası, sıxlığı, demoqrafik strukturu və demoqrafik vəziyyəti (doğum, ölüm, milli, yaş-cinsi tərkibi), təhsil səviyyəsi, əhalinin miqrasiyasının xarakteri, ərazinin əsas təsərrüfat funksiyaları, yaşayış məntəqələrinin tipi, urbanizasiya səviyyəsi və sair kimi amillərin cinayətkarlığın struktur və dinamikasına, kriminal əməllərin intensivliyinə təsirini öyrənmişlər.

Şəhər və kənd cinayətkarlığının xarakter və intensivliyindəki mövcud fərqləri müəyyən dərəcədə nizamsız urbanizasiya və miqrasiya prosesləri ilə əlaqələndirərək, müəlliflər urbanizasiyanın kriminogen xarakter daşıyan amilləri sırasında aşağıdakıları xüsusi olaraq qeyd edirlər:

- urbanizasiya prosesi böyük şəhərlərdə daha intensiv olur. Bu tip şəhərlərdə kənd yerlərindən böyük əhali kütləsinin axını baş verir və onların şəhər yaşayış tərzinə uyğunlaşma prosesi çox çətinliklə və ziddiyyətli şəkildə gedir;
- böyük şəhər xeyli sayda cavan yaşda olan adamları özünə cəlb etdiyindən onu əhatə edən kənd yerlərinə nisbətən şəhərlərin demoqrafik strukturu əhəmiyyətli dəyişikliklərə uğrayır (17).

Coğrafi prinsip üzrə aparılmış kriminoloji tədqiqatların yekunu olaraq A.A. Qabiani və R.Q. Qaçeçiladze regionlar arasında sosial-iqtisadi, demoqrafik, tarixi, mədəni və s. sahələrdə mövcud fərqlərin cinayətkarlığın vəziyyəti, struktur və dinamikasında bir sıra əhəmiyyətli fərqlərin yaranmasına gətirdiyin kimi nəticə çıxarırlar.

XX əsrin 70-90-cı illərində A.İ. Dolqova, M.Q. Minkovski, Q.İ. Zabryanski, E.N. Mazin, K.K. Qoryainov, N.A. Belyayev, Y.N. Qilinsiki, L.V. Kondratyuk və başqaları tərəfindən regional səviyyədə cinayətkarlığın tədqiqi, şəhər və kənd mühitində cinayətkarlığın analizi, cinayətkarlığın struktur və dinamikasında ərazi fərqlərinin yaranmasının səbəblərinin öyrənilməsi məqsədilə bir sıra kriminoloji araşdırmalar aparılmışdır (18, s.208-209; 19, s. 50, 20-22; 23, s. 42-51).

A.A. Qertsenzon regional kriminoloji tədqiqatlardan danışarkən göstərirdi ki, "profilaktik işin səmərəliliyinin yüksəldilməsi üçün bu və ya digər regionun xüsusiyyətləri nəzərə alınmaqla cinayətkarlığın öyrənilməsi zəruridir" (24, s. 38). Eyni mövqelərdən çıxış edərək A.B. Saxarov qeyd edirdi: "regional tədqiqatlar əsasdır. Ümumi analiz həmişə zəruridir, vacibdir, lakin eyni zamanda müxtəlif regionlarda törədilən cinayətlərin xüsusiyyətlərinin müəyyən edilməsi də əhəmiyyət kəsb edir" (25, s. 11-12). Q.M. Minkovski xüsusi olaraq yazırdı ki, "bütün səylər regionlarda törədilən cinayətlər haqqında məlumatların toplanmasına və konkret sosioloji tədqiqatların keçirilməsinə yönəlməlidir" (26, s. 26-27).

Rusiya ərazisinin ayrı-ayrı hissələrində, ölkənin müxtəlif regionlarında cinayətkarlığın səviyyəsinin elmi-metodoloji baza əsasında kriminoloji tədqiqi XX əsrin 70-ci illərində V.N. Kudryavtsev, A.B. Saxarov və digərləri tərəfindən həyata keçirilmişdir (27).

80-ci illərin ortalarında A.İ. Dolqovanın rəhbərliyi altında bir qrup rus kriminoloqu tərəfindən cinayətkarlığın coğrafi-kriminoloji tədqiqi həyata keçirilmiş, kriminoloji analiz obyekti olaraq ölkənin 7 vilayəti götürülmüşdür. Bu isə onlara son nəticədə regionların kriminoloji təsnifatını işləyib hazırlamağa imkan vermişdir (20, s. 6-9; 28, s. 160-166).

Son illərdə cinayətkarlığın coğrafi tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması problemləri ilə bağlı bir sıra monoqrafik tədqiqatlar aparılmış, dissertasiya işləri müdafiə edilmişdir. Onların sırasında V.İ. Qladkix (Daxili işlər orqanları tərəfindən böyük şəhərlərdə cinayətkarlığın qarşısının alınması problemləri dokt. diss. Moskva, 1997); K.T. Rostov (Rusiyada cinayətkarlığın regional analizinin metodologiyası, dokt. diss. Sankt-Peterburq, 1998); V.İ. Kanıqin (Regionda cinayətkarlığın kompleks tədqiqi və qarşısının alınması problemləri namizəd diss. N. Novqorod, 2002); K.R. Abızov (Regional cinayətkarlığın kriminoloji proqnozlaşdırıl-ması və qarşısının alınması (Sibir federal dairəsinin materialları əsasında), namizəd diss. Moskva 2004); D.E.Vaniçkin (Regionda cinayətkarlığın kriminoloji xarakteristikası və qarşısının alınması (Stavropol vilayətinin materialları əsasında), namizəd diss. Stavropol, 2004); V.P. Kravçenko (Ekstremal şəraitli böhranlı regionda cinayətkarlığın kriminoloji problemləri (Çeçenistan Respublikasının materialları əsasında), namizəd diss. Maxaçkala, 2004); A.V. Kornienko (Regionda cinayətkarlığın kriminoloji xarakteristikası və qarşısının alınması (Bryansk vilayətinin materialları əsasında); namizəd diss. Ryazan, 2005); B.V. Baranov (Böyük şəhərdə, onun ərazi fərqləri nəzərə alınmaqla cinayətkarlığın qarşısının alınması (Moskva şəhərinin materialları əsasında), namizəd diss. Moskva, 2005); A.A. Muxin (Regionda cinayətkarlığın göstəriciləri sistemi), namizəd diss. N. Novqorod, 2005) və başqalarının monoqrafik əsərləri qeyd edilməlidir.

Azərbaycanın tanınmış hüquqşünas- alimləri (İ. İsmayılov, İ. Rəhimov, X. Ələkbərov, F. Səməndərov, T. Qarayev, B. Zahidov və digərləri) də cinayətkarlıqla mübarizənin kompleks və elmi zəmin əsasında proqnozlaşdırılmasında, cinayətkarlıqla mübarizənin kompleks və elmi zəmin əsasında təşkili və həyata keçirilməsində cinayətkarlığın "coğrafi", regional kriminoloji tədqiqinin rolu və əhəmiyyətini qeyd etmişlər. Onlar regional səviyyədə, ayrı-ayrı inzibati-ərazi vahidlərində, şəhər və rayon hüdudlarında cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının, regional cinayətkarlığı determinə edən səbəb və şəraitlərin, sosial, iqtisadi və s. xarakterli amillər kompleksinin tədqiqinin vacibliyi və əhəmiyyətini, müasir mərhələdə cinayətkarlığın regional tədqiqinin kriminologiya elminin əsas istiqamətlərindən birinə çevrildiyini göstərmişlər (29-31).

Belə ki, X. Ələkbərov və R. Rəsulov keçmiş Sovet ittifaqında 50 illik fasilədən sonra, 1988-ci ildən etibarən təkcə ölkə üzrə deyil, həmçinin ayrı-ayrı regionlar, yəni respublikalar üzrə cinayətkarlığın vəziyyəti haqqında əsas göstəricilərin nəşr olunmağa başladığını qeyd edərək göstərirdilər ki, belə nəşrlər "kriminoloqlara qeydə alınmış cinayətlərin dinamikasında və strukturunda baş verən proseslərin dərin elmi analizini aparmağa, bu proseslər daxilində baş verən neqativ meylləri üzə çıxarmağa, perspektiv üçün proqnozları irəli sürməyə cinayətkarlıqla mübarizənin prioritet istiqamətlərinin müəyyən etməyə və bu mübarizədə yaranan problemli vəziyyətlərin aradan qaldırılması üzrə qabaqlayıcı qərarları və tədbirləri işləyib hazırlamağa imkan verir" (29, s.3). Müəlliflər, XX əsrin 80-cı illərinə dair statistik məlumatlara əsaslanaraq respublikanın şəhər və rayonlarında cinayətkarlığın paylanması və strukturunda mövcud olan əhəmiyyətli fərqləri göstərir, bununla bağlı cinayətkarlıqla mübarizə məqsədləri üçün respublikanın kriminoloji rayonlaşdırılmışının zəruriliyi və elmi-praktiki əhəmiyyətini xüsusi olaraq vurğulayırlar.

Qeyd edək ki, son illərdə professor Xanlar Ələkbərov tərəfindən Azərbaycanın Naxçıvan iqtisadi rayonunda, Naxçıvan Muxtar Respublikasında, cinayətkarlığın strukturu və dinamikası ilə maraqlı kriminoloji analiz aparılmışdır. O, 18 dekabr 2013-cü il tarixində "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda Azərbaycanın Naxçıvan bölgəsində (iqtisadi rayonunda) cinayətkarlıq fenomeni ilə bağlı öz fikir və mülahizələrini konfrans iştirakçıları ilə bölüşmüşdür.

X. Ələkbərov xüsusi halda Azərbaycanda regional cinayətkarlığın müasir vəziyyətinin öyrənilməsi zamanı, Naxçıvan Muxtar Respublikasında son iki onillikdə qeydə alınmış cinayətlərin dinamikası və strukturunda kriminologiya üçün qeyri-tipik olan proseslərlə qarşılaşdığını qeyd etmişdir. Belə ki, aparılan tədqiqatlar "1994-cü ildən başlayaraq Naxçıvan iqtisadi rayonunda istər qeydə alınmış cinayətlərin (o cümlədən ağır və xüsusi ağır) sayının, istərsə də cinayətkarlığın səviyyəsinin ildən-ilə sabit şəkildə aşağı düşməsi meylinin təşəkkül tapdığını ,bu proseslərin son illərdə intensiv sürətlənmə meyli ilə səciyyələndiyini göstərir. Nəticədə, son 20 ildə bu regionda qeydə alınmış cinayətlərin sayı 46 dəfə azalmış, cinayətkarlığın səviyyəsi isə 100 min əhaliyə 4 cinayət rəqəminə qədər aşağı düşmüşdür" (32, s. 22).

X. Ələkbərov daha sonra qeyd edir: "Gətirilmiş bu rəsmi statistik məlumatlar belə ehtimal etməyə əsas verir ki, son iki onillikdə Naxçıvan Muxtar Respublikasında qeydə alınmış cinayətlərin dinamikası və strukturunda müşahidə olunan pozitiv meyllər hər hansı, müəyyən bir kriminoloji fenomenin nəticəsidir. Lakin bu fenomen hələ ki, Azərbaycan kriminologiyasında xüsusi tədqiqat obyekti olmamışdır. Ona görə də son 20 ildə Naxçıvan iqtisadi rayonunda qeydə alınmış cinayətlərin belə sürətli templərlə aşağı düşməsini izah etmək çox çətindir. Xüsusi halda, indiyə qədər aşağıdakı suallar cavabsız qalmışdır: 1) uzun müddət ərzində regionda belə hiperaşağı cinayətkarlığın əsas, köklü səbəbi nədən ibarətdir; 2) bu fenomenin nüvəsini hansı sosial-iqtisadi, siyasi-hüquqi, demoqrafik, etnopsixoloji amillər formalaşdırır?

Öz nəticələrinin mübahisəsiz olduğunu iddia etməyərək, hörmətli professor hesab edir ki, Azərbaycanın həmin regionunda bu cür olduqca hiperaşağı cinayətkarlığın fundamental səbəblərini aşağıdakı amillərin təsiri ilə izah etmək olmaz: 1) cinayətlərin uçotdan gizlədilməsi; 2) əhalinin xüsusi qanuna riayət etmə dərəcəsi; 3) cinayətlərin superprofilaktikasının təşkili; 4) əhalinin kütləvi miqrasiyası; 5) Naxçıvan iqtisadi rayonunda genetik olaraq yüksək patoloji təcavüzkarlığı ilə seçilən vətəndaşlar azdır (32, s. 22-27).

Professor İ. Rəhimov 1995-ci ildə nəşr olunan "Cinayətkarlıq və kibernetika" monoqrafiyasında Azərbaycanda cinayətkarlığın ərazi nöqteyi-nəzərindən paylanmasının, respublikanın hər bir regionunda cinayətkarlığın vəziyyətinin, strukturunun, dinamikasının və səviyyəsinin (cinayətkarlıq əmsalının), konkret regionlarda xüsusi çəkisi daha yüksək olan cinayət növlərinin müəyyən edilməsinin və yalnız bundan sonra cinayətkarlıqla mübarizənin kompleks və regional proqramlarının, planlarının işlənib hazırlanması zəruriliyini xüsusi olaraq vurğulayır. Hörmətli professor həmçinin miqrasiya və urbanizasiya kimi demoqrafik amillərin cinayətkarlıqda ərazi fərqlərinin yaranmasına təsir etdiyini də qeyd edir (33).

18 dekabr 2013-cü il tarixində Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında təşkil edilmiş "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda çıxış edərkən İ. Rəhimov xüsusi olaraq qeyd etmişdir: ".....qloballaşma dövründə cinayətkarlıq artmaqdadır. Əgər cinayətkarlığın inkişaf tendensiyaları dəyişərsə, deməli, yeni istiqamətdə aparılan kriminoloji tədqiqatlara xüsusi ehtiyac vardır. Məhz bu baxımdan cinayətkarlığın regional tədqiqinin əhəmiyyəti böyükdür. Cinayətkarlığın ümumi kriminoloji tədqiqi profilaktik tədbirlərin özündə də ümumiliyi yaradır. Lakin cinayətkarlığın regional tədqiqi bu halın kəmiyyət və keyfiyyət göstəricilərini, həmçinin sosial-iqtisadi xüsusiyyətlərin müxtəlif ərazilər üzrə qarşılıqlı əlaqəsinin və ümumi cinayətkarlığa təsirinin öyrənilməsində müstəsna rolu vardır. Cinayətkarlığın yeni-yeni növlərinin yarandığı müasir dövrdə cinayətlərin müxtəlif regionlar üzrə daha da detallaşdırılaraq öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir" (34, s. 19-21).

İ.A. İsmayılov düzgün olaraq göstərir ki, Azərbaycan ərazisinin yığcamlığına baxmayaraq ölkədə cinayətkarlıqla bağlı mənzərənin səciyyəvi cəhətlərindən biri də cinayətkarlığın kəmiyyət və keyfiyyət parametrlərində əhəmiyyətli fərqlərin qeydə alındığı regionların, şəhər və rayonların mövcud olmasıdır. Müəllif "Cinayətkarlıq və cinayət siyasəti" monoqrafiyasında (1991-ci il) yazır: "Respublika ərazisinin yığcamlığına baxmayaraq Azərbaycanda mövcud kriminogen mənzərənin xüsusiyyətlərindən biri də cinayətkarlığın səviyyə, struktur və dinamikasının kəskin fərqləndiyi zonaların (regionların) varlığıdır" (30, s. 32).

Müəllif cinayətkarlığın, o cümlədən regional cinayətkarlığın sistemli tədqiqi zamanı müasir informasiya-kompyuter texnologiyalarının, qeyri-ənənəvi metod, üsul və vasitələrin tətbiqinin verə biləcəyi geniş imkanları qeyd edir. İ.İsmayılov belə bir metodoloji baza əsasında 10 illik bir dövrü əhatə edən cinayət statistikasının materialları əsasında Azərbaycanda cinayətkarlığın strukturunda regional fərqlərin yaranma səbəblərinin müqayisəli analizini aparmışdır. Tədqiqatçı tərəfindən müqayisəli analiz obyekti qismində 10 illik dövrdə (1979-1988-ci illər) qeydə alınmış cinayətlərin ümumi sayı təxminən eyni olan ərazi "cütləri" olaraq Quba və Yevlax rayonu seçilmişdir. Bu rayonlarda oğurluq, qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, zorlama, quldurluq, soyğunçuluq, xuliqanlıq və s. əməllərlə yanaşı, ictimai təhlükəliliyi də yüksək olan kriminal əməllərin müqayisəli kriminoloji analizi keçirilmiş və bu rayonlarda cinayətkarlığın strukturunda və dinamikasında əhəmiyyətli fərqlərin mövcud olduğu üzə çıxarılmışdır (30, s. 47-49).

Azərbaycan alimi T. Qarayev cinayətkarlığın regional, "coğrafi" tədqiqinin rolu və həmiyyətini, müstəsna aktuallığını və zəruriliyini belə əsaslandırır: " geniş dağ otaqlarına malik rayonlarda mal-qara oğurluğu, sərhəd rayonlarda qaçaqmalçılıq, sənaye şəhərlərində və dənizkənarı yaşayış məntəqələrində əməyin mühafizəsi və ekoloji təhlükəsizlik qaydalarının pozulması ilə bağlı cinayətlərin üstünlüyə malik olduğunu göstərən kriminoloji məlumatlar bu regionlarda cinayətkarlıqla mübarizə üzrə fəaliyyəti daha səmərəli və sistemli şəkildə təşkil edərək həyata keçirməyə və son nəticədə respublikada cinayətkarlıqla mübarizəni kompleks şəkildə təşkil etməyə imkan verir" (31, s. 52).

Cinayətkarlığın ərazi prinsipi üzrə tədqiqinə olan diqqətin daima artdığını, kriminoloji tədqiqat obyektinin daha çox diferensiallaşdığını, artıq kriminologiya elmində yeni istiqamətin – cinayətkarlığın coğrafiyasının yarandığını və mövcudluğunu qeyd edərək F.Y. Səməndərov yazır: "Cinayətkarlığın vəziyyəti, quruluşu və dinamikası ilə yanaşı kriminologiyada cinayətkarlığın coğrafiyası anlayışı da fərqləndirilir. Cinayətkarlığın coğrafiyası anlayışı ölkənin regionları və inzibati ərazi vahidləri üzrə bölgüsünü nəzərdə tutur. İnzibati ərazilərə görə cinayətkarlığın kəmiyyət və keyfiyyət tərəfləri, cinayətkarlığın səbəb və şəraiti öyrənilir. Cinayətkarlığın əraziyə görə bölgüsü təkcə ölkə miqyasında deyil, həm də vilayət, şəhər, rayon və kənd bölgüləri üzrə öyrənilir. Cinayətkarlıqla mübarizə işinin elmi əsaslar üzrə təşkili ilk növbədə onun ərazi əlaməti üzrə necə paylandığını aydınlaşdırmağı tələb edir. Məsələn, şəhərdə və kənddə, sənaye və aqrar rayonlarında cinayətlərin həm kəmiyyətcə, həm də keyfiyyətcə paylanması arasında fərqlər vardır" (35, s. 59-63).

XX əsrin 90-cı illərinin ortalarında Y.S. Abdullayev və M.R. Kazımov da kriminologiya elminin bu istiqamətinə müraciət etmiş, cinayətkarlığın "coğrafi" tədqiqinin rolu və əhəmiyyətini, regional kriminoloji analizlərin aparılmasının zəruri tədqiqi sahəsində mövcud vəziyyəti öyrənmiş, cinayətkarlığın struktur və dinamikasında ərazi fərqlərinin yaranması səbəbləri ilə bağlı aparılan araşdırmaları təhlil etmişlər. Müəlliflər cinayətkarlığın "coğrafiyasının" öyrənilməsinin nə verə biləcəyi, bu qəbildən olan tədqiqatların səciyyəvi xüsusiyyətlərinin, məqsəd və vəzifələri nədən ibarət olması sualına cavab verərək qeyd edirlər:

1) Cografi–kriminoloji analiz cinayətkarlığın bütün regionlar üçün ümumi xarakter daşıyan xüsusiyyətləri ilə yanaşı, müəyyən qrup regionlara xas olan və xüsusi xarakter daşıyan kəmiyyət və keyfiyyət parametrlərini, habelə ayrıca görülmüş region üçün xarakterik olan kriminoloji xüsusiyyətləri aşkar etməyə imkan verir. Alınan məlumatlar cinayətkarlığın ümumi qanunauyğunluqları haqqında mühakimə yürütməyə, müxtəlif sosial-iqtisadi və sosial-iqtisadi və sosial demoqrafik göstəricilərlə malik olan regionlarda onun sabit kəmiyyət və keyfiyyət göstəriciləri sistemini ayırmağa, regional cinayətkarlığın struktur və dinamikasında ümumi meylləri üzə çıxarmağa imkan qaradır.

2) Müxtəlif regionlarda cinayətkarlığın xarakteristikaları ilə sosial, iqtisadi, coğrafi, təşkilati, texniki və sair kimi amillərin müqayisəli analizi cinayətkarlığın səbəb və nəticə kompleksinin differensiasiyalı mənzərəsinin alınması, bütün regionlar üçün ümumi olanlarla yanaşı, həm də ayrı-ayrı qrup regionlarda və ya hər hansı bir ərazi vahidinə xas olan səbəb və şəraitlər kompleksinin müəyyən edilməsi mümkün olur.

3) Respublikanın müxtəlif iqtisadi regionları üçün əhalinin demoqrafik modeli ilə cinayətkarın şəxsiyyətinin uyğun modelini qurulması və onların müqayisəli təhlilinin aparılması cinayətkarlığın "coğrafi" paylanması, müxtəlif ərizələrdə onun struktur və dinamikasında yaranan fərqlərin səbəbləri haqqında olan təsəvvürlərimizi dərinləşdirməyə, həm də bu sosial-hüquqi hadisəni doğuran səbəb və şəraitlər, amillər haqqında qiymətli məlumatlar toplamağa, onların təhlilini aparmağa və son nəticədə cinayətkarlıqla mübarizə üzrə regional modellər kompleksini qurmağa, xüsusi regional proqramlar işləyib hazırlamağa imkan verir.

4) Cinayətkarlığın ədqiqinə ərazi prinsipi ilə yanaşma cinayətkarlığın ən yüksək intensivlik zonalarının aşkar edilib seçilməsinə respublikada cinayətkarlığın ümumi differensiyasiyalı mənzərəsini yaratmağa və nəticədə dövlət səviyyəsində qüvvə və vasitələrin "manevrini" təşkil etməyə, yəni uyğun zamanda və uyğun məkanda cinayətkarlıqla mübarizədə fəallığı və ardıcıllığı artırmağa imkan verir.

5) Regional cinayətkarlığın struktur təhlili regionların ayrı-ayrı və ən çox yayılmış zorakı və tamah xarakterli cinayət növlərinə görə differensiyasiyasını (təsnifatını) verməyə və bu cinayətlərin respublikanın rayon və şəhərləri üzrə paylanmasının ümumi mənzərəsinin aşkar etməyə imkan verir.

6) Cinayətkarlığın ərazi fərqləri nöqteyi-nəzərindən sosial-demoqrafik, iqtisadi və digər proses və hadisələrin öyrənilməsi cəmiyyətə zidd hərəkətlərin səbəblərini üzə çıxararaq aşkar etməyə, onlarla mübarizə üzrə profilaktik tədbirlər sistemini yaratmağa, sosial nəzarəti həyata keçirən dövlət orqanlarının (DİN, prokurorluq, məhkəmə, ədliyyə orqanları və s.) fəaliyyətlərinin məqsədyönlülüyünü, səmərəliliyini və planlığını yüksəltməyə, təkmilləşdirməyə imkan verəcəkdir.

7) Cinayətkarlığın ərazi prinsipi üzrə kompleks kriminoloji analizinin məlumatları cinayətkarlığın modelləşdirilməsi və proqnozlaşdırılması məqsədləri üçün də istifadə oluna bilər. Məsələn, cinayətkarlığın yayılmasının "coğrafi" modelindən zəruri hallarda şərti olaraq bəzi kiçik dəyişmələr yolu ilə cinayətkarlığın proqnostik modelinə mümkün olan özünəməxsus dinamik model kimi istifadə etmək olar (3, s. 7-8).

Qeyd edək ki, cinayətkarlığın regional tədqiqinin vacibliyi, coğrafi nöqteyi-nəzərdən cinayətkarlığın, onun ayrı-ayrı növlərinin artıq bir neçə yüz il bundan əvvəl araşdırıldığını E. Şirinov da göstərir. O, müəllifi olduğu "Kriminologiya" dərsliyində "mühit və cinayətkarlıq", "coğrafi bölgələr və cinayətkarlıq", "fəsillər, həftənin günləri və cinayətkarlıq" kimi artıq onilliklər boyu müzakirə edilən məsələlərə toxunmuş, qeyd olunan aspektlərdən həyata keçirilən kriminoloji tədqiqatların təhlilini aparmışdır. E.Şirinov qey edir: "Aparılan tədqiqatlar göstərir ki, regionlar arasında cinayətkarlığın dinamikasındakı açıq fərqlər dərin sosial qüvvələrin təsiri nəticəsində meydana gəlir" (2, s. 318-319).

Hüquq üzrə elmlər doktoru B.Zahidov 18 dekabr 2013-cü il tarixdə "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda "Regional cinayətkarlığın səciyyəvi xüsusiyyətləri" məruzəsi ilə çıxışında xüsusi halda aşağıdakıları qeyd etmişdir: "cinayətkarlığın regional xüsusiyyətləri özündə bir çox elementləri birləşdirməklə, bu istiqamətdə aparılan tədqiqatlar olduqca mühüm əhəmiyyətə malikdir. Etiraf edilməlidir ki, ölkəmizdə cinayətkarlığın regional xüsusiyyətləri əsasən xidməti fəaliyyətlə bağlı araşdırma obyekti olsa da, fəqət belə araşdırmaların keyfiyyəti və əhatə dairəsi çox vaxt məhdud olur. Ölkəmizin regional xüsusiyyətləri, müxtəlif bölgələrin sosial-iqtisadi inkişafı, relyefi, iqlim şəraiti, təbii-bioloji amilləri, əhalinin təhsil səviyyəsi, iş yerləri və mədəniyyət göstəriciləri kifayət qədər rəngarəngdir və heç şübhəsiz, bütün bunlar cinayətkarlığa təsir edən amillər sırasındadır. ... Buna görə də cinayətkarlığın regional xüsusiyyətlərinin öyrənilməsi və onunla mübarizənin səmərəli təşkilinin ardıcıl və sistemli şəkildə aparılması olduqca aktuallaşmışdır" (36, s. 62-63).

Qeyd olunanlar əsasında son illərdə cinayətkarlığın ərazi-coğrafi prinsipi üzrə kriminoloji tədqiqinə olan diqqətin əhəmiyyətli dərəcədə artdığını, kriminologiya elmində isə yeni bir istiqamətin – regional kriminologiyanın, cinayətkarlığın "coğrafi" kriminoloji analizi, proqnozlaşdırılması və qarşısının alınması kimi istiqamətin formalaşmasını söyləyə bilərik. Hazırda cinayətkarlığın coğrafiyası olaraq dünyada, onun müxtəlif hissələrində ayrı-ayrı ölkələrdə və

regionlarda və ya inzibati-ərazi vahidlərində cinayətkarlığın zaman-məkan paylanması problemləri ilə məşğul olan kriminologiya elminin bölməsi, istiqaməti başa düşülür. Məhz regional kriminologiya çərçivəsində cinayətkarlığın regional analizinin elmi-nəzəri və metodoloji əsasları işlənib hazırlanması, bu elmi-nəzəri və metodoloji baza əsasında regional miqyasda cinayətkarlığın səbəb-nəticə kompleksinin tədqiqi, regional cinayətkarlığın əsas kəmiyyət-keyfiyyət xarakteristikaları, meylləri və qanunauyğunluqları üzə çıxarılmalı, konkret inzibati-ərazi vahidində (regionda) mövcud sosial-iqtisadi, demoqrafik və digər xarakteristikalar, mövcud şəraitlər nəzərə alınmaqla profilaktik tədbirlər kompleksi işlənib hazırlanmalıdır.

ƏDƏBİYYAT

1. Монтескье Ш. Избранные произведения. М., 1955.
2. Şirinov E. Kriminologiya. Ümumi hiss. Bakı, 2008.
3. Kazımov M.R. Abdullayev Y.S. Cinayətlərin "coğrafiyası": tarixi: hüquqi baxış. Bakı, 1996.
4. Ломброзо Ч. Преступление. М., 1994.
5. Гернет М.Н. Избранные произведения. М., 1974.
6. Ферри Э. Преступление как социальное явление //Социология преступности. М., 1966.
7. Тард Г. Преступник и преступление. М., 1966.
8. Дюркгейм Э. Норма и потология //Социология преступности. М., 1996.
9. Криминологические исследования в мире. М., 1995.
10. Абызов К.Р. Проблемы криминологического прогнозирования и предупреждения региональной преступности (по материалам Сибирского федерального округа). Диссерт. к.ю.н. М., 2004.
11. Баранов Б.В. предупреждение преступности в сверхкрупном городе с учетом её территориальных различий. Диссерт. …к.ю.н. М., 2005.
12. Кравченко В.П. Криминологические проблемы преступности в кризисном регионе с экстремальными условиями. Автореф. дисс. …к.ю.н. М., 2004.
13. Социальные отклонения. М.,1989.
14. Дзенис Э.Н. Менберг Г.Г. Социально-географические аспекты изучения преступности в Латвийской ССР //Криминологические исследования. Рига, 1974.
15. Раска Э.Э. Преступность как показатель состояние социального пространства (к вопросу об обосновании территориального подхода к изучению преступности) //Теоретические проблемы изучения территориальных различий в преступности. Труды по криминологии. Вып. 761. Тарту, 1987, с. 24-25.
16. Габиани А. Гачечиладзе Р., Дидебулидзе М. Об основных принципах пространственного анализа преступности (на примере Грузинской ССР) // Актуальные вопросы предупреждения правонарушений. Тбилиси, 1981. Вып.1.
17. Габиани А.А., Гачечиладзе Р.Г. Некоторые вопросы географии преступности. Тбилиси. 1982.
18. Мазин Е.Н. Основные направления исследований территориальные различий преступности. Сб. науч. тр. Вильнюс, 1980. Вып. 6, с. 208-209.
19. Миньковский Г.М. Об учете крупного и особо крупного города при изучении правонарушений среди несовершеннолетних и молодежи //Методологические и методические вопросы изучения и профилактики преступности в крупных городах. М., 1979.
20. Методика изучения территориальных различий преступности и их причию Методическое пособие. /Отв. Ред. А.Ию. Долгова. М., 1989.
21. Горяинов К.К. Региональные различия показателей преступности //Повышение эффективности деятельности органов внутренних дел с учетом территориальных особенностей преступности. М., 1983.

22. Кондратюк Л.В. Преступность в сельской местности и некоторые проблемы ее предупреждение // проблемы преступности в городах и сельской местности и пути совершенствования предупредительной деятельности органов внутренних делю Сб. науч. М., 1986.
23. Забарянский Г.И. Криминологическая классификация регионов Российской Федерации // Вестник Московского университета. Серия 11. Право. 1993. №2, с.42-51.
24. Герцензон А.А. Введение в советскую криминологию. М., 1965.
25. Сахаров А.Б. Умышленные убийства (криминологические исследования) // Региональная преступность: материалы конференции. Вильнюс, 1978.
26. Миньковский Г.М. Ориентация и цели криминологических исследований // Вопросы борьбы с преступностью. М, 1977. Вып. 17, с. 26.
27. Сахаров А.Б. Опыт изучения влияния социальных условий на территориальные различия преступности // Социологические исследования, 1977. №1.
28. Вопросы борьбы с преступностью. М., 1988. Вып. 46, с. 160-166.
29. Алекперов Х.Д. Расулов Р.И. Статистика преступности в Азербайджанской ССР. Баку, 1990.
30. Исмаилов И.А. Преступность и уголовная политика. Баку, 1990.
31. Караев Т.Э. Проблемы борьбы с преступностью в Азербайджанской Республике. Баку, 1992.
32. Алекперов Х. Феномен преступности на эксклавной территории Азербайджана (постановка проблемы) // «Актуальные проблемы криминологического исследования региональной преступности». Материалы международной научно-практической конференции. Баку, 2014.
33. Rəhimov İ.M., Həsənov E.H., Abdullayev Y.S. Cinayətkarlıq və kibernetika. Bakı, 1995.
34. "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2014, s. 9-21.
35. Səməndərov F.Y. Kriminologiya. Ümumi hissə. Bakı, 2003.
36. Zahidov B. Regional cinayətkarlığın səciyyəvi xüsusiyyətləri. // "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2014, s. 2-63.

ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ РЕГИОНАЛЬНОГО (ГЕОГРАФИЧЕСКОГО) НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЙ ПРЕСТУПЛЕНИЙ В КРИМИНОЛОГИИ

Н.Т. Алиев

Статья исследует такие направления как регионально-географическое изучение формирования и развития преступности в криминологической науке с историко-криминологической точки зрения. Начиная с XVIII века до наших дней в Соединенных Штатах, России, Франции, Италии, Латвии, Грузии и в других странах, где были проведены научно-практические исследования в направлении регионального криминологического анализа. Предоставлена информация об исследованиях, проведенных в Азербайджане в этой области с 90-х годов XX века, отмечены взгляды и позиции И. Исмайлова, Х. Алекперова. И. Рагимова, И. Захидова и других ученых-правоведов о роли и значении регионального криминологического анализа в борьбе с преступностью.

THE FORMATION AND DEVELOPMENT OF REGIONAL (GEOGRAPHICAL) CRIME INVESTIGATION RESEARCH AREA IN CRIMINOLOGY

N.T. Aliyev

İn the article, the formation and development of regional and geographical research directions of the science of criminology are investigated from the historical-criminological point of view. Starting from the 18th century to the present day scientific and practical researches in the field of

regional-criminological investigation of crime are analized in the USA, Russia, France, Italy, Latvia, Georgia and other countries. The information is given about the research conducted in this area since the 90s of the twentieth century in Azerbaijan. It has also been mentioned about the opinions and positions of İ. İsmayilov, H. Alekperov, I. Ragimov. B. Zahidov and other legal scholars about the role and importance of regional criminological investigation in the fight against crime.

Milli Aviasiya Akademiyasının yeni çap məhsulları!

1. Kriminalistika" fənninin tədrisinə dair metodik vəsait.
A.E.Qasımov. Bakı, MAA-nın Poliqrafiya Mərkəzi, 2014. - 112 səh.

Ünvanımız: AZ 1045 Bakı ş.
Mərdəkan pr.30
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.
E-mail hasanov@naa.edu.az

AZƏRBAYCAN RESPUBLİKASININ CM-DƏ ANANIN YENİ DOĞDUĞU UŞAĞI QƏSDƏN ÖLDÜRMƏSİ CİNAYƏTİNƏ GÖRƏ MƏSULİYYƏT: ANLAYIŞI, TÖVSİFİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

N.K. Əliyev

Milli Aviasiya Akademiyası

Məqalədə Azərbaycan Respublikası CM-nin 121-ci maddəsində nəzərdə tutulmuş ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinin hüquqi təhlili aparılmaqla anlayışı, obyektiv və subyektiv əlamətləri, tövsifi ilə bağlı çətinliklər müəyyən olunur. Bəzi xarici dövlətlərin cinayət qanunvericiliyində bəhs olunan cinayətin normativ tənzimlənməsinə nəzər yetirilir və CM-nin 121-ci maddəsinin yeni redaksiya layihəsi təqdim olunur.

Açar sözlər: qəsdən adam öldürmə, yüngülləşdirici hallarla qəsdən adam öldürmə, yeni doğulmuş uşaq, insan həyatı, doğuş vaxtı, doğuşdan dərhal sonra, cinayət qanunvericiliyi, cinayət məsuliyyətinin differensiasiyası.

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş CM-nin Xüsusi hissəsinin "Şəxsiyyət əleyhinə olan cinayətlər" adlanan VIII bölməsinə daxil olan 18-ci fəsildə həyat və sağlamlıq əleyhinə olan cinayətlər nəzərdə tutulmuşdur. CM-nin bu fəslinə daxil olan 120-125, 135-ci maddələrdə təsbit olunmuş həyat əleyhinə olan cinayətlər bilavasitə insan həyatının təhlükəsizliyinə qəsd edən ictimai təhlükəli əməllərdir. Həmin əməllər içərisində ən təhlükəlisi isə qəsdən adam öldürmə cinayətləri sayılır. Qəsdən adam öldürmə cinayətlərini üç qrup üzrə təsnif etmək olar:

1) ağırlaşdırıcı və yüngülləşdirici hallar olmadan qəsdən adam öldürmə – sadə qəsdən adam öldürmə (CM-nin 120.1-ci maddəsi);

2) ağırlaşdırıcı hallarla qəsdən adam öldürmə (CM-nin 120.2-ci maddəsi);

3) yüngülləşdirici hallarla qəsdən adam öldürmə (CM-nin 121-123, 135-ci maddələri).

Azərbaycan Respublikası CM-nin 121-ci maddəsində nəzərdə tutulmuş ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayəti yüngülləşdirici hallarla törədilən qəsdən adam öldürmə əməllərinin bir növü sayılır. CM-də həmin maddə aşağıdakı məzmunda müəyyən edilmişdir: «Ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

İlk olaraq maddənin dispozisiyasında əksini tapan «öldürmə» ifadəsinə diqqət yetirək və bəri başdan qeyd edək ki, Azərbaycan Respublikasının qüvvədə olan CM-nin həyat əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan normalarında təqsirin formasından (qəsdən və ya ehtiyatsızlıqdan) asılı olmayaraq insanın həyatdan məhrum edilməsi və ya ölümünə səbəb olma əməlləri «adam öldürmə» kimi ifadə olunmuşdur. Rusiya Federasiyasının (RF) hazırda qüvvədə olan 1996-cı il tarixli CM-ni çıxmaq şərti ilə əvvəlki bütün Cinayət qanunlarında, Azərbaycan Respublikasının isə hazırda qüvvədə olan CM-si də daxil olmaqla bütün cinayət qanunlarında həyat əleyhinə olan cinayətlərdə «öldürmə» ifadəsindən istifadə olunmuşdur. Nəzəriyyədə bu məsələyə münasibət birmənalı olmamışdır. Bəziləri hesab etmişdir ki, ictimai hüquqi düşüncə təkcə qəsdən deyil, ehtiyatsızdıqdan da digər şəxsin ölümünə səbəb olmanı «adam öldürmə» kimi qəbul edir (11, s. 31), bəziləri isə adam öldürmənin ehtiyatsızlıqdan deyil, yalnız qəsdən törədilməsinin mümkün olduğunu göstərmişlər (27, s. 38). Hesab edirik ki, «adam öldürmə» ifadəsi etimoloji nöqteyi-nəzərdən digər şəxsin həyatdan ehtiyatsızlıqdan deyil, qəsdən məhrum edilməsi mənasını verir və bu səbəbdən CM-nin 124-cü maddəsinin «Ehtiyatsızlıqdan adam öldürmə» adlandırılması düzgün deyildir, həmin maddənin «Ehtiyatsızlıqdan digər şəxsin ölümünə səbəb olma» kimi adlandırılması daha düzgün olar. Eyni zamanda CM-nin 121-ci maddəsində nəzərdə tutulmuş cinayətin qəsdən törədilən cinayət olduğunu nəzərə alaraq, həmin maddədə «öldürmə» ifadəsindən istifadə olunmasını düzgün sayırıq.

Bəzi müəlliflər RF-nın hazırda qüvvədə olan CM-də də «adam öldürmənin» mövcud anlayışı ilə tam razı olmadıqlarını göstərirlər. Məsələn, M.A.Tryasoumova görə qəsdən adam

öldürmənin qanunvericilik anlayışına əməlin «hüquqazidd və ictimai təhlükəli olması» əlamətləri də daxil edilməlidir. Müəllif mövqeyini zorakı ölümün bəzi hallarda hüquqauyğun xarakterli olduğunu və cinayət sayılmaması ilə əsaslandırmağa çalışmış və buna misal olaraq ölüm cəzasının icraya yönəldilməsi, bədbəxt hadisə hallarını göstərmişdir (17, s. 15). Yeri gəlmişkən qeyd edək ki, milli hüquq ədəbiyyatımızda da qəsdən adam öldürmənin qanunvericilik anlayışının «digər şəxsi *qanunsuz olaraq* (kursiv mənə məxsusdur – N.Ə.) qəsdən həyatdan məhrum etmə» məzmununda formulə edilməsi ilə bağlı təklif irəli sürülmüşdür (5, s. 374).

Öz növbəmizdə insanın hüquqauyğun şəkildə həyatdan qəsdən məhrum edilməsinin digər hallarını da göstərə bilərik: zəruri müdafiə, son zərurət, əsaslı risq zamanı adam öldürmə əməlləri və s. Eyni zamanda qeyd edirik ki, CM-nin bəzi maddələrinin adında və (və ya) dispozisiyasında həqiqətən əməlin hüquqazidd şəkildə törədilməsini ifadə edən «qanunsuz» sözündən bilavasitə istifadə olunmuşdur (məsələn, CM-nin 136, 137, 138, 141, 145, 146 və s. maddələri). Lakin nəzərə almalıyıq ki, CM-nin qeyd edilən bu normaları ya blanket xarakterlidir, ya da onlarda əks olunmuş cinayətlərin reallıqda qanunauyğun şəkildə törədilməsi hallarına tez-tez rast gəlmək mümkündür. Məsələn, həkimin 12 həftəliyinədək hamiləliyi olan qadını abort etməsi və ya məhkəmənin cinayət törətmiş şəxs barəsində azadlıqdan məhrum etmə cəzası təyin etməsi. Hər iki əməl yalnız qanunsuz törədildikdə cinayət sayıla bilər. Eyni zamanda onu da qeyd etməyi vacib sayırıq ki, cinayət-hüquqi normaların qurulmasına bu cür mövqedən yanaşma CM-nin Xüsusi hissəsində əksini tapmış cinayətlərin əksəriyyətinə sanki qanunsuzluq (və ya hüquqazidlik) əlamətlərinin xas olmaması barədə yanlış təəssürat yarada bilər. Halbuki CM-də bu məsələ öz həllini tapmışdır: CM-nin 14.1-ci maddəsinə əsasən bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır. Deməli, əməlin cinayət kimi tanınmasının şərtlərindən biri də onun qeyri-hüquqilik (qanunsuz olması) əlamətinə malik olmasıdır. CM-də cinayətin qadağan olunmuş əməl kimi səciyyələndirilməsi onun hüquqazidliyini (qanunsuzluğunu) ifadə edir.

CM-nin 14.1-ci maddəsinə əsasən cinayətin digər zəruri əlaməti onun ictimai təhlükəliliyidir. İctimai təhlükəlilik əməlin obyektiv xüsusiyyəti olmaqla ictimai münasibətlərə ziyan yetirməni əks etdirir. Əməlin qanunsuz olması (qadağan olunması) isə ictimai təhlükəliliyin hüquqi ifadəsi sayılır. Bir sözlə, ictimai təhlükəlilik və hüquqazidlik bütün cinayətlərə xas olan zəruri əlamətlərdir. Təsadüfi deyildir ki, tövsif zamanı CM-nin Xüsusi hissəsində nəzərdə tutulmuş əməlin əlamətləri ilə Ümumi hissədə cinayətin müəyyən edilmiş ümumi əlamətləri, cinayət məsuliyyətinin, cinayət məsuliyyətindən və cəzadan azad etmənin əsasları bir-biri ilə qarşılaşdırılır. Digər tərəfdən, əgər M.A.Tryasoumovun və ya N.Xudiyevin mövqelərini qəbul etmiş olsaq, onda CM-nin Xüsusi hissəsinin bütün normalarında həmin əlamətlərin əks olunması mövqeyinə haqq qazandırmalı olacağıq ki, bu da qanunvericilik texnikasının tələbləri nöqteyi-nəzərindən düzgün deyildir. Qeyd edilənlərə əsasən biz CM-də adam öldürmənin ümumi anlayışını müəyyən edən 120.1-ci maddənin dispozisiyasında əməlin qanunsuz və ictimai təhlükəli olması əlamətlərinin göstərilməsinə ehtiyac duymuruq.

Respublikamızda ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayəti bir-sıra sosial-psixoloji səbəblərlə əlaqələndirilir və hesab edilir ki, belə cinayətlər çox vaxt nikahdankənar münasibətlərdən hamilə olan qadınlar tərəfindən törədilir. Çünki belə əməllər Azərbaycan xalqının mentalitetinə, milli adət və ənənələrinə uyğun deyildir. Faktiki münasibətdən uşaq doğan ana adətən ictimai rəyin tənəsindən, habelə həyatının təhlükə altına alınmasından qorxaraq dünyaya gətirdiyi övladını qətlə yetirir (3, s.287; 6, s.71). Nəzəriyyədə ananın yeni doğduğu uşağı qəsdən öldürməsinin imtiyazlı cinayət tərkiblərinə aid edilməsinə qarşı çıxan mövqelərin az olmadığını qeyd etmək lazımdır. Məsələn, N.İ.Zaqorodnikov hesab etmişdir ki, bəhs edilən əmələ görə müstəqil cinayət-hüquqi normanın yaradılması həmin əməli alçaq, tamah və digər antiictimai motivlə, bəzən isə xüsusi amansızlıqla törədən şəxslər üçün imtiyazlı şərait yaradacaqdır (11, s. 165). S.V.Borodin isə hesab etmişdir ki, yeni doğduğu uşağını öldürən anaların heç də hamısı doğuş vaxtı psixikaya təsir edən ağır şəraitlə üzləşmədiklərindən, bu növ əməllərin bütünlüklə və əvvəlcədən yüngülləşdirici hallarda törədilən qəsdən adam öldürmə cinayətlərinə aid edilməsi

düzgün deyildir (9, s. 8). Biz həmin fikirlərdə həqiqət payının az olmadığını və müəyyən səviyyədə nəzərə alınmasının zəruri olduğunu düşünürük və bu haqda aşağıda göstərəcəyik.

Digər növ adam öldürmə cinayətlərində olduğu kimi ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinin də obyektini insan həyatının mühafizəsinə yönələn ictimai münasibətlər təşkil edir. Cinayətin ictimai təhlükəliliyi məhz insanın qəsdən həyatdan məhrum edilməsinə yönəlməsində ifadə olunur. Ədəbiyyatda bəzən ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinin obyekti qismində insanın, yoxsa şəxsiyyətin çıxış etməsi ilə bağlı müzakirələrin aparılmasına rast gəlinir. Bu müzakirələrin əsasında bir qayda olaraq yeni doğulmuşun hələ şəxsiyyət kimi tam formalaşmaması ilə bağlı müddəalar dayanır. Digər tərəfdən, CM-nin 121-ci maddəsinin də daxil olduğu «Həyat və sağlamlıq əleyhinə olan cinayətlər» fəsli «Şəxsiyyət əleyhinə olan cinayətlər» adlanan VIII bölmədə yerləşir. Ədəbiyyatda göstərilmişdir ki, insan bioloji varlıq kimi deyil, sosial varlıq kimi şəxsiyyət ola bilir. İnsan təbii-ictimai anlayış olduğu halda, şəxsiyyət sosial anlayışdır. Şəxsiyyət insanın fiziki mövcudluğu ilə deyil, müəyyən ictimai keyfiyyətləri ilə əlaqəlidir. Şəxsiyyət – cəmiyyətlə qarşılıqlı münasibətlər prosesində müəyyən keyfiyyətlərin məcmusunu əldə edən insandır (11, s. 29-30).

Fikrimizcə, insanın şəxsiyyət olaraq təbii, yoxsa ictimai varlıq olması məsələsi fəlsəfə üçün mühüm mövzu olsa da, cinayət hüququ üçün elə də əhəmiyyətli deyildir. Çünki, cinayət qanunu cinsindən, əmlak, sosial vəziyyətindən, fiziki və mənəvi keyfiyyətlərindən, o cümlədən yaşından: ahıl və ya yeni doğulmuş olmasından asılı olmayaraq hər bir insanın həyatını mühafizə altına alır. Ədəbiyyatda haqlı olaraq göstərilmişdir ki, insanın şəxsiyyətinin ictimai münasibətlərin elementi və ya cinayətkar qəsdin predmeti qismində xarakterizə olunması onun həm fiziki şəxs, həm də ictimai münasibətlərin daşıyıcısı qismində rolunu aşağı salır. Cəmiyyətin yeni üzvünün doğulması ilə cəmiyyətdə yeni ictimai münasibətlər yaranır: yeni doğulmuş uşaq müəyyən hüquqlar əldə edir, valideynlərin, habelə dövlətin uşağın tərbiyəsi, müdafiəsi ilə bağlı öhdəliyi yaranır və s. (17, s. 31-32).

Ananın yeni doğduğu uşağını qəsdən öldürməsi cinayətinin düzgün tövsifi üçün insan həyatının başlancığı və sonu haqqında müəyyən olunmuş məlumatlara malik olmaq lazımdır. Adətən insan həyatının başlanğıcı fizioloji doğuşun başlanğıcı hesab olunur. Təcrübədə ana bətnindən bəzən əvvəlcə dölün başının deyil, ayaqlarının və ya digər hissələrinin çıxması hallarına rast gəlinir. Bəzən ana bətnindən uşağın başının və bütöv bədəninin tam çıxması eyni vaxtda olmur, onlar arasında qısa müddətli olsa da, müəyyən vaxt keçir ki, həmin mərhələdə onun döl, yoxsa uşaq adlandırılması suallar yaradır. Məhkəmə təbabətinin müddəalarına əsasən doğulmamış, ana bətnindən ayrılmamış döl uşaq sayılmır. Hamilə qadın doğuş vaxtı dölün onun bətnindən artıq çıxmış olan başını sıxaraq öldürürsə, əməli necə: qəsdən adam öldürmə, yoxsa qanunsuz abort etmə kimi tövsif olunmalıdır? Burada ölümə məruz qalan obyektin döl, yoxsa uşaq kimi sayılması məsələsi tövsifdə çətinliklər yaradır.

CM-nin 121-ci maddəsində cinayətin törədilmə vaxtı əks etdirilmişdir: ana yeni doğduğu uşağını ya doğuş vaxtı, ya da doğuşdan dərhal sonra öldürməlidir. N.V.Lısak hesab etmişdir ki, insan həyatı göbək ciyəsinin kəsilməsindən və ciftin ayrılmasından asılı olmayaraq uşağın ana bətnindən tam ayrılması və orqanizmində nəfəs alma və digər həyat əlamətlərinin (ürək döyüntüsü, göbək ciyəsinin nəbzi və s.) olması anından başlanır (13, s.42). N.V.Lısakın mövqeyi ilə razılaşdıqda ana bətnindən tam ayrılmamış (göbək ciyəsi kəsilməmiş, nəfəs almağa başlamamış) və həyat əlamətləri müəyyən edilməmiş uşağın (dölün) öldürülməsi əməllərinin tövsifində problemlərin yaranması qaçılmaz olacaqdır. Belə ki, CM-nin 121-ci maddəsində döl deyil, yeni doğulmuş uşaq mühafizə altına alınmışdır. Həmin maddədə «doğuş vaxtı» ifadəsindən əlavə «doğuşdan dərhal sonra» ifadəsindən istifadə olunması da belə nəticəyə gəlməyə əsas verir ki, «doğuş vaxtı» ifadəsi eyni zamanda ana bətnindən tam ayrılmamış dölün öldürülməsini (məhv edilməsini) nəzərdə tutur.

Oxşar mövqeyə milli hüquq ədəbiyyatımızda da rast gəlinir. Belə ki, Azərbaycan Respublikasının CM-nin kommentariyasında göstərilmişdir ki, doğuş vaxtı - doğuş prosesinin başlaması ilə uşağın ana bətnindən ayrıldığı momentə qədər olan vaxtı əhatə edir (3, s.287).

F.Y.Səməndərov düzgün olaraq göstərmişdir ki, doğuş prosesinin başlanması insan həyatının faktiki başlanması anını müəyyən edir. Ananın uşağı doğuş vaxtı öldürməsi onun doğum prosesində, hələ uşaq ana bətnindən tam kənarlaşana, tənəffüs almağa başlayana qədər, uşağın həyatının müstəqil funksional fəaliyyətə başlayana qədər öldürülməsini nəzərdə tutur. Belə vəziyyətdə ananın hərəkətləri hamiləliyin pozulmasına doğru deyil, doğulmaqda olan uşağın həyatdan məhrum elilməsinə yönəlir (6, s. 71-72). Odur ki, hamilə qadının doğuş vaxtı uşağın (dölün) onun bətnindən artıq çıxmış olan başını sıxaraq öldürməsi əməlinin qanunsuz abort olmaması mübahisəsizdir. Qüvvədə olan CM-nə əsasən bu əməlin 121-ci maddə ilə tövsif olunması düzgündür.

Ümumiyyətlə, bu məsələdə üstün mövqe dölün ananın doğuş yollarından keçməsi prosesinin qurtardığı, ana bətnindən tam ayrıldığı və ilk nəfəs almağa başlaması anından uşaq sayılması mövqeyidir. «Yeni doğulmuş uşaq» dedikdə, ana bətnindən tam ayrılmış və bətndən kənarda müstəqil mövcud olan uşaq anlaşılır. Fikrimizcə, dünyada ən ali və əvəzedilməz nemət olan insan həyatına layiqli münasibət olmalıdır və Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 121-ci maddəsində ananın yeni doğduğu uşağı təkcə doğuşdan dərhal sonra deyil, həm də doğuş vaxtı, yəni doğuş prosesində öldürməsi düzgün olaraq həmin maddə ilə cinayət məsuliyyətini yaradan hal kimi təsbit olunmuşdur.

Sovet hakimiyyəti dövründə müəyyən olunmuş qaydalara əsasən hamiləliyin 22 həftəliyinəcən doğulan uşaq diri doğulma deyil, düşük sayılırdı. Azərbaycan Respublikasında vəziyyət indi də belədir. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən 22 həftəlik 500 qramla doğulan uşaqlar "diri doğulan uşaq" kimi qəbul edilməlidir. Hazırda Azərbaycanda bu meyara keçid üçün tədbirlər görülür. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin hazırladığı 2013 - 2018-ci illəri əhadə edən "Ana və uşaqların sağlamlığının mühafizəsi üzrə Dövlət Proqramı"na əsasən yeni meyarlara keçid üçün işlər aparılır. Bu, neonatal yardım göstərən müəssisələrin hamısında 500-600 qram çəkisi olan, 22-ci həftədə doğulan uşaqlara qulluq üçün aparatların quraşdırılmasını nəzərdə tutur (1). Azərbaycan Respublikasının «Əhalinin sağlamlığının qorunması haqqında» 1997-ci il 26 iyun tarixli 360-IQ nömrəli Qanununun 30-cu maddəsinə əsasən hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır. Hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər. Tibbi göstərişlərə əsasən və qadının razılığı olduqda hamiləlik müddətindən asılı olmayaraq, süni surətdə pozula bilər (4). Beləliklə, qanunvericilik hamiləliyin 22 həftəliyinədək üstünlüyü anaya verirsə, bundan sonrakı müddətdə isə üstünlüyü dölə - gələcək uşağa verir.

M.A.Tryasoumov normal şərtlər daxilində hamiləliyin 28 həftəliyində uşağın real və sağlam doğulması ilə bağlı hər hansı problemin olmamasını nəzərə alaraq, yeni doğulmuş uşağın həyatının cinayət-hüquqi mühafizəsinin fizioloji doğuşun başlanğıcından deyil, hamiləliyin 28 həftəliyindən başlanılmasını, RF CM-nin 106-cı maddəsində «doğuş vaxtı dölün məhv edilməsi» ifadəsindən istifadə olunmasını məqsədəuyğun hesab etmiş və həmin maddənin «Hamilə qadın tərəfindən dölün salınması, öldürülməsi və ya ananın yeni doğduğu uşağını öldürməsi» məzmununda adlandırılmasını, maddənin dispozisiyasından «ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra öldürməsi» ifadəsinin «hamilə qadın tərəfindən doğuş vaxtı dölün salınması və ya öldürülməsi və ya ananın yeni doğduğu uşağını doğuşdan sonra öldürməsi» ilə əvəz olunmasını təklif etmişdir (17, s. 42, 46, 49).

M.A.Tryasoumovun təklifi maraqlı olsa da, fikrimizcə, aşağıdakılara görə kifayət qədər əsaslı deyildir: 1) ananın yeni doğduğu uşağı doğuş vaxtı qəsdən öldürməsi əlamətinin maddənin dispozisiyasından çıxarılması düzgün deyildir, çünki bəhs edilən cinayət üçün daha çox bu əlamət xarakterikdir; 2) qanunverici maddənin dispozisiyasında ananın yeni doğduğu uşağı doğuşdan *dərhal sonra* (kursiv mənə məxsusdur –N.Ə) qəsdən öldürməsi əlamətini əbəs yerə təsbit etməmişdir. "Dərhal sonra» əlamətinin olmaması əməlin CM-nin başqa bir maddəsi ilə, müvafiq hallardan asılı olaraq ya 120.1, ya da 120.2-ci maddəsi ilə tövsif olunmasına əsas verəcəkdir; 3) müəllifin təklifi qəbul edilsə, qanunsuz abort etmə cinayətinin dispozisiyasına yenidən baxmaq lazım olacaqdır (qanunla sosial göstərişlər üzrə hamiləliyin 22 həftəliyədək olan müddətə

pozulmasının mümkün olduğu nəzərə alınmalıdır). Lakin müəllif bu məsələlərə öz münasibətini bildirməmişdir.

Nəzəriyyə və məhkəmə təcrübəsi CM-nin 121-ci maddəsinin imtiyazlı cinayət tərkibinə aid edilməsini əsas etibarı ilə subyektin həmin cinayəti xüsusi psixofizioloji vəziyyətdə törətməsi ilə bağlayır. Xüsusi psixofiziki vəziyyət zaman meyarı ilə ölçülən əlamətdir. Ona görə də subyektdə xüsusi psixofiziki vəziyyətin başlanğıcı və sonunun müəyyən edilməsi əhəmiyyət kəsb edir. Məhkəmə təcrübəsində həmin müddət adətən 1 günə qədər olan müddət ilə məhdudlaşdırılır. M.A.Tryasoumov ananın xüsusi psixofiziki vəziyyətinin qurtarması anını, onun yeni doğduğu uşağına baxması ilə bağlı fəal fəaliyyətə (uşağa süd verməsi, çimizdirməsi) başlaması ilə əlaqələndirmişdir. Müəllifin bu mövqeyi ilə razıyıq ki, hamilə qadınların şüur və psixikasına doğuş prosesinin təsiri fərqli olduğundan, bu vəziyyətin konkret müddət ilə məhdudlaşdırılması düzgün deyildir və hər bir konkret hal üçün fərdi müəyyən edilməlidir (17, s.55). Müəllif həmçinin göstərmişdir ki, anada psixotravma şəraiti və psixopozulma vəziyyəti təkcə doğuşdan sonrakı ilk günlərdə deyil, həm də uşağın yeni doğulmuş sayıldığı bütün müddət ərzində yarana bilər (17, s.56). Müəllifin bu mövqeyi ilə isə razılaşmırıq və CM-nin 121-ci maddəsinin dispozisiyasının məzmununa əsasən (burada «doğuş vaxtı və ya doğuşdan dərhal sonra» ifadələri məqsədli surətdə istifadə olunmuşdur) hesab edirik ki, hamilə qadında xüsusi psixofiziki vəziyyət yalnız doğuş prosesi zamanı və ya doğuşdan dərhal sonra yarandıqda məsuliyyət həmin maddə ilə həll edilə bilər.

Azərbaycan Respublikasının 1960-cı il CM-dən fərqli olaraq RF-nın 1960-cı il CM-də ananın yeni doğduğu uşağı qəsdən öldürməsi əməlinə görə müstəqil cinayət-hüquqi normada məsuliyyət nəzərdə tutulmamışdı, RSFSR-in həmin cinayət qanununa əsasən bu növ əməl müvafiq hallardan asılı olaraq ya sadə qəsdən adam öldürmə, ya da ağırlaşdırıcı hallarla törədilən qəsdən adam öldürmə cinayəti kimi tövsif olunmuşdur. RF-nın hazırda qüvvədə olan 1996-cı il tarixli CM-də isə ananın yeni doğduğu uşağı qəsdən öldürməsi əməli yüngülləşdirici hallarda törədilən qəsdən adam öldürmə cinayəti kimi müstəqil cinayət-hüquqi normada (106-cı maddə) nəzərdə tutulmuşdur. Sirr deyil ki, Azərbaycan Respublikasının qüvvədə olan CM-nin hazırlanmasında RF-nın 1996-cı il tarixli CM-dən nümunə kimi istifadə olunduğundan, hər iki Məcəllə, demək olar ki, eyni məzmundadır. Fərqli məzmuna, dispozisiyaya və ya sanksiyaya malik normaların sayı azlıq təşkil edir. Belə normalardan biri də ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinə görə məsuliyyət nəzərdə tutan normadır. RF CM-nin 106-cı maddəsində ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinin 4 halı təsbit olunmuşdur: 1) ananın yeni doğduğu uşağı doğuş vaxtı qəsdən öldürməsi; 2) ananın yeni doğduğu uşağı doğuşdan dərhal sonra qəsdən öldürməsi; 3) ananın yeni doğduğu uşağı psixotravma şəraitində qəsdən öldürməsi; 4) ananın yeni doğduğu uşağı anlaqlılığı aradan qaldırmayan psixi pozulma vəziyyətində qəsdən öldürməsi (24). RF CM-dən fərqli olaraq Azərbaycan Respublikası CM-nin 121-ci maddəsində sonuncu iki hal nəzərdə tutulmamışdır.

R.A. Bazarov RF CM-nin 106-cı maddəsinə əsaslanaraq göstərmişdir ki, uşağı doğan qadın müəyyən zaman fasiləsindən sonra da psixotravma şəraitinə və ya psixi pozulma vəziyyətinə düşüb yeni doğduğu uşağını öldürə bilər. Odur ki, belə əməlin qəsdən adam öldürmə cinayəti kimi tövsif olunmamasına dair qanunvericinin mövqeyi düzgündür (8, s.44). Bu məsələdə biz milli qanunvericiliyimizin mövqeyini daha düzgün sayırıq. Fikrimizcə, RF CM-nin 106-cı maddəsinin təsiri altına düşən əməllərin dairəsi kifayət qədər əsas olmadan genişləndirilmişdir. Ananın doğuş prosesinin qurtarmasından müəyyən müddət sonra (məsələn, bir neçə gün, bir həftə və s.) doğmuş olduğu uşağını öldürməsi artıq onun doğuş prosesi ilə əlaqədar yaranan psixofizioloji vəziyyəti ilə bağlı olmayıb fərqli motivlərlə şərtlənir (məsələn, ağır maddi həyat şəraiti və ya əlavə yük, qayğı çəkmək istəməməsi və s.). Əlbəttə, biz burada ananın bilavasitə doğmuş olduğu uşaq ilə də bağlı problemlərinin yarana biləcəyini istisna etmirik (məsələn, nikahdan kənar əlaqədən doğduğu uşağının nə öz valideynləri, nə də uşağın atası tərəfindən qəbul edilməməsi). Lakin bu məqam ananın CM-nin 121-ci maddəsi ilə məsuliyyətə cəlb olunmasına əsas vermir və verməli də deyildir. Ananın yeni doğduğu uşağını qeyd etdiyimiz motivlər üzündən öldürməsi halları CM-nin 120-ci maddəsi ilə tövsif olunmalıdır. Bu zaman CM-nin 59-cu maddəsinin təqsirkara ədalətli cəza təyin

etməyə imkan verdiyi nəzərə alınmalıdır. Yeni doğduğu uşağını qəsdən öldürən ananın CM-nin 121-ci maddəsi ilə məsuliyyətinin yaranmasına o zaman haqq qazandırmaq olar ki, anada xüsusi psixofizioloji vəziyyət ya doğuş vaxtı, ya da doğuşdan dərhal sonra yaranmış olsun.

CM-nin 121-ci maddəsində nəzərdə tutulmuş cinayət həm birbaşa, həm də dolayı qəsdlə törədilə bilər. CM-nin 20.2-ci maddəsinə əsasən cinayətin subyekti xüsusi olmaqla 16 yaşı tamam olmuş, anlaqlı qadındır. Deməli, 14 yaşa çatmış, lakin 16 yaşı tamam olmamış ana yeni doğduğu uşağını doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürdükdə, cinayətin subyekti əlamətinə cavab vermədiyinə görə CM-nin 121-ci maddəsi ilə məsuliyyətə cəlb edilə bilməz. Bəs onda törədilmiş bu ictimai təhlükəli əməl necə qiymətləndirilməlidir? Fikrimizcə, qüvvədə olan CM-nə görə həmin əməli sadə qəsdən adam öldürməyə görə məsuliyyət nəzərdə tutan 120.1-ci maddə ilə də tövsif etmək olmaz. Çünki CM-nin 17.4-cü maddəsinə əsasən bu Məcəllənin Xüsusi hissəsində həm ümumi, həm də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur. Beləliklə, CM-nin Xüsusi hissəsində eyni əmələ görə imtiyazlı tərkibin nəzərdə tutulması həmin əmələ görə müəyyən olunmuş ümumi normanın tətbiqini istisna edir. Digər tərəfdən, 16 yaşa çatmış və ya daha çox yaşı olan şəxsin bu əməli törətməsi zamanı məsuliyyəti CM-nin 121-ci maddəsi ilə həll olunduğu halda, 16 yaşa çatmamış, lakin 14 yaşı tamam olmuş şəxsin eyni əməli törətməsinə görə CM-nin 120.1-ci maddəsi ilə məsuliyyətə cəlb edilməsi ədalətsiz sayılmalıdır. S.F.Milyukov bundan çıxış yolu olaraq bu əmələ görə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinin 16-dan 14-ə endirilməsini təklif etmişdir (14, s. 218). Biz müəllifin bu təklifi ilə razılaşırıq və hesab edirik ki, qüvvədə olan CM-nin normaları qeyd olunan cinayəti müxtəlif yaşda törətmiş şəxslərin məsuliyyətinin fərqləndirilməsinə imkan verir.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin təbabətdə tətbiqi ilə həllini tapan problemlərdən biri də sonsuzluq sayılır. Müasir dövrdə ekstrakorporal metodlarla hamiləliliyi keçirə bilməyən qadınların ana olmaq imkanları qanuniləşdirilmişdir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 46.4-cü maddəsinə əsasən öz aralarında nikahda olan və süni mayalanma və ya embrionun implantasiyasının tətbiqi barədə yazılı razılığı olan valideynlərin həmin metodlar nəticəsində uşağı olduqda, uşağı doğan qadının (surroqat ananın) razılığı ilə doğum haqqında şəhadətnamədə onlar uşağın valideynləri kimi qeydə alınırlar. Uşağın bioloji valideyni olan qadın «surroqat» qadın vasitəsilə ana olmaq imkanını qazanır. «Surroqat» ana uşağın bioloji valideyni olmasa da, hamiləliklə əlaqədar fizioloji, psixoloji prosesi öz orqanizmində keçirir. Ona görə də özgə uşağını bətnində daşıyan ana da CM-nin 121-ci maddəsinin subyektidir. Uşağın bioloji valideyni olan ana isə uşağı doğmadığından, hamiləlik və doğuşla bağlı fizioloji və psixoloji dəyişikliklərə məruz qalmadığından bu cinayətin subyekti sayılmır.

Ananın yeni doğduğu uşağını qəsdən öldürməsi cinayətində anadan başqa iştirak edən şəxslərin əməllərinin tövsifi məsələsi sadə deyildir. Qüvvədə olan CM-nin iştirakçılıqla bağlı normalarının təhlili ilə belə nəticəyə gəlmək olar ki, əgər cinayətin törədilməsində iştirak edən bütün şəxslər xüsusi subyektdirlərsə, onların əməli cinayətin tövsifinin ümumi qaydaları ilə tövsif olunur. Cinayətin törədilməsində xüsusi subyekt ilə xüsusi subyekt olmayan, lakin ümumi subyekt əlamətlərinə malik olan şəxslər də iştirak etdikləri halda, başqa sözlə, əməldə xüsusi subyektlər ilə ümumi subyektlərin iştirakçılığı mövcud olduqda, iştirakçıların məsuliyyəti CM-nin 33.4-cü maddəsində nəzərdə tutulmuş qaydada həll olunmalıdır. CM-nin 33.4-cü maddəsinə əsasən CM-nin Xüsusi hissəsinin müvafiq maddəsi ilə cinayətin xüsusi subyekti olmayan və həmin maddə ilə nəzərdə tutulmuş cinayətin törədilməsində iştirak edən şəxs, həmin cinayətə görə onun təşkilatçısı, təhrikçisi və köməkçisi qismində məsuliyyətə cəlb olunur. Oxşar müddəa RF CM-nin 34-cü maddəsinin 4-cü hissəsində də təsbit olunmuşdur. B.Voljenkin həmin normanın əleyhinə çıxaraq göstərmişdir: «Qanunvericiliyin bu müddəası mütləq olmayıb iştirakçılığın xüsusi subyekt tərəfindən törədilmiş bütün hallarına istisnasız olaraq tətbiq edilə bilməz. Cinayət hüququnda belə müddəaların təsbit edilməsinin məqsədəuyğunluğuna əsaslı şübhələr vardır» (10, s. 5).

Vaxtilə N.S.Taqansev ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətində iştirakçılığın mümkünlüyünü istisna etmişdir (16, s. 363). Bu mövqedə olan digər müəlliflər də olmuşdur (18, s.

47). Ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətində iştirakçılığın üç variantda təzahür edə biləcəyini düşünürük: 1) yeni doğulmuşun həyatdan məhrum edilməsi prosesində anadan başqa digər şəxslər də bilavasitə iştirak edirlər; 2) yeni doğulmuşun həyatdan məhrum edilməsi prosesində anadan başqa digər şəxslər təşkilatçı, təhrikçi və ya köməkçi qismində iştirak edirlər; 3) yeni doğulmuşun həyatdan məhrum edilməsi prosesində başqa şəxslər icraçı qismində iştirak edir, ana isə təşkilatçı, təhrikçi və ya köməkçi qismində iştirak edir. Fikrimizcə, bu cinayətdə iştirakçılığın tövsifi zamanı iştirakçıların əməli hansı motivlə törətmələrinin müəyyən edilməsinin çox mühüm əhəmiyyəti vardır.

Hüquq ədəbiyyatında bu cinayətdə iştirakçılığın tövsifi ilə bağlı fərqli mövqelər vardır. Bəziləri bu cinayətdə iştirakçılığın mümkünlüyünü inkar edir (12, s.18), bəziləri isə iştirakçıların əməllərini qəsdən adam öldürmənin yüngülləşdirici hal sayılmayan növündə iştirakçılıq kimi tövsif olunmasını təklif edir və bu zaman əməlin təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adam öldürmə əlaməti ilə tövsif olunmasına diqqət yetirilməsini tövsiyə edirlər (10, s.14). A.İ. Raroq hesab etmişdir ki, anadan başqa bu cinayətdə iştirak edən digər şəxslərin əməli qəsdən adam öldürmə əməlində iştirakçılıq sayılmalıdır. Müəllifə görə yeni doğulmuş uşaq köməksiz vəziyyətdə olduğundan, ananın yeni doğduğu uşağı qəsdən öldürməsində birgə icraçıların, təşkilatçıların və köməkçilərin əməlləri qəsdən adam öldürmənin təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə ağırlaşdırıcı əlaməti ilə tövsif olunmalıdır (15, s.180).

R.N. Astapov ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətində iştirakçılığın tövsifi zamanı aşağıdakılara diqqət yetirməyi lazım bilmişdir: 1) yeni doğulmuşun anası olmayan şəxs ana ilə birlikdə uşağı öldürdükdə, onun əməli CM-nin 120.2.1 və 120.2.9-cu maddələri ilə (maddələri Azərbaycan Respublikası CM-nə uyğun yazırıq – N.Ə.), ananın əməli isə CM-nin 121-ci maddəsi ilə tövsif olunmalıdır; 2) bu cinayətin subyekti olmayan şəxs onun törədilməsində təşkilatçı, təhrikçi və ya köməkçi qismində iştirak etdikdə, onun əməli CM-nin 32-ci maddəsinə istinad edilməklə 120.2.9-cu maddə ilə, ananın əməli isə CM-nin 121-ci maddəsi ilə tövsif olunmalıdır; 3) yeni doğulmuşun anası CM-nin 121-ci maddəsi ilə nəzərdə tutulan cinayətin icraçısı və ya birgə icraçısı olmadıqda, onun əməli CM-nin 32-ci maddəsinə istinad edilməklə həmin maddə ilə, icraçının əməli isə CM-nin 120.2.9-cu maddəsi ilə tövsif olunmalıdır (7, s. 167-168).

M.A. Tryasoumov bu cinayətdə iştirak edən təşkilatçıların, təhrikçilərin və köməkçilərin əməlinin CM-nin 32-ci maddəsinə istinad edilməklə 121-ci maddə ilə tövsif olunmasının daha düzgün mövqe olduğunu qeyd etmişdir. Lakin müəllif bir tərəfdən CM-nin 33.4-cü maddəsinin buna mane olduğunu, digər tərəfdən, cinayətin subyektinin – yeni doğulmuşun anasının psixo-fizioloji xüsusiyyətləri ilə əlaqədar 121-ci maddənin imtiyazlı cinayət tərkiblərinə aid olduğunu nəzərə alaraq, həmin maddədə «eyni əməlin yeni doğulmuşun anası ilə birlikdə törədilməsi – on beş il müddətinədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır» məzmununda ikinci hissəsinin yaradılmasını təklif etmişdir. O, mövqeyini belə əsaslandırmışdır: 1) təklif CM-də xüsusi subyektli cinayətlərdə iştirakçıların məsuliyyətini nəzərdə tutan 33.4-cü maddəyə zidd deyildir, çünki burada yeni doğulmuş uşağı ana ilə birlikdə qəsdən həyatdan məhrum etmə prosesində bilavasitə iştirak edən şəxslərin məsuliyyəti nəzərdə tutulur; 2) yeni doğduğu uşağını qəsdən öldürən ana üçün müəyyən olunmuş imtiyazlı məsuliyyət cinayətin digər birgə icraçılarına şamil edilməyəcək, çünki maddəyə əlavə olunmuş hissədə onlar üçün daha ağır məsuliyyət nəzərdə tutulur; 3) cinayətdə iştirak edən digər şəxslərin əməllərinin CM-nin 32-ci maddəsinə istinad edilməklə müvafiq hissə üzrə tövsif olunmasına imkan verəcəkdir (17, s. 135, 139).

Biz M.A. Tryasoumovun mövqeyi ilə razılaşmırıq. Belə ki, qanunverici ananın yeni doğduğu uşağı qəsdən öldürməsi əməlini formulə edərkən qadının doğuş vaxtı və ya ondan dərhal sonra baş verə bilən xüsusi psixo-fiziki vəziyyətini və ya ona təsir edə bilən müxtəlif psixoloji amilləri nəzərə almış və bu səbəbdən həmin cinayətə görə məsuliyyəti yüngülləşdirmişdir. Ananın yeni doğduğu uşağı qəsdən öldürməsinə görə, qəsdən adam öldürmə cinayəti ilə müqayisədə xeyli dərəcədə yüngül cəzanın müəyyən olunması, onda doğuş vaxtı və ya doğuşdan dərhal sonra yaranan spesifik psixofizioloji vəziyyət, yaxud anlaqlılığı istisna etməyən psixi pozulma ilə şərtlənir. Bu amillər müstəsna olaraq uşağı doğan anaya xas olduğundan cinayətin digər iştirakçılarının

əməllərinin tövsifinə təsir göstərməli deyildir. Ona görə də ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətində iştirak edən təşkilatçıların, təhrikçilərin və köməkçilərin əməlləri CM-nin 121-ci maddəsi ilə tövsif oluna bilməz. Fikrimizcə, ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, ananın yeni doğduğu uşağı qəsdən öldürməsi əməlinin imtiyazlı qəsdən adam öldürmə əməllərinə aid edilməsini şərtləndirən hallar bu cinayətin subyektinin şəxsi xüsusiyyətləri ilə bağlı olduğundan, həmin cinayətin başqa iştirakçılarına aid edilə bilməz, digər iştirakçıların əməli qəsdən adam öldürməyə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələr ilə tövsif olunmalıdır (12, s.17).

A.İ. Raroq cinayətin xüsusi subyekti olmayan, lakin həmin cinayətin törədilməsində bilavasitə iştirak edən şəxslərin əməlinin təşkilatçı, təhrikçi, köməkçi kimi deyil, icraçı qismində tövsif edilməli olduğunu göstərmişdir. Lakin RF CM-nin 34-cü maddəsinin 4-cü hissəsinin (Azərbaycan Respublikası CM-nin 33.4-cü maddəsi – N.Ə.) belə tövsifə imkan vermədiyini nəzərə alaraq CM-nin 33-cü maddəsinin 2-ci hissəsində (Azərbaycan Respublikası CM-nin 32.2-ci maddəsi – N.Ə.) icraçıya verilmiş anlayışdan birgə icraçılıq ifadəsinin, CM-nin 34-cü maddəsindən 2-ci hissənin çıxarılmasını, CM-nin 34-cü maddəsinin 3-cü hissəsinə (Azərbaycan Respublikası CM-nin 33.3-cü maddəsi – N.Ə.) icraçının da əlavə edilməsini, CM-nin 34-cü maddəsinin 4-cü hissəsində (Azərbaycan Respublikası CM-nin 33.4-cü maddəsi – N.Ə.) cinayətin xüsusi subyekti olmayan və həmin maddə ilə nəzərdə tutulan cinayətin törədilməsində iştirak edən şəxsin cinayətin icraçısı qismində məsuliyyətə cəlb edilməsinin mümkünlüyü müddəasının qeyd olunmasını təklif etmişdir (15, s.217).

Fikrimizcə, A.İ.Raroqun mövqeyi də kifayət qədər əsaslı deyildir. Müəllif cinayətin icraçısının da məsuliyyətə cəlb edilməsi zamanı CM-nin 32-ci maddəsinə istinad edilməsini təklif edir. Bu isə əməlin tövsifində onilliklər ərzində formalaşmış müsbət təcrübədən əsassız olaraq imtina etmək deməkdir. Digər tərəfdən, müəllifin təklifində birgə icraçılıq termini yalnız xüsusi subyektli cinayətdə onunla belə əlamətə malik olmayan ümumi subyektin iştirak etdiyi hallara müncər edilir. Halbuki birgə icraçılıq həm xüsusi, həm də ümumi subyektli cinayətlərdə mümkündür.

Milli müəlliflərimizdən N. Xudiyev Azərbaycan Respublikası CM-nin 121-ci maddəsinin qüvvədə olan redaksiyasının təcrübədə tətbiqi zamanı müəyyən çətinliklər yaratdığını qeyd etmiş və onun aşağıdakı redaksiyada yeni layihəsini təklif etmişdir: «Maddə 121.1. Ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan bilavasitə sonra bu prosesin təsiri altında olduğu müddət ərzində qəsdən öldürməsi –üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

121.2. eyni əməllər:

121.2.1. əvvəlcədən düşünülmüş niyyətlə törədildikdə;

121.2.2. iki və daha çox (əkiz) uşaqlar barəsində törədildikdə;

121.2.3. təkrar törədildikdə – üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır» (5, s. 378-379).

Biz müəllifin ananın yeni doğduğu uşağını öldürməsini doğuş prosesi ilə əlaqələndirməsi mövqeyini düzgün saymaqla yanaşı, təklifinin qüsursuz olmadığını qeyd edirik. Ən əvvəl ona görə ki, «doğuş prosesi» ifadəsi əlahiddə əməlin imtiyazlılığını şərtləndirmir, əməlin imtiyazlığını şərtləndirən amil doğuş prosesi ilə əlaqədar qadında yaranan xüsusi psixofizioloji vəziyyətdir. Digər tərəfdən, əvvəlcədən düşünülmüş niyyət ilə yeni doğduğu uşağını öldürən ananın əməlinin CM-nin 121-ci maddəsi ilə deyil, 120-ci maddəsi ilə tövsif olunması daha düzgündür.

CM-nin 121-ci maddəsinin yeni, uğurlu redaksiya layihəsini verməyimiz üçün bəzi xarici dövlətlərin cinayət qanunvericiliyinə diqqət yetirməyimiz faydalı olacaqdır. İsveçrə konfederasiyasının hazırda da qüvvədə olan 21 dekabr 1937-ci il tarixli CM-nin 116-cı maddəsinə əsasən ana doğuş zamanı və ya doğuş prosesinin təsiri altında olduğu vaxtda uşağını öldürdükdə həbsxanada saxlama ilə cəzalandırılır. CM-nin 36-cı maddəsinə əsasən həbsxanada saxlama cəzasının minimal müddəti üç gündür. Qanunda bu cəza növünün müddəti birmənalı müəyyən edilmədikdə, onun maksimal müddəti üç il təşkil edir (26).

Polşa Respublikası CM-nin 149-cu maddəsi «Ananın doğuş vaxtı bu prosesin təsiri altında uşağını öldürməsi» adlanır (22). Həmin maddədə «yeni doğulmuş uşaq» ifadəsindən istifadə

olunmamışdır və biz bunu düzgün saymırıq. Çünki maddənin təfsiri ananın doğuş prosesinin təsiri altında istənilən uşağını, o cümlədən yeni doğmadığı uşağını öldürməsinin də bu maddə üzrə məsuliyyət yaratması barədə nəticəyə gəlməyə əsas verir. Bu isə bəhs edilən əməlin imtiyazlı cinayət tərkibi kimi müəyyən olunması şərtlərinə ziddir. Amma maddənin məzmununda olan «doğuş prosesinin təsiri altında» ifadəsi uğurludur və bundan istifadə olunması məqsədəuyğundur.

Türkiyə Cəza Qanununun (1 mart 1926-cı ildə qəbul olunmuş və dəyişikliklərlə hazırda da qüvvədə olan) 453-cü maddəsində ananın yeni doğduğu uşağı qəsdən öldürməsi üstündə dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir (25). Göründüyü kimi, qanunda ananın yeni doğduğu uşağını doğuş vaxtı və ya doğuşdan dərhal sonra öldürməsi ilə bağlı göstəriş nəzərdə tutulmamışdır. Digər tərəfdən, Türkiyə Cəza Qanununda sadə qəsdən adam öldürmə üstündə 24 ildən 30 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasının müəyyən edildiyini (448-ci maddə) nəzərə aldıqda, 453-cü maddənin sanksiyasının onunla müqayisədə elə də ağır olmadığı aydın olur.

Gürcüstan Respublikasının 22 iyul 1999-cu il tarixli qanunu ilə qəbul olunmuş və 1 iyun 2000-ci ildən qüvvədə olan CM-də bəhs olunan əmələ görə məsuliyyət nəzərdə tutan 112-ci maddə respublikamızın CM-nin 121-ci maddəsi ilə eyni məzmundadır. Fərq yalnız sanksiyadadır: Azərbaycan Respublikası CM-nin 121-ci maddəsinin sanksiyası üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutursa, Gürcüstan Respublikası CM-də həmin əmələ görə beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən olunmuşdur (19).

Özbəkistan Respublikasının 22 sentyabr 1994-cü il tarixli qanunu ilə təsdiq olunmuş CM-nin 99-cu maddəsi ilə Azərbaycan Respublikası CM-nin 121-ci maddəsi (dispozsiya və sanksiya) tam eyni məzmundadır (23). Qazaxıstan Respublikasının 16 iyul 1997-ci il tarixli CM-nin 97-ci maddəsinə əsasən ananın yeni doğduğu uşağını doğuş vaxtı və ya doğuşdan sonra anlaqlılığı istisna etməyən psixotravma situasiyası və ya psixi pozulma vəziyyətində qəsdən öldürməsi dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (21).

Belarus Respublikasının 9 iyul 1999-cu il tarixli qanunu ilə təsdiq olunmuş CM-nin 140-cı maddəsinə əsasən ananın doğuş vaxtı və ya doğuşdan bilavasitə sonra yeni doğduğu uşağını doğuş ilə əlaqədar yaranan psixotravma situasiyası şəraitində qəsdən öldürməsi beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya həmin müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (20).

Ananın yeni doğduğu uşağını qəsdən öldürməsi cinayəti ilə bağlı həm elmi-nəzəri müddəaların, həm də xarici ölkələrin cinayət qanunvericiliyinin müqayisəli təhlili Azərbaycan Respublikası CM-nin 121-ci maddəsinin qüsursuz olmadığını, maddənin həm dispozisiyası, həm də sanksiyasına dəyişikliklərin edilməsinin zəruri olduğunu göstərir. Belə ki, müasir dövrdə ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayətinin yüngülləşdirici hallarda törədilən qəsdən adam öldürmə cinayətlərinə aid edilməsinin əsasında başlıca olaraq uşağı doğan qadının sağlamlıq vəziyyəti, onun patoloji, psixofizioloji halı, hamiləlik və doğuş prosesi ilə əlaqədar şüurunda və psixikasında dəyişikliklərin, pozulmaların baş verməsi dayanır. Adi vaxtlardan fərqli olaraq qadın hamiləlik zamanı, xüsusən doğuş prosesi vaxtı həqiqətən öz hərəkətlərinə tam hesabat verə bilmək, onları idarə etmək iqtidarında olmur və bu məqam onun həmin vaxtda törətmş olduğu əməllərinə görə məsuliyyətinin yüngülləşdirilməsinin əsası kimi çıxış edə bilər. Qeyd edilənlərə yekun vuraraq Azərbaycan Respublikası CM-nin 121-ci maddəsinin aşağıdakı redaksiyada yeni layihəsini təqdim edirik:

«Maddə 121. Ananın yeni doğduğu uşağını qəsdən öldürməsi

Ananın hamiləlik və ya doğuş prosesi ilə əlaqədar yaranan psixotravma və ya psixikanın pozulması vəziyyətində yeni doğduğu uşağını doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi – üç ilədək müddətə islah işləri və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

ƏDƏBİYYAT

1. Azərbaycanda erkən doğulan 500 qramlıq uşaqlara müasir aparatlarla qulluq ediləcək / http://az.trend.az/news/society/2102294.html.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. «Hüquq ədəbiyyatı», Bakı, 2013, 348 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / h.e.d., prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Diqesta, 2012, 1104 s.
4. Əhalinin sağlamlığının qorunması haqqında qanun. http://e-qanun.az/files/framework/data/4/c
5. Xudiyev N. Sadə qəsdən adam öldürmə) cinayətlərinin digər qəsdən adam öldürmə tərkiblərindən fərqləndirilməsi // «Hüquq elmlərinin prioritet istiqamətləri və hüquqşunas alimlərin qarşısında duran vəzifələr» mövzusunda elmi-praktik konfransın materialları. Bakı: «Elm», 2010. -388 s.
6. Səməndərov F.Y. Şəxsiyyət əleyhinə edilən cinayətlər (tövsif məsələləri). Dərs vəsaiti. Bakı. BDU, 1997, 192 s.
7. Астапов Р.Н. Ответственность за убийства, совершенные в соучастии. Дис. … канд. юрид. наук. Рязань, 2007, 181 с.
8. Базаров Р.А. Уголовно-правовая характеристика преступлений против жизни. Челябинск: ЮУКИ, 1998, 221 с.
9. Бородин С.В. Ответственность за убийство: квалификация и наказания по Российскому праву. М., «Юрист», 1994, 216 с.
10. Волженкин Б. Некоторые проблемы соучастия в преступлениях, совершаемых специальными субъектами // Уголовное право. 2000. № 1. С. 12-16.
11. Загородников Н.И. Преступления против жизни по советскому уголовному праву. Госюриздат, М., 1961, 276 с.
12. Лукичев О.В. Уголовно-правовая и криминологическая характеристика детоубийства: Дис. … канд. юрид. наук. СПб., 1997, 179 с.
13. Лысак Н.В. Ответственность за убийство в состоянии сильного душевного волнения. Дисс. … канд. юрид. наук. М., 1995, 192 с.
14. Милюков С.Ф. Российское уголовное законодательство: Опыт критического анализа. Монография /Санкт-Петербургский институт внешнеэкономических связей, экономики и права; Общество "Знание" Санкт-Петербурга и Ленинградской обл. СПб., 2000, 279 с.
15. Рарог А.И. Настольная книга судьи по квалификации преступлений: практ. пособие. – М.: ТК Велби, Изд-во Проспект, 2007, 224 с.
16. Русское уголовное право. Лекции: Часть общая: В 2-х т. Т. 1 / Таганцев Н.С.; Сост. и отв. ред.: Загородников Н.И. - М.: Наука, 1994, 380 с.
17. Трясоумов М.А.Уголовно-правовые и криминологические проблемы борьбы с убийствами матерью новорожденного ребенка. Дисс. канд. юрид. наук. Екатеринбург, 2000, 221 с.
18. Уголовная ответственность за детоубийство. Учебное пособие / Глухарева Л.И.; Отв. ред.: Гельфер М.А. - М.: РИО ВЮЗИ, 1984, 57 с.
19. Уголовный кодекс Грузии. СПб.: Изд-во Юридический центр Пресс», 2002, 409 с.
20. Уголовный Кодекс Республики Беларусь / http://www.tamby.info/kodeks/yk.htm.
21. Уголовный Кодекс Республики Казахстан / http://prokuror.gov.kz/rus/o-prokurature/normativnye-pravovye-akty/ugolovnyy-kodeks-rk
22. Уголовный кодекс Республики Польша / http://www.polski.pro/_ld/4/492.pdf.
23. Уголовный кодекс Республики Узбекистан. СПб.: Изд-во Юридический центр Пресс», 2001, 338 с.
24. Уголовный кодекс Российской Федерации. – М.: ТК Вельби, У 26 2004, 176 с.
25. Уголовный кодекс Турции. СПб.: Изд-во Юридический центр Пресс», 2003, 374 с.
26. Уголовный кодекс Швейцарии / Пер. с нем.- М.: ИКД «Зерцало-М», 2001, 138 с.
27. Шаргородский М.Д. Избранные работы по уголовному праву. СПб.: Юридический центр Пресс, 2003, 434 с.

ОТВЕТСТВЕННОСТЬ ЗА УБИЙСТВО МАТЕРЬЮ НОВОРОЖДЕННОГО РЕБЕНКА В УК АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: ПОНЯТИЕ, ВОПРОСЫ КВАЛИФИКАЦИИ И УСОВЕРШЕНСТВОВАНИЯ

Н.К. Алиев

В статье на основе правового анализа преступления убийства матерью новорожденного ребенка, предусмотренного в ст. 121 УК Азербайджанской Республики, определяются объективные и субъективные признаки, выявляются проблемы, возникающие при квалификации этого преступления. Рассматривается нормативное регулирование этого деяния в уголовных законодательствах ряда зарубежных стран, и представляется новый редакционный проект статьи 121 УК АР.

Ключевые слова: *умышленное убийство, убийство при смягчающих обстоятельствах, новорожденный ребенок, жизнь человека, во время родов, сразу же после родов, уголовное законодательство, дифференциация уголовной ответственности.*

RESPONSIBILITY FOR KILLING BY A MOTHER OF HER NEWBORN IN THE CRIMINAL CODE OF REPUBLIC OF AZERBAIJAN : THE CONCEPT, CLASSIFICATION AND IMPROVEMENT ISSUES

N.K. Aliyev

The article determines concept, objective and subjective signs, difficulties arising in the field of classification of killing by a mother of her newborn crime by legal analysis of Article 121 of the Criminal Code of Republic of Azerbaijan. As well as explores the statutory regulation of the crime in some foreign countries' criminal law and offers a new edition of the Article 121 of CC.

Keywords: *murder, murder under mitigating circumstances, newborn, human life, birth time, after birth, criminal legislation, differentiation of criminal liability.*

Внимание!

По вопросам подписки или приобретения отдельных номеров журнала «Elmi Məcmuələr» обращайтесь в нашу редакцию.

Наш адрес:
AZ.1045, г.Баку,
Мардаканский пр. 30
Национальная Академия Авиации
Тел. 497-26-00, доп.21-85
E-mail hasanov@naa.edu.az

YERLİ ƏHƏMİYYƏTLİ MƏSƏLƏLƏRİN TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN AVROPA XARTİYASINA UYĞUNLAŞDIRILMASININ TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ

R.R. İbrahimov

Azərbaycan Respublikası Prezidentiyanında DİA-nın dissertantı

Məqalədə Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasının əsas prinsipləri nəzərə alınmaqla Azəbaycan Respublikasında yerli özünüidarəyə dair qanunvericiliyin yaranması sahəsində görülən işlərə qiymət verilir, beynəlxalq hüququn normalarının yerli əhəmiyyətli məsələlərin tənzimlənməsinə təsiri qeyd olunur.

Məqalədə bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin hüquqi tənzimlənməsi məsələlərinin Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına uyğunlaşdırılması istiqamətində elmi-praktiki əhəmiyyətli təkliflər əsaslandırılır.

Yerli özünüidarənin bələdiyyələr tərəfindən həyata keçirilməsinə dair müddəa ilk dəfə müstəqil Azəbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında təsbit edilmişdir. 90-cı illərin ikinci yarısında dövlət əmlakının özəlləşdirilməsi, torpaq islahatlarının aparılması yerli hakimiyyət islahatlarını sürətləndirdi və bələdiyyə quruculuğu istiqamətində bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə şərait yaratdı. 1999-cu ildə bələdiyyə hakimiyyətinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun təşkilini təmin edən əsas hüquqi akt-"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu (2 iyul 1999-cu il) qəbul edildi. Azərbaycan Respublikasının 2001-ci ildə Avropa Şurasına qəbul olunması və 2002-ci ildə yerli özünüidarəetmə haqqında Avropa Xartiyasını imzalaması ilə o, yerli özünüidarə sahəsində beynəlxalq təminatları əldə edə bildi.

Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası ilə təsbit edilmiş yerli özünüidarəetmənin əsas prinsiplərinin reallaşdırılması Azərbaycan Respublikasında yerli özünüidarəetmənin hüquqi əsasının inkişaf etdirilməsi, yerli əhəmiyyətli məsələlərin həlli üzrə bələdiyyələrin fəaliyyətinin səmərəli təşkil edilməsi və yerli işlərin idarə olunmasını təmin edən yeni mükəmməl normativ hüquqi aktların yaradılması sahəsində bir sıra tədbirlər ortaya qoyurdu. 1999-2000-ci illərdə yaradılmış bələdiyyələrin mülkiyyətinə dövlət əmlakının verilməsi, bələdiyyə qulluğunun təşkili, yerli özünüidarənin maliyyə əsaslarının yaradılması, bələdiyyə torpaqlarının istifadə edilməsi, yerli sosial-iqtisadi inkişaf və ekoloji proqramların hazırlanması və yerinə yetirilməsi ilə bağlı çoxsaylı problemlərin həllinin təmin edilməsi məqsədilə yeni qanunlar qəbul edilmişdir. Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası və yerli özünüidarəyə dair qanunvericiliyi yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına uyğun olaraq bələdiyyə quruculuğunun hüquqi əsasını təşkil edən yerli özünüidarənin ən mühüm şərtlərini təsbit edir. Lakin, etiraf etmək lazımdır ki, milli qanunvericilik normalarını tətbiq etməklə bələdiyyələrə dövlət əmlakının verilməsi, bələdiyyə qurumları üzrə yerli əhəmiyyətli məsələlərin siyahılarının tənzimlənməsi, bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi ilə bağlı məsələlərin həlli indiyə qədər təmin olunmamışdır.

Bələdiyyələrin fəaliyyətinin hüquqi mexanizmi qiymətləndirilərkən, hər şeydən əvvəl, yerli özünüidarənin hüquqi bazasının strukturuna diqqət yetirmək lazımdır. Azəbaycan Respublikasında yerli özünüidarənin yaranması prosesinin tənzimlənməsində beynəlxalq hüquq normalarının və xüsusilə, bələdiyyə-hüquq münasibətlərinin tənzimlənməsinə yönəldilmiş Azəbaycan Respublikasının beynəlxalq müqavilələrini qeyd etmək lazımdır. BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş "Ümumdünya insan hüquqları Bəyənnaməsi" (1948-ci il), "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Saziş (1966-cı il), "Əsas insan hüquqları və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası (1950-ci il), "İnsan hüquqları və əsas azadlıqları haqqında" MDB Konvensiyası (1995-ci il) və 15 oktabr 1985-ci ildə Avropa Şurası tərəfindən qəbul olunmuş "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyası bələdiyyə-hüquq münasibət-

lərini tənzimləyən əsas beynəlxaq-hüquqi aktlar olmaqla, postsovet respublikalarının, o cümlədən Azəbaycan Respublikasının bələdiyyə qanunvericiliyinin yaranmasında mühüm rol oynamışlar.

Avropada yerli və regional hakimiyyət orqanlarının daimi Konfransının (hazırki dövrdə Avropa yerli və regional hakimiyyətlər Konqresinin) təşəbbüsü ilə Avropa Şurası tərəfindən hazırlanmış və qəbul edilmiş Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası yerlərdə xalq hakimiyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyən mühüm hüquqi akt və Avropa ölkələrinin o cümlədən 2001-ci ildən Avropa Şurasının üzvlüyünə qəbul olunmuş Azəbaycan Respublikasının yerli özünüidarənin hüquqi tənzimlənməsi sahəsində beynəlxalq müqaviləsidir. Xartiyanın mətninin Azəbaycan Respublikası tərəfindən radifikasiya edilməsi onu yerli özünüidarənin hüquqi əsasının elementi, eləcə də hüquqtətbiqetmə fəaliyyətinin və bələdiyyə aktlarının qanuniliyinin qiymətləndirilməsi meyarı kimi nəzərdən keçirməyə imkan verir.

Azərbaycan Respublikasının yerli özünüidarəyə dair qanunvericiliyinin tərkibinə beynəlxalq hüquqi aktlarla yanaşı Azərbaycan Respublikasının Konstitusiyası, konstitusiya qanunları, qanunları, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, normativ-hüquqi aktları, bələdiyyələrin nizamnamələri, yerli rəy sorğusu və vətəndaşların yığıncaqlarında qəbul edilən qərarlar və sair bələdiyyə hüquq aktları daxildir. Yerli özünüidarəyə dair qanunvericiliyin yaradılmasında və tətbiq edilməsində başlıca məqsəd yaşayış məskənlərində əhalinin əsas həyati tələbatlarının təmin edilməsi sahəsində bələdiyyələrin fəaliyyətinin səmərəliliyini təmin etməkdən ibarətdir. Şübhəsizdir ki, bu vəzifənin yerinə yetirilməsinin şərtlərindən biri tətbiq edilən qanunların beynəlxalq hüquqi aktlara, xüsusilə, Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına uyğun olmasıdır (9, s. 17).

Dissertasiya tədqiqatının məqsədinə uyğun olaraq beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasında yerli əhəmiyyətli məsələlərin hüquqi tənzimlənməsinə təsirini qiymətləndirmək üçün Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının yerli özünüidarəyə dair normalarının ən əvvəl "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasının normalarına uyğunluğunu müəyyən edək.

Avropa Xartiyasının müqəddimə hissəsində Xartiyanı imzalamış Avropa Şurasının üzv-dövlətlərinin məqsədləri ifadə olunur. Müqəddimə yerli özünüidarə oranlarının istənilən demokratik quruluşun əsaslarından birini təşkil etməsi, real hakimiyyətə malik olan yerli özünüidarə orqanlarının səmərəli və eyni zamanda vətəndaşlara yaxın olan idarəetməni təmin etməsi, Avropanın müxtəlif ölkələrində yerli özünüidarənin müdafiəsinin və möhkəmləndirilməsinin demokratiya və hakimiyyətin desentralizasiyası prinsiplərinə əsaslanan Avropanın qurulmasına mühüm töhfə olmasına dair müddəalardan ibarətdir.

Xartiyanın "Yerli özünüidarənin konstitusion və qanunvericilik əsasları" adlanan I hissəsi özündə yerli özünüidarə anlayışı, yerli özünüidarənin səlahiyyət sahəsi, yerli özünüidarə ərazisinin müdafiəsinin təminatları, yerli özünüidarənin özünün daxili inzibati quruluşunu müəyyən etmək hüququ, habelə yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsi, yerli özünüidarə orqanlarının fəaliyyətinin maliyyələşdirilməsi mənbələri, yerli özünüidarə orqanlarının fəaliyyəti üzərində inzibati nəzarət haqqında müddəaları təsbit edən on maddəni birləşdirir.

Выводы. Безусловно, Интернет и прочие цифровые технологии открывают широкие образовательные и коммуникативные возможности для детей по всему миру, но это также подразумевает воспитание у них культуры потребления информационной продукции и высокого уровня ответственности за свое поведение в информационном пространстве. В этом смысле, следует выделить деятельность Национальной экспертной комиссии Украины по вопросам защиты общественной морали и Межведомственной рабочей группы по разработке и внедрению национальной системы обозначений для защиты детей от информации, которая может вредить их здоровью и развитию.

Таким образом, в Украине существует ряд нормативно-правовых актов, направленных на обеспечение информационно-психологической безопасности несовершеннолетних, но, как показывает практика, они не в полном объеме регулируют данные правоотношения. Стремительное развитие информационных технологий, а также уровень их взаимодействия с обществом, требуют создания динамичной законодательной базы, способной чутко реагировать на изменения в медиапространстве.

ЛИТЕРАТУРА

1. Про схвалення Стратегії розвитку інформаційного суспільства в Україні: Розпорядження Кабінету Міністрів України від 15 травня 2013 р. №-86-р // Урядовий кур'єр. – 2013. – №105.
2. Про Основні засади розвитку інформаційного суспільства в Україні на 2007-2015 роки: Закон України від 09.01.2007 № 537-V // Відомості Верховної Ради України. – 2007. – №12. – Ст. 102.
3. Кузьменко А. М. Особливості проблем законодавчого забезпечення інформаційної безпеки держави, суспільства і громадянина в умовах інформаційно-психологічного протиборства / А. М. Кузьменко // Часопис Київського університету права. – 2010. – № 4. – С. 315-319.
4. Гаврищак Л. Інформаційно-психологічна безпека особистості в сучасному світі / Л. Гаврищак // Проблеми гуманітарних наук. Психологія. – 2012. – №29.– С. 100-110.
5. Про охорону дитинства: Закон України від 26.04.2001 № 2402-III //-Відомості Верховної Ради України. – 2001. – №30. – Ст. 142.
6. Фромм Э. Здоровое общество / Эрих Фромм [Электронный ресурс]. – Режим доступа: http://www.litmir.net/br/?b=138684&p=37.
7. Лисенко О. О. Правовий захист суспільства від шкідливої інформації : автореф. дис. ... канд. юрид. наук : 12.00.07 / О. О. Лисенко; Харк. нац. ун-т внутр. справ. – Х., 2011, 20 с.
8. Про схвалення Рекомендацій щодо вікової класифікації інформаційної продукції: Рішення Національної експертної комісії України з питань захисту суспільної моралі №60 від 05.09.2013 [Електронний ресурс]. Режим доступу: http://zakon.nau.ua/doc/?uid=1041.57634.0
9. Міжвідомча робоча група розробила проекти позначок для маркування телевізійного контенту з метою захисту дітей від потенційно шкідливої інформації // ЮрЛіга [Електронний ресурс]. – Режим доступу: http://jurliga.ligazakon. ua/news/2012/11/6/76460.htm.

UKRAYNADA YETKİNLİK YAŞINA ÇATMAYANLARIN İNFORMASİYA-PSİXOLOJİ TƏHLÜKƏSİZLİYİNİN HÜQUQİ TƏMİNATI

İ.O.Quliyev, A.A. Vedenyeva

Məqalə yetkinlik yaşına çatmayanların təsirinə informasiya mühitinə, o cümlədən onların informasiya-psixoloji təhlükəsizliyinə həsr olunmuşdur. İnformasiya-psixoloji təhlükəsizlik dövlət təhlükəsizliyinin tərkib hissəsidir. Məqalədə həmçinin informasiya-psixoloji təhlükəsizliyi sahəsində olan əsas normativ-hüquqi aktlar təhlil olunmuşdur.

LEGAL PROVISION OF INFORMATION-PSYCHOLOGICAL SECURITY OF MINORS IN UKRAINE

I.O.Guliev, A.A. Vedeneva

The article examines the impact of the information environment to minors, as well as their information-psychological security. Information and psychological security is defined as a compo-

nent of national security. In addition, the author analyzes the underlying legislation in the area of information-psychological security of minors.

Keywords: *security, information security, information and psychological security, minors, children.*

Milli Aviasiya Akademiyasının yeni çap məhsulları!

1. Cəza-icra hüququ" fənninin tədrisinə dair metodik vəsait.

A.E.Qasımov. Bakı, MAA-nın Poliqrafiya Mərkəzi, 2014. - 58 səh.

Ünvanımız: AZ 1045, Mərdəkan pr.30
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.
E-mail hasanov@naa.edu.az

CİNAYƏT HÜQUQUNDA SANKSİYALARIN ANLAYIŞI

O.R. Aslanov

Bakı Dövlət Universitet

Məqalədə cinayət hüququnda sanksiyaların anlayışı ilə bağlı araşdırmalar aparılır, onlar haqqında ümumi məlumat verilir. Bundan başqa, məqalədə sanksiyaların anlayışı ilə bağlı hüquq ədəbiyyatlarında səsləndirilən fikirlərə istinad edilməklə yanaşı, həmin fikirlərə müəyyən münasibət də bildirilir.

Açar Sözlər: *hüquq norması, dispozisiya, sanksiya, cəza, cinayət-hüquqi tədbir, ictimai təhlükəlilik.*

Ümumi hüquq nəzəriyyəsində **sanksiya,** ilk əvvəl, hüquq normasının daxili quruluş – struktur ünsürü kimi qəbul edilir. Hüquq norması isə, insanlar arasındakı ictimai münasibətləri nizama salan sosial normalardan sayılır. Norma o vaxt hüquqi sayılır ki, onun pozulmasına görə dövlət məcburetmə tədbirlərinin tətbiqi mümkündür. E.H. Həsənovun fikrincə, müasir hüquqşünaslıqda hüquq norması adı altında dövlət tərəfindən müəyyən edilmiş, yaxud rəsmən tanınmış və onun icbari qüvvəsi ilə təmin edilmiş ictimai münasibətlərin tənzimləyicisinə yönələn və hamı üçün məcburi sayılan ümumi xarakterli davranış qaydası başa düşülür [3, s.69].

Sanksiya da hipotezadan (yəni normanın tətbiqini zəruri edən şərtin mövcud olmasından), dispozisiyadan (müəyyən növ əməlin əlamətlərini nəzərdə tutan normanın hissəsindən) ibarət olan bu hüquq normasının tərkib hissəsi kimi norma daxilində çox mühüm rol oynayır. Belə ki, müəyyən şəraitdə (hipoteza) olan şəxs onun üçün mənfi sayılan nəticələrdən (sanksiya) qaçmaq üçün bu şəraitdə mövcud qüvvədə olan qanunlara (dispozisiya) uyğun fəaliyyət göstərməlidir. Hüquq normasına tətbiq olunacaq bu ümumi formula "hüquq normaları sanksiyasında" göstərilmiş hüquq normalarının dövlət məcburetmə tədbirləri ilə mühafizəsini xüsusilə qeyd etməyə imkan yaradır [12, s.20-21]. Ona görə də sanksiya hüquq normasının zəruri hissəsidir. Onsuz hüquq norması mənasızdır. Məhz sanksiya hüquq normasını digər sosial normalardan fərqləndirən əsas əlamətlərdən birini ifadə etməklə, hüquq normasının dövlət məcburiyyəti ilə təmin olunduğunu göstərir. Bu baxımdan hüquq normasının sanksiyası hüquq və dövlət arasındakı qırılmaz əlaqəni ifadə edir [5, s.214].

Onu da qeyd edək ki, ümumi hüquq nəzəriyyəsində, eləcə də, cinayət hüquq elmində sanksiya və onun anlayışı ətrafında vahid fikir mövcud deyildir. Məsələn, N.D. Durmanov yazır ki, sanksiya dispozisiyada göstərilən sərəncamın yerinə yetirilməməsinə görə meydana gələn (tətbiq edilən) mənfi, zərərli nəticədir [9, s.114]. Biz isə, deyərdik ki, dispozisiya və sanksiya arasında sıx əlaqə mövcuddur ki, bu da onların norma daxilində əlaqələrinin sabitliyini təmin edir və ümumilikdə cinayət hüquq normasını təşkil edir.

M.F. Məlikova göstərir ki, sanksiya termini müxtəlif mənalarda işlədilir. Məsələn, sanksiya konkret dövlət orqanı tərəfindən hər hansı aktın təsdiq edilməsi, ona icazə və hüquqi qüvvə verilməsi mənasında işlədilir. Bu mənada sanksiya termini dövlət tərəfindən nəinki müəyyən edilmiş, həm də sanksiyalaşdırılmış normaların məcmuyu kimi tərif verilməsində istifadə olunur. Normanın bir hissəsi kimi sanksiya termini hüquq norması pozulduqda dövlət tərəfindən müəyyən edilən hüquqi nəticələrin baş verməsi mənasında işlədilir [5, s.214].

O.E.Leystin qənaətinə görə isə, "hüquq normasının sanksiyası" adı altında qanunun hüquq normasının pozucusuna görə tətbiq etdiyi dövlət məcburetmə tədbirləri başa düşülür. Hüquq pozucusuna cəza kimi yönəldilmiş dövlət məcburetmə tədbirləri sanksiyasız hüquqi xarakter daşımayacaqdır [12, s.11-12].

Lakin sanksiya ilə bağlı verdiyi anlayışda müəllifin digər mövqeyi də diqqətimizi çəkir: "Hipoteza, dispozisiya, sanksiya barədə hüquq normasının "tərkib ünsürü" olması haqqında təsəvvürlərlə razılaşmaq olmaz. Belə təsəvvür məntiq qaydalarına ziddir, belə ki, davranış qaydası (norma) davranış qaydalarının məcmusu (dispozisiya), onun tətbiqi şərtləri (hipoteza), onun pozulmasının nəticələri (sanksiya) kimi ifadə oluna bilməz. Norma dispozisiyaya bərabərdir.

Hipoteza və sanksiya isə, "normanın tərkib hissəsi" deyil, onun atributlarıdır. İstənilən hüquq norması sanksiyaya malikdir, lakin bu heç də o demək deyildir ki, sanksiya həmin ayrılıqda götürülmüş normanın tərkibinə daxil edilir [12, s.21]."

Müəllif fikirlərini onunla əsaslandırır ki, "ümumi sanksiyanı" təyin edən Qanunverici hüququn sonrakı inkişafında və təkmilləşdirilməsində nəzərə alır ki, hüququn yeni formaları (dispozisiya) müəyyən sanksiya tərəfindən pozulmaqdan mühafizə edilən norma kompleksinə daxil edilir. Həmçinin, Qanunverici yeni normaların pozulmasına görə məsuliyyətin hər bir ayrıca halında şərt qoymur. Hüquqi əhəmiyyət daşıyan əməllərin törədilməsi qaydalarını müəyyən edən bəzi hüquq normaları isə, şəxslərə tətbiq edilən hər hansı bir sanksiyalarla deyil, dövlət təsiretmə və dövlət məcburetmə tədbirləri ilə mühafizə olunur. Buna görə də biz, istər-istəməz belə nəticəyə gəlirik ki, mövcud hüquq normasını pozuntulardan qoruyan, hər hansı bir dövlət məcburetmə tədbirləri ilə təmin edilən sanksiyanın nə qədər ki, bu və ya başqa norma ilə vasitəli və mürəkkəb əlaqəsi yoxdur, sanksiya hüquq normasının vacib atributu sayılır [12, s.23; 25].

Lakin müəllifin bu mövqeyi ilə razılaşmaq bir az çətindir. Çünki müəllifin fikirlərindən belə çıxır ki, sanksiya göstərilməyən və ya sanksiyaya malik olmayan normativ hüquqi aktların norma və maddələrinin dövlət məcburiyyət tədbirləri ilə təmin edilən qoruyucu, mühafizəedici mexanizmi yoxdur. Və ya nə zamandan sanksiyalar bu tip normativ aktların normalarının atributu, əlaməti sayılır? Fikrimizcə, sanksiya hüquq normasının atributu deyil, hüquq normasının zəruri struktur elementidir və o özündə bir mahiyyət kəsb edir. Bütün istər əxlaq normaları, istərsə də hüquq normaları məcburiyyət tədbirləri ilə təmin edilən sanksiyalarla tətbiq olunur ki, bu sanksiyalar müxtəlif növdə və xarakterdə ola bilər. Bundan başqa, digər sferalarda olan ictimai münasibətlər də həmin sferalara aid olan məcburiyyət tədbirləri ilə mühafizə olunur ki, bunlar da ya lokal normativ aktlarda, ya da normativ hüquqi aktların hüquqi qüvvəsinə görə mövcud olan şaquli iyerarxiyasında yerləşən aktlarda sıralanan tədbirlərdən ibarətdir. Cinayət hüquqi nöqteyi-nəzərdən isə, onu deyə bilərik ki, cinayət hüququ cinayət hüquqi sanksiyalar vasitəsilə bütün müxtəlif və fərqli fəaliyyət sahələrini əhatə edən ictimai münasibətləri ən təhlükəli qəsdlərdən qoruyur. Yəni burada bütün sferaları əhatə edən ictimai münasibətlərin qorunması vəzifəsi sanksiyalar vasitəsilə ön plana çəkilir. Ona görə də, O.E.Leystin sanksiya hüquq normasının atributudur kimi yuxarıda istinad etdiyimiz fikirlərini qəbul olunmaz hesab edirik.

Cinayət hüququnda isə, sanksiyalarla bağlı A.V.Naumov göstərir ki, sanksiya qanunla qadağan edilmiş ictimai təhlükəli hərəkətin xarakter və dərəcəsinə verilən qanunverici qiymətdir [6, s.116].

Bu mövqe ilə qismən razılaşmaq olar. Çünki cinayət hüquq nəzəriyyəsində ümumi qəbul olunmuşdur ki, sanksiya müəyyən növ cinayətə görə cəzanın növünü və həddini nəzərdə tutan hissəsinə deyilir. Ona görə A.V. Naumov sanksiyanın anlayışına verdiyi tərifdə ictimai təhlükəli hərəkətin xarakterini cəzanın növü ilə, ictimai təhlükəli hərəkətin dərəcəsini isə, cəzanın həddi ilə uyğunlaşdırmağa çalışıb. Yəni ictimai təhlükəli hərəkətin xarakteri və cəzanın növü sanksiyanın keyfiyyət tərəfini, ictimai təhlükəli hərəkətin dərəcəsi və cəzanın həddi isə, onun kəmiyyət tərəfini əhatə edir.

Ancaq müəllifin verdiyi bu tərif də qüsurludur. Ona görə ki, axı ictimai münasibətlərə zərbə vuran ictimai təhlükəli əməllər təkcə hərəkətdən ibarət deyil! Bura, həmçinin, ictimai təhlükəli hərəkətsizlik də daxildir. Bildiyimiz kimi, bir sıra cinayətlər mövcuddur ki, onlar hərəkətlə deyil, hərəkətsizliklə törədilir ki, burada – yuxarıda verilən tərifdə ictimai təhlükəli hərəkətsizliyi də qeyd etmək zəruridir.

Yuxarıda qeyd etdik ki, sanksiya müəyyən növ cinayətə görə cəzanın növünü və həddini nəzərdə tutan normanın hissəsinə deyilir. Deməli, cinayət hüquq normasının sanksiyası hər hansı bir hüquqi nəticədən ibarət olmayıb yalnız cəzanın növü və həddi ilə xarakterizə olunur. Onu da qeyd edək ki, cinayət hüquq elmində, eləcə də praktikada **"sanksiya"** və **"cəza"** anlayışları əksərən sinonim anlayışlar kimi işlədilir. Lakin bu anlayışlar məzmunca yaxın olsalar da, mahiyyət etibarilə bir-birindən fərqlənən anlayışlardır. İlk əvvəl, sanksiya mümkün cəza növləri və onların hədlərini müəyyən etdiyi halda, cəza konkret ictimai təhlükəli əməli törədən şəxsə görə tətbiq edilən real

dövlət məcburiyyət təsir tədbiridir. Söyləmək yerinə düşər ki, ictimai münasibətləri kriminal qəsdlərdən qoruyan cinayət hüquqi təsir tədbirləri cəzanın sistemi vasitəsilə reallaşdırılır. Bu mövqedən çıxış edib demək olar ki, ictimai münasibətlərə ziyan vurulduğu və ya cinayət hüquq normasının tələblərinin pozulduğu hallarda şəxsə cinayət cəzası deyil, digər dövlət məcburiyyəti tədbirlərindən biri tətbiq edilsə belə, bu tədbirləri cinayət hüquqi sanksiya hesab etmək olmaz. Məsələn, qüvvədə olan Cinayət Məcəlləsinin 88.1-ci maddəsində göstərilir ki, yetkinlik yaşına çatmayan şəxs ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, məhkəmə həmin şəxslərin Məcəllənin 88.2-ci maddəsində nəzərdə tutulmuş cinayət cəzalarının tətbiq edilmədən islah olunmasını mümkün hesab edərsə, cinayət cəzası sayılmayan tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edə bilər. Yaxud həmin Məcəllənin 93.1-ci maddəsinə əsasən, anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslərə; anlaqlı vəziyyətdə cinayət etsə də, cinayət törətdikdən sonra cəzanın təyin edilməsini və onun icrasını istisna edən psixi xəstəliyə düçar olmuş şəxslərə (məhkəmə hökm çıxaranadək ruhi xəstəliyə tutulmuş və nəticədə öz hərəkətlərini ölçüb-biçmək, idarə etmək imkanından məhrum olmuş şəxslərə); cinayət törətmiş və anlaqlılığı istisna etməyən psixi pozuntu vəziyyətində olan şəxslərə; cinayət törətmiş, alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə məhkəmənin təyinatı ilə tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Belə tədbirlərə digər bir misal kimi əmlakın məcburi və əvəzsiz olaraq dövlət nəfinə alınmasından ibarət olan xüsusi müsadirəni də göstərmək olar. Ancaq xüsusi müsadirə, tibbi və tərbiyəvi xarakterli məcburi tədbirlər dövlət məcburiyyəti ilə xarakterizə olunmasına baxmayaraq, cinayət cəzası sayılmadığından cinayət hüquq normasının sanksiyası hesab edilə bilməz.

Müəlliflərdən V.P. Qəhrəmanov cəza kimi xarakterizə olunan və ya göstərilə bilən, lakin cəza sayılmayan belə tədbirlərlə bağlı düzgün olaraq qeyd etmişdir ki, hər bir cəbr və ya məcburi tədbirə hüquqi mənada cəza kimi baxmaq olmaz. Cəza dedikdə, ayrı-ayrı vətəndaşlar tərəfindən görülən məcburi tədbiri deyil, ancaq dövlətin ictimai təhlükəli hesab etdiyi, cinayət saydığı əməli edən şəxsə qarşı dövlət hakimiyyətinin müəyyən etdiyi qaydada görülən məcburi tədbiri düşünmək lazımdır. Məcburi tədbirlər heç bir hüquqi aktlarla nizama salınmırsa, ona cinayət hüquqi baxımından cəza demək olmaz [4, s.4-5].

Deyə bilərik ki, cəzanın dövlət və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında (müdafiəsində) ifadə olunan sosial təyinatı bir tərəfdən cinayət törədilməsində təqsirli sayılan şəxsə dövlət adından məhkəmə tərəfindən tətbiq edilən tənbeh olub, məhkum üçün müəyyən məhrumiyyətlər yaradılmasından, onun hüquq və azadlıqlarını müəyyən dərəcədə məhdudlaşdırılmasından və məhkumluq yaradılmasından ibarət olan dövlət məcburiyyət tədbiridirsə, digər tərəfdən də arzu olunan faydalı sosial nəticələrin əldə edilməsi üçün dövlət və cəmiyyətin mənafeyi naminə dövlət tərəfindən müəyyənləşdirilən vasitədir.

Ümumiyyətlə, cəzalar sanksiyalarda əks olunur, sanksiyalar vasitəsilə həyata keçirilir. Başqa cür desək, sanksiyalar mümkün təsir tədbirlərini təsvir edir ki, bunlar da cəzalardır. Bununla bağlı Rusiya hüquqşünaslarından L.L. Kruqlikov yazır ki, maddələrin sanksiyaları cinayət növünün dispozisiyasında adı çəkilən qiyməti özündə birləşdirən bu növün və təqsirkarın şəxsiyyətinin modifikasiyasının (dəyişməsinin) müxtəlif halını əhatə edən həqiqətdir. Belə konteksdə güman edilir ki, maddənin sanksiyası həqiqətən də bütövlükdə tipik cəza kimi cinayətkarın və cinayətin növünün tipik xarakteristikasının əksidir [11, s.285].

Bütövlükdə isə, cinayət hüququnda sanksiya **iki mənada** işlədilir:

1) Mümkün təsir tədbirlərinin (cəzanın) növünü və həddini nəzərdə tutan cinayət hüquq normasının struktur elementi kimi;

2) Müəyyən cinayətə görə belə ictimai təhlükəli əməlləri törədənlər üçün tətbiq edilən real təsir tədbirləri (cəza) kimi.

Buradan da sanksiya ilə cəzanın bağlılığı bir daha sübuta yetirilmiş oldu. Çünki sanksiyalarda əks olunmuş cəzanın tətbiq edilməsi ilə baş vermiş hüquq pozuntusu həm sosial gerçəklikdə, həm də ictimai şüurda elə bil ki, ödənilmiş olur. Belə ki, törədilmiş cinayətə görə təyin edilən cəza öz məzmununa cinayət törətməkdə təqsirli olan şəxsin müəyyən maddi və mənəvi

iztirablarına – əmlak maraqlarının məhdudlaşdırılmasına, cəmiyyətdə nüfuzunun aşağı düşməsinə, azadlığının məhdudlaşdırılmasına, ağırlaşdırıcı hallarda isə, ömürlük azadlıqdan məhrum edilməsinə və s.-ə səbəb olur. Buna görə də cəza tətbiqi nəticəsində baş verən məhrumiyyətləri görən insanlar özlərində məsuliyyət hiss edib cinayət törətməkdən çəkinməyə çalışırlar. Elə cəzanın sosial təyinatı da cinayət cəzası hədəsinin reallığından ibarətdir. Ç. Bekkaria hələ XVIII əsrdə yazırdı ki, cəzaların məqsədi insana işgəncə və əzab vermək, artıq törədilmiş cinayəti yox etmək deyildir. Cəzanın məqsədi təqsirkara yenidən cəmiyyətə zərər vurmağa mane olmaq və başqalarını belə işdən çəkindirməkdir. Buna görə, elə cəzalardan istifadə etmək lazımdır ki, törədilmiş cinayətlərlə münasibətdə uyğunluğu saxlamaqla digər adamlara daha güclü və daha uzunmüddətli təsir etsin, cinayətkarın bədəni üçün daha az əzablı olsun [2, s.47].

Cinayət hüququnda sanksiyaların anlayışı ilə bağlı apardığımız araşdırmaya öz tədqiqatlarında sanksiyalara daha çox yer verən müəlliflərdən A.P. Kozlovun sanksiyayaya verdiyi təriflə yekun vurmaq istərdik: Sanksiya cinayət törədən şəxslərə tətbiq edilən, cinayət hüquqi təsir tədbirlərinin formal olaraq obyektiv-subyektiv modelini ifadə edən, müəyyən kəmiyyət-keyfiyyət xarakterli dövlət məcburiyyətini nəzərdə tutan cinayət hüquq normasının hissəsidir [10, s.17].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (2013-cü il 15 yanvaradək olan dəyişiklik və əlavələrlə). "Hüquq ədəbiyyatı" nəşriyyatı. Bakı, 2013, 324 s.
2. Çezare Bekkaria. Cinayətlər və cəzalar haqqında // Hüquqi dövlət və qanun, 2002, № 9, s.44-48.
3. Həsənov E.H. Azərbaycanın dövlət və hüququnun əsasları. Ali məktəb tələbələri üçün dərslik. Bakı, "Azərnəşr", 2009, 528 s..
4. Qəhrəmanov V.P. Sovet cinayət hüququnda cəzanın anlayışı. Bakı, "Azərbaycan Dövlət Universiteti" nəşriyyatı, 1955, 73 s.
5. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, "Maarif" nəşriyyatı, 1979, 300 s.
6. Naumov A.V. Rusiya cinayət hüququ. Ümumi hissə. Mühazirə kursu. Tərcümə edən və elmi redaktor H.S.Qurbanov. Bakı, "Qanun", 1998, 640 s.
7. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı, "Digesta" nəşriyyatı, 2013. 720 s.
8. Vəliyev S.Ə. Cinayət hüququnda cəza və cəza təyinetmə. Bakı, "Elm" nəşriyyatı, 2004, 408s. Дурманов Н.Д. Советский уголовный закон. Москва, издательство Московского университета, 1967, 320 с.
9. Козлов А.П. Уголовно-правовые санкции (проблемы, построения, классификации и измерения). Красноярск, издательство Красноярского университета, 1989, 176 с.
10. Кругликов Л.Л., Васильевский А.В. Дифференциация ответственности в уголовном праве. – СПб.: Издательство "Юридический центр Пресс", 2003.– 300 с.
11. Лейст О.Э. Санкции в советском праве. Москва, Государственное издательство юридической литературы, 1962, 239 с.

ПОНЯТИЕ САНКЦИЙ В УГОЛОВНОМ ПРАВЕ

О. Р. Асланов

В статье исследовано понятие санкций в уголовном праве, даются общие сведения о них. Кроме того, в статье наряду с ссылкой на мысли, озвучиваемые в юридической литературе, также выражается определенное отношение к ним.

Ключевые слова: *правовая норма, диспозиция, санкция, наказание, уголовно-правовая мера, общественная опастность.*

THE CONCEPTION OF SANCTIONS IN CRIME LAW

O. R. Aslanov

In the scientific research work has carried out investigations connected with the sanctions about the crime law and given general information about them. Beside this, in the scientific research work has based on thoughts of law literary connected with the sanctions' conceptions, including has given according thoughts about them.

Key words: *law norms, disposition, sanction, punishment, crime-law measures, social danger.*

Milli Aviasiya Akademiyasının yeni çap məhsulları!

Arif Paşayev, Təyyar Cəfərov
MİKROELEKTRONİKANIN FİZİKİ ƏSASLARI

Ünvanımız: AZ 1045, Bakı ş.
Mərdəkan pr.30
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.
E-mail hasanov@naa.edu.az

HAVADA HƏRƏKƏTİN İDARƏ OLUNMASI

AVİASİYA TƏHLÜKƏSİZLİYİNİ TƏNZİMLƏYƏN BEYNƏLXALQ AVİASİYA REQLAMENTLƏRİNİN HÜQUQİ TƏBİƏTİ

N.T. Nağıyev., H.Ə. Əhmədov

Milli Aviasiya Akademiyası

Hava nəqliyyatında terrorizmlə mübarizənin ümumbəşəri əhəmiyyətə malik olması Çikaqo Konvensiyasına 17 saylı Əlavənin standart və tövsiyyələrinə yenidən baxılması zərurəti yaradır və bu Əlavənin hüquqi təbiətinin, beynəlxalq-hüquqi statusunun araşdırılması elmi maraq doğurur. Təqdim olunan məqalədə müəlliflər tam əhatəli və mükəmməl ekspert analizinə iddia etmədən qeyd edilən məsələləri araşdırmışlar.

Mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyinə təhlükə yaradan qanunsuz müdaxilə aktları, bu növ uçuş aparatlarının istismarına başlanılmasından bir müddət sonra qeydə alınıb. Lakin uzun müddət belə aktlar bəzi istisnalarla aeronaviqasiya avadanlıqlarının xarab edilməsi, təyyarənin hərəkətinə maneələrin yaradılması və s. kimi şərh edilib. Qanunsuz müdaxilə aktlarının ən təhlükəli növü olan və beynəlxalq, milli mübarizə tədbirlərinin qəbul edilməsini tələb edən hava gəmilərinin zəbt edilməsi və qaçırılması nisbətən yeni hadisə hesab edilir. Elə bu səbəbdən də, keçən əsrin 60-cı illərinə qədər bu sahəyə aid olan normalar işlənib hazırlanmamış qalmışdır.

Lakin, hələ 1923-cü ildə mülki aviasiyanın yenicə təşəkkil tapdığı bir dövrdə ingilis alimi və kriminoloqu Bezil Tomson belə fikir irəli sürmüşdü, "pis əllərdə təyyarə qorxulu cinayətin həyata keçirilməsi və cinayətkarın cinayət məsuliyyətinə cəlb edildiyi dövlətdən qaçması üçün istifadə edilə bilər". Yəqin ki, bu cür cinayətlərin tərkibinin müəyyən edilməsi məsələsinin keçən əsrin 20-ci illərində araşdırılması təsadüfi deyil. 1922-ci ildə Almaniyada qəbul edilmiş qanun, həmşinin "hava aparatına bilərəkdən zədə vurulması, onun məhv edilməsi, yararsız və ya etibarsız hala gətirilməsi ilə və ya digər üsullarla maniə yaradılması ilə insanların həyatına təhlükə yaradan" şəxslərin cəzalandırılması üçün tədbirlər müəyyən edirdi.

Buna oxşar müddəaların digər dövlətlərin qanunvericiliyində mövcud olmasına baxmayaraq, qanunverici uzun müddət cinayətin tərkibini "təyyarənin qaçırılması", "hava gəmisinin qanunsuz zəbt edilməsi" və s. kimi müəyyənləşdirmir. Buna görə də, məhkəmələr belə hallarda əlaqəli digər cinayətlərə görə (qanunsuz silah daşımasına, şəxsə zor tətbiq edilməsinə, uçuş qaydalarının pozulmasına, ölkəyə daxil olma və çıxma prosedurlarının pozulmasına görə) cəza tətbiq edirdi.

Uzun müddət ərzində beynəlxalq hüquqda əsas diqqət hava gəmisinin bortunda baş vermiş qanun pozuntularına (oğurluq, narkotiklərin daşınması) qarşı normaların işlənib-hazırlanmasına yönəlmişdi. Belə fəaliyyətin əsas məqsədi bu aktlar üzərində dövlətlərin yurisdiksiyalarının müəyyən edilməsi prinsiplərinin yaradılması idi. Qeyd edilən problem əsasən 1922-ci ildə Beynəlxalq Hüquq Assosasiyasının keçirdiyi 31-ci sessiyasından sonra öyrənilməyə başlandı.

Aviasiya təhlükəsizliyi məsələlərinin beynəlxalq-hüquqi tənzimlənməsi öz başlanğıcını 1963-cü ildə Tokioda qəbul edilmiş «Hava gəmisinin bortunda cinayətlər və bəzi digər hərəkətlər haqqında» Konvensiyadan götürür. Beynalxalq hava hüququnun normalar sisteminin formalaşdırılmasının ilkin mərhələsində aviasiya təhlükəsizliyi ilə əlaqədar müddəalar müzakirə edilmirdi. Buna baxmayaraq, qanunvericilər mülki aviasiyanın əsas hüquqi aktının-1944-cü il Çikaqo Konvensiyasının qəbul edilməsi prosesində hüquq normalarını elə tədbirlə yaratmışdırlar ki, aviasiyanın sonrakı tərəqqisi zamanı bu normalar aktual qalsın, onların məzmununun əhəmiyyəti itməsin və yeni hadisələr baxımından onlardan istifadə edilə bilsin. Belə ki, Çikaqo Konvensiyasının preambulasında yaradılan təşkilatın əsas məqsədi kimi " beynəlxalq mülki aviasiyanın təhlükəsiz və nizama salınmış inkişafının və beynəlxalq hava əlaqələrinin imkanların

bərabərliyi əsasında bərqərar edilməsinin və onların səmərəliliyinin və faydalılığının" zəruriliyi qəbul edilir [1]. Mülki aviasiyanın təhlükəsizliyi altında əvvəlcə yalnız hava gəmilərinin uçuşlarının təhlükəsizliyi başa düşülürdü və bir qədər sonra mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktları ilə əlaqədar olaraq, bu anlayışın yeni tərkib hissəsi-aviasiya təhlükəsizliyi anlayışı müəyyənləşdirildi.

Bir qədər sonra aviasiya təhlükəsizliyi məsələləri «Hava gəmisinin qanunsuz zəbt edilməsi haqqında» (Haaqa 1970-ci il) və «Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz müdaxilələrlə mübarizə haqqında» (Monreal 1971-ci il) Konvensiyalarda öz normativ-hüquqi təsdiqini tapdı. Lakin keçən əsrin 70-ci illərində hadisələrin gedişi dəyişdi. Terror aktlarının intensivliyi artdı. Hava nəqliyyatında terrorizm həddən artıq təcavüzkar və texniki cəhətdən daha mürəkkəb oldu. Qanunsuz müdaxilə aktlarının (QMA) qarşısının alınması və onların həyata keçirilməsində istifadə edilə bilən silahların aşkar edilməsi çox mürəkkəb məsələyə çevrildi. Aviasiya təhlükəsizliyi sahəsində mövcud olan müddəaların, normaların, prosedurların standartlaşdırılmasına və sistemləşdirilməsinə və ümumi rəhbər prinsiplərin yaradılmasına zərurət yarandı. Beynəlxalq Mülki Aviasiya Təşkilatının (BMAT) iki qətnaməsi bu prosesin başlanğıcını qoydu: A17-10 " Təhlükəsizlik üzrə bu Assambleyada qəbul edilmiş tələb və təcrübənin dövlətlər tərəfindən həyata keçirilməsi və belə tələb və təcrübə ilə əlaqədar BMAT-ın sonrakı fəaliyyəti" və A18-10 "Beynəlxalq mülki hava nəqliyyatının təhlükəsizliyinin təmini üzrə əlavə texniki tədbirlər". Beynəlxalq mülki aviasiyanın fəaliyyətinə QMA-na qarşı həyata keçiriləcək tədbirlər tərtib edildi və 1972-ci ildə bu təkliflər müzakirə üçün dövlətlərə göndərildi. Daha sonra dövlətlər tərəfindən edilmiş qeydlər nəzərə alınmaqla qanunsuz müdaxilə üzrə komitə tərəfindən onlara baxıldı. Qəbul edilmiş Konvensiyalara uyğun işlənib-hazırlanmış bu material aviasiya təhlükəsizliyi üzrə vahid sənədin yaradılması üçün əsas rolunu oynadı. Nəticədə, 22 mart 1974-cü ildə Şura Çikaqo Konvensiyasının 54(1), 37 və 38-ci maddələrinin müddəalarına uyğun olaraq 17 saylı Əlavəni qəbul etdi ("Təhlükəsizlik-beynəlxalq mülki aviasiyanın qanunsuz müdaxilə aktlarından müdafiəsi") və 27 fevral 1975-ci ildən tətbiq edilməyə başlandı [2]. Bu əlavə aviasiya təhlükəsizliyi sahəsində əsas tələb və təcrübəni özündə ehtiva etdi.

Beləliklə, hava hüququ sahəsində mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə və aviasiya təhlükəsizliyinin təmini məsələlərini tənzimləyən hüquqi-texniki normaların yaradılması və mükəmməlləşdirilməsi üçün əsas yaradıldı. Lakin mülki aviasiya daima tərəqqi edir və bu da öz növbəsində onun fəaliyyətini tənzimləyən daha yeni hüquqi və texniki tədbirlər sisteminin yaradılmasına, qəbul edilməsinə və səmərəli tətbiqinə səbəb olur. Deməli, mülki aviasiyanın fəaliyyətində aviasiya təhlükəsizliyinin təmininin hüquqi əsaslarının tədqiqi zərurəti yaranır. Aviasiya təhlükəsizliyinin təmini meyarlarının gücləndirilməsi uyğun beynəlxalq-hüquq normalar sisteminin daima elmi analizini və nəticə çıxarılmasını tələb edir.

Keçən əsrin 90-cı illəri QMA-nın sayının azalması aviasiya təhlükəsizliyi məsələlərinə diqqəti zəiflətdi. Bunun nəticəsi olaraq aviasiya təhlükəsizliyi sahəsində yeni normativ-hüquqi aktların qəbulu və onların tətbiq edilməsi məsələsinə münasibət də dəyişdi. 11 sentyabr 2011-ci ildə ABŞ-da baş vermiş terror aktlarındsan sonra isə dünya birliyi bu sahədə mövcud olan problemlərə xüsusi diqqət yetirməyə başladı. Bu hadisədən sonra dünyanın bir çox dövlətləri terrorizmlə mübarizə və mülki aviasiyanın QMA qorunması sahəsində norma yaratmaq fəaliyyətini aktivləşdirdi. ABŞ-da az bir müddətdə yuxarıda qeyd edilən məsələyə aid bir neçə qanun qəbul edildi. Bu hadisə beynəlxalq təşkilatları fəaliyyətə gətirdi və aviasiya təhlükəsizliyinin təmini sahəsində bəzi problemlərin həlli üçün fəaliyyətin formatı müəyyənləşdirildi.

Çikaqo konvensiyasına edilmiş 19 əlavənin hamısı özündə çox böyük instruktiv material daşımasına baxmayaraq, onlar Çikaqo konvensiyasının tərkib hissəsi deyil və hava yerdəyişmələri haqqında 1919-cu il Parij Konvensiyasına əvvəllər edilmiş əlavələrdən fərqli olaraq, bu yeni əlavələri beynəlxalq müqavilə keyfiyyətində qiymətləndirmək olmaz. Bizim təsəvvürlərimizə görə, əlavələrin Çikaqo konvensiyasının tərkib hissəsi olmamasına baxmayaraq, bu əlavələr Çikaqo konvensiyasının ayrılmaz hissələridir. Bu əlavələri, həm müqavilə normalarının, həm də beynəlxalq

təşkilatların qəbul etdiyi qərarların xüsusiyyətlərinə malik olan "hüquq mənbəyinin özünəməxsus qarışıq növü" kimi qəbul etmək olar.

Bəzi rus alimləri, məsələn Q.İ.Tunkin aviasiya reqlamentlərinin hüquqi təbiətini təhlil edərək belə nəticəyə gəlib ki, beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş reqlament "beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş beynəlxalq müqavilə mövqeyindədir. Ancaq bu normaların yerinə yetirilməsinin dövlət üçün məcburi olmasından ötrü, dövlətin iradəsi olmalıdır ki, bu normaları beynəlxalq-hüquqi norma keyfiyyətində tanısın. Nəticə ondan ibarətdir ki, reqlamentlər öz mahiyyətlərinə görə elə beynəlxalq müqavilələrdir" [3].

Bu fikri Y.A.Şibayeva və A.N.Vereşaqin də dəstəkləyirlər. A.N.Vereşaqin hesab edir ki, "problemin mahiyyəti ondan ibarətdir ki, texniki reqlamentlər beynəlxalq müqavilələrin dəyişmiş forması olaraq, beynəlxalq təşkilatın hansısa "qanunu hakimiyyəti" əsasında deyil, hüquqi münasibətləri formalaşdıran iştirakçı dövlətlərin əzminin uyğunlaşdırılması nəticəsində məcburedici qüvvəyə malik olur"[4].

Bu iddia Çikaqo konvensiyasının 90-cı maddəsinin a bəndindən irəli gəlir, belə ki, "əlavənin istənilən variantda dəyişdirilməsi Razılaşan Dövlətlərə göndərildikdən 3 ay və ya Sura tərəfindən qəbul edilmiş daha uzun müddətdən sonra qüvvəyə minir, əgər bu müddət ərzində Razılaşan Dövlətlər öz narazılıqları haqqında Suraya məlumat vermirlərsə".

Lakin müxtəlif səbəblərdən dövlətlər öz narazılıqları haqqında heç də həmişə Suraya məlumat vermirlər. Təcrübə göstərir ki, dövlətlər tərəfindən narazılığın bildirilməməsi konkret reqlamentin tətbiq edilməsinə razılıq kimi qiymətləndirilməməlidir. "Xəbərdarlıq etməyən dövlət" reqlamentin qüvvəyə minməsinə və onun digər dövlətlər tərəfindən tətbiqinə mane olmur", eyni zamanda onun tətbiqi haqqında öz mövqeyini bildirmir. Bununla əlaqədar olaraq, yuxarıda adı çəkilən 90-cı maddəyə Razılaşan Dövlətlər tərəfindən Şuraya reqlament üzrə məcburi olaraq öz mövqesini bildirmək kimi müddəa əlavə edilməsini prinsipial vacib hesab edirik. Bu müddəanın hətta tövsiyyə edilən təcrübəyə də tətbiq edilməsi məqsədəmüvafiq olardı. Belə düzəlişin edilməsi aviasiya reqlamentinin qüvvəyə minib-minməməsi haqqında qərarın qəbul edilməsi məsələsini asanlaşdırar.

Digər məsələ dövlətlərin milli təcrübələrinin BMAT-ın təsis etdiyi standartlar ilə ziddiyyət təşkil etməsidir. "Əgər dövlətlər bütünlüklə belə standartlarla razılaşırlarsa bu o deməkdir ki, dövlətin milli təcrübəsi konkret standarla ziddiyyət təşkil etmir. Bundan başqa istənilən dövlət istənilən vaxt bəyanat verə bilər ki, milli təcrübənin dəyişməsi ilə əlaqədar olaraq (bəzən heç səbəb göstərmədən də) o, bu və ya digər standarta, tövsiyyəyə və ya bütövlükdə hər hansı bir Əlavəyə riayət etməyi dayandırır". Beləliklə, aviasiya reqlamentini texniki (təşkilati, adminstrativ) normativ, müəyyən qayda kimi müəyyən etmək olar. Dövlətlər tərəfindən bu normativin yerinə yetirilməsi məcburi deyil.

Aviasiya reqlamentlərinin hüquqi təbiəti haqqında mövcud olan fikirləri ümumiləşdirsək qeyd etmək olar ki, onlar texniki, təşkilatı və adminstrativ standartların və hüquqyaratmanın simbiozundan ibarətdir. Belə simbioz nəticəsində mürəkkəb hüquqi-texniki konstruksiya əmələ gəlir. Aviasiya reqlamentləri beynəlxalq təşkilatların tənzimləmə funksiyasıyalarının təzahürü kimi, razılaşdırılmış davranış qaydalarıdır və onlar iştirakçı dövlətlər tərəfindən tətbiqi hüquqi vacib qəbul edilənə qədər beynəlxalq hüququn normaları hesab edilə bilməzlər.

Yuxarıda qeyd edilənləri təhlil edərək belə nəticəyə gəlmək olar ki, bütün digər Əlavələr kimi, 17 saylı Əlavə də öhdəçilik xarakterinə və məzmununa görə beynəlxalq müqaviləyə yaxındır. Bununla əlaqədar olaraq bəzi dövlətlərdə onun milli qanunvericiliyə implementasiyası üzrə prosedurlar həyata keçirilir.

Aviasiya reqlamentlərinin hüquqi təbiətini nəzərə alsaq qeyd etmək yerinə düşər ki, onların hamısı öz statuslarına görə eyni deyillər. A.Q Lyakov hesab edir ki, "17 saylı Əlavə dövlət və dövlətlərarası səviyyədə mülki aviasiyanın təhlükəsizliyinə hədə yaradan qanunsuz aktlarla mübarizənin texniki tədbirlərindən çox təşkilatı və admistrativ əsasını təşkil edir. 17 saylı Əlavənin belə xarakteri onu Çikaqo konvensiyasının digər əlavələrindən fərqləndirir. Qeyd edilənləri nəzərə

alaraq, bizcə bu sənədin normalarının statusunu beynəlxalq müqavilə səviyyəsinə "qaldırmaq" məqsədəmüvafiq olardı.

Bu zaman hansısa yeni sənədin yaradılmasına zərurət yaranmır. 17 saylı Əlavə öz mahiyyətinə və məzmununa görə mülki aviasiya sahəsində təhlükəsizliyin lazımi səviyyəsinin təmini üzrə beynəlxalq-hüquqi normaların yaradılması sferasında beynəlxalq birliyin əsas tələblərinə cavab verir. Lakin belə bir qeyd-şərt qəbul etmək lazımdır ki, 17 saylı Əlavənin məcburi müddəaları yalnız standartlar olacaq. Tövsiyyə edilən təcrübə isə öz hüquqi statusuna görə əvvəlki kimi, aviasiya təhlükəsizliyi tədbirlərinin sonraki mükəmməlləşdirilməsi orientir keyfiyyətində xidmət edə bilər. Zamanın tələbi ilə tövsiyyə edilən təcrübənin statusu standart statusunə qədər yüksələ və məcburi hüquqi qüvvə əldə edə bilər.

Hava nəqliyyatında terrorizmlə mübarizə haqqında və bununla əlaqədar unifikasiya edilmiş dünya standartlarından danışdıqda, təkcə 17 saylı Əlavə ilə məhdudlanmaq olmaz. Qeyd etmək zəruridir ki, Çikaqo konvensiyasına əlavələrin içərisində araşdırılan problemi reqlamentləşdirən digər standartlar da mövcuddur. Belə ki, 6 saylı Əlavənin "Hava gəmilərinin istismarı" və 8 saylı Əlavənin "Hava gəmilərinin uçuş yararlığı" standartlarını qeyd etmək yetərlidir.

Bizim fikirlərimizə görə, standart və tövsiyyələrin (SARPS) bütün Razılaşan Dövlətlər üçün məcburi hüquqi qüvvəyə malik olması üçün onun beynəlxalq-hüquqi statusunun beynəlxalq müqavilə səviyyəsinə yüksəldilməsinin yeganə üsulu var. Qeyd edildiyi kimi, Çikaqo konvensiyasının bütün SARPS-ları öz hüquqi statusuna görə oxşar deyillər. Məsələn açıq dəniz üzərində uçuş qaydalarını müəyyən edən normalar digərlərindən fərqlənir. Çikaqo konvensiyasının 12-ci maddəsində deyilir ki, "açıq dəniz üzərində bu konvensiya ilə müəyyən olunan qaydalar qüvvədədir". Bu halda "açıq dəniz üzərində uçuşları tənzimləyən standartlara münasibətdə, əgər onlar konvensiyanın müddəalarına uyğun olaraq dövlətlərin çoxu tərəfindən qəbul edilibsə, BMAT-in üzvü olan digər dövlətlər bəyan edə bilməzlər ki, onların milli təcrübələri BMAT tərəfindən müəyyən edilmiş normalardan fərqlidir və azlıq təşkil edən bu dövlətlər öz milli təcrübələrində yalnız BMAT-ın uyğun standartlarını rəhbər tutmalıdırlar. Beləliklə, BMAT-ın üzvü olan bəzi dövlətlərin açıq dəniz üzərində uçuş qaydalarının tanınması ilə əlaqədar mümkün olan narazılıqları, bu dövlətlər tərəfindən qaydaların yerinə yetirilməsinin məcburiliyinə dəlalət etmir."

Qeyd edilənləri nəzərə alaraq Çikaqo konvensiyasına yalnız aviasiya təhlükəsizliyi üzrə standartlar sahəsində 12-ci maddənin məzmununun mahiyyətinə uyğun olaraq analoji maddələrin daxil edilməsini təklif etmək olar. Bu 17 saylı Əlavənin statusunu dəyişə bilər.

Bundan əlavə hava nəqliyyatında terrorizmlə mübarizədə BMAT-ın Əlavələrinin SARPS-larının səviyyəsinin yüksəldilməsi üçün beynəlxalq mülki aviasiya haqqında Çikaqo konvensiyasının 37-ci maddəsinə "mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktaları" mahiyyətli müddəa əlavə edilməsi məqsədəmüvafiqdir.

ƏDƏBİYYAT

1. Mülki aviasiya haqqında konvensiya.-Monreal:İCAO, 7300/8,səkkizinci nəşr, 2000-ci il.
2. Annex 17 to the Chicago Convention - Security. Safeguarding International Ciil Aviation against Acts of Unlawful Interference. – Montreal: ICAO, Seventh Edition, April 2002.
3. Тункин Г.И. Теория международного права. – М.: «Международные отношения», 1970.
4. Верещагин А.Н. Юридическая природа и особенности технических норм в международном праве. // Советский ежегодник международного права, 1971. – М.: Наука, 1973.

ЮРИДИЧЕСКАЯ ПРИРОДА МЕЖДУНАРОДНЫХ АВИАЦИОННЫХ РЕГЛАМЕНТОВ, РЕГУЛИРУЮЩИХ АВИАЦИОННУЮ БЕЗОПАСНОСТЬ

Н.Т. Нагиев., Г.А. Ахмедов

В настоящее время особую актуальность приобретают вопросы совершенствования международного права в области противодействия терроризма на воздушном транспорте.

Повышение значимости борьбы с терроризмом на воздушном транспорте на сегодняшний день заставляет мировое сообщество по новому относиться к стандартам и рекомендуемой практике 17 Приложения к Чикагской конвенции. В этой связи исследование юридической природы и международно-правового статуса стандартов и рекомендуемой практики 17 Приложения приобретает научный интерес.

THE LEGAL NATURE OF INTERNATIONAL AVIATION REGULATIONS GOVERNING AVIATION SECURITY

N.T. Nagiyev, H.A. Akhmadov

International law in the fight against terrorism, to improve air transport research activities carried out during this period is of particular importance. Currently, the importance of air transport in the global fight against terrorism the Appendix 17 of the Chicago Convention establishes standards and recommendations need revision and amendment of the legal nature of the international legal status of the investigation are of high interest.

Milli Aviasiya Akademiyasının yeni çap məhsulları!

1 A.M. Paşayev, A.R. Həsənov, İ.Ə. İsgəndərov, F.A. Abdurəhimov
ELEKTRON QURĞULARININ ƏSASLARI

Ünvanımız: AZ 1045 Bakı ş., Mərdəkan pr.30 3
Milli Aviasiya Akademiyası.
Tel: 497-26-00, əlavə 21- 85.

HAVA NƏQLİYYATINDA TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

PSYCHOLOGICAL AND TECHNICAL ASPECTS OF THE EVACUATION OF PASSENGERS IN AVIATION ACCIDENTS

T.R. Jafarzade

National Aviation Akademy

Evacuation from the aircraft is one of the difficult ones for modeling situations where the interaction between the functional units of the air transport system, organizational, technical and psychological aspects are intertwined. The study of these aspects and implementation of new methods of preparation-and evacuation in real situations can reduce the quantity of victims during aircraft accidents.

Keywords: *flights safety, evacuation, technical aspects, psychological aspects*

Introduction. On February,2nd 1991, flight 1493, Boeing 737-3B7 (boarding N388US) crashed into Fairchild Metroliner jet of Skywest Airlines when approaching the busy strip 24L of Los Angeles airport at night. After collision both aircrafts skidded off runway and stopped. Flight service error has led to that fact that 22 of total 87 passengers from Boeing and 12 from Fairchild Metroliner died. The location of bodies gave the National Transportation Safety Board (NTSB) the idea that 17 of those who died on Boeing 737 actually unfastened their seat belts and died of smoke poisoning when fighting their way forward to the exit. Only two victims were found in their seats [1]. (Pic.1) On July, 08-09 2006 there's a regular flight S7 778 from Domodedovo to Irkutsk on the aircraft A-130 (state registration number F-OGYP (France)), exploited by "Sibir" Airlines JSCo. The plane failed to stop on the runway when landing, but skidded beyond and crashed into a nearby garage complex. As a result 124 people of those 203 passengers died. According to the reported to the commission results of medico legal investigation 119 people of 120 died because of acute carbon monoxide poisoning in combination with lack of oxygen in the air inspired (in one case poisoning was combined with traumatic brain injury) and 1 passenger died from severe injuries in combination with burns of body [2]. The reason for such a large number of victims in these and many other aviation accidents (AA) was wrong way of evacuation.



The problem of flights safety (FS) is becoming increasingly important while civil aviation turned into one of the main types of passengers transportation. With introduction of aircrafts with large passenger capacity into service the severity level of potential flight accidents will increase as these aircrafts with 250 tons of fuel on board will carry from 500 to 800 passengers in different configuration. Therefore, a fast and efficient passengers' evacuation in a flight accident is an integral part of ensuring safety system of passengers on the aircraft.

The solution of this problem is possible only on the basis of the comprehensive improvement of rescue equipment, both theoretical and practical training of the crew and given the technical and psychological aspects and new evacuation methods from the crashed aircraft implementation . Obviously, the directions of improving the evacuation may be defined only after a comprehensive analysis of the problem appearing during its implementation. FA statistics, and thus rescue works related to this, shows that about 68% of accidents occur during take-off, initial height gain, approach or landing at the airport or near it where the level of effectiveness of the airport emergency service is the highest. Nowadays 30-50% of passengers die in such accidents. It is also known that 55% of all AA are accompanied with fires of various intensity when the number of victims is increasing significantly. For example, if an aircraft accident is accompanied with fire the number of victims in this case is increased by approximately 30-40%. Hence there's one of the main problems, arranging rapid evacuation of passengers and the crew from the crashed aircraft [3].

Technical aspects of the evacuation. There're various kinds of difficulties that during the evacuation of passengers from the aircraft which result time increase of staying in the emergency plane, thereby reducing the possibility of their survival. Passengers' evacuation from the aircraft in each emergency accident is primarily dependent on the state of the coherence of the crew at that moment, doors and emergency escape hatches of the aircraft, the intensity of a fire, timely arrival of a rescue team, the condition of the territory, time of day, etc. Practice shows that the incidence of jamming doors and escape hatches of an aircraft and blocking people with the rubble inside the cabin after hitting it on the ground (without fire) is approximately 12% of all cases of emergency landings.

Evacuation from the aircraft is one of the difficult ones for modeling situations where the interaction between the functional units of the air transport system, organizational, technical and psychological aspects are intertwined. In case of fire, smoke in the cabin, approaching the water the difficulties in passengers' evacuation are considerably increasing. As it is known in the case of fire, smoke, and splashdown and an unusual position of the aircraft evacuation is done without a cabin crew that itself creates problems of decision taking by the flight attendants. Technical difficulties such as a fire in the aircraft cabin heat of an insulating inner cladding causing the release of toxic substances, inflammation of cabin interior materials, suspense splashdown in the water line, usage of the rear door when buckled front strut are one of the most important features of the problem. Ground post-accident fire is also one of the factors complicating the evacuation. At this time it is necessary to proceed from the fact that its time depends on the speed of the danger-restricted area increasing (DRA) for a successful evacuation (smoke, heat, flooding, fire)

$$Te = f(V_{DRA}). \quad (1)$$

In most cases apparently this formula (1) can be displayed as an interaction

$$T_e = \{\min\} T_{ki} = S_k/(V_{DRAi}) \le \{T_e\}, \quad (2)$$

where T_{ki} is time of *i*-dangerous factor emission at a distance *Sk*; *Sk* is a distance of considered *k*-path section of an original evacuation coverage, and then – from the area of *i*-dangerous factor emission; V*DRAi*) speed of the *i*-dangerous factor emission (fire, smoke, combustion products, water, temperature field, etc.). Formulas (1) and (2) show that it's necessary to increase the distance from the affected area to the beginning of evacuation route, and/or reduce the DRA emission speed, and/or protect people from DRA influence by arranging a rapid evacuation.

While calculating the whole traffic route is divided into segments the initial segment is the aisles and site-to-door, hatch or aperture occurred when hitting the obstacle.

